# “AZƏR-TÜRK BANK”
# AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2025-ci il tarixinə başa çatan il üzrə
**Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditor Hesabatı**

## “AZƏR-TÜRK BANK” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT

**Səhifələr**

31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT ..... 1

**Müstəqil auditor hesabatı** ..... 2-3

**Maliyyə hesabatları**

Maliyyə vəziyyəti haqqında hesabat ..... 4
Mənfəət və ya zərər haqqında hesabat ..... 5
Məcmu gəlir haqqında hesabat ..... 6
Kapitalda dəyişikliklər haqqında hesabat ..... 7
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ..... 8

**Maliyyə hesabatlarına qeydlər**

1. Əsas fəaliyyəti ..... 9
2. Hesabatların hazırlanmasının əsasları ..... 10
3. Yeni uçot standartları və ya onlara 2025-ci üçün edilən düzəlişlər və gözlənən tələblər ..... 10
4. Mühasibat uçotu siyasətinə dair mühüm məlumatlar ..... 12
5. Mühüm mühasibat uçotu mühakimələri və təxminlər ilə bağlı qeyri-müəyyənliyin əsas mənbələri ..... 23
6. Pul vəsaitləri və onların ekvivalentləri ..... 25
7. Kredit təşkilatlarından alınacaq vəsaitlər ..... 25
8. Müştərilərə verilmiş kreditlər ..... 26
9. İnvestisiya qiymətli kağızları ..... 34
10. Əmlak və avadanlıq ..... 36
11. Qeyri-maddi aktivlər ..... 37
12. Vergiqoyma ..... 37
13. Kredit zərərinin bərpası və digər dəyərsizləşmə və ehtiyatlar ..... 39
14. Digər aktivlər və öhdəliklər ..... 39
15. Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər ..... 41
16. Müştərilərə ödəniləcək vəsaitlər ..... 42
17. Kapital ..... 42
18. Təəhhüdlər və şərti öhdəliklər ..... 43
19. Xalis haqq və komissiya gəliri ..... 45
20. Digər gəlirlər ..... 45
21. İşçi heyəti ilə bağlı, ümumi və inzibati xərclər ..... 45
22. Risklərin idarə edilməsi ..... 46
23. Ədalətli dəyərin ölçülməsi ..... 57
24. Aktivlərin və öhdəliklərin ödəmə müddətinin təhlili ..... 59
25. Əlaqəli tərəflərə dair açıqlamalar ..... 59
26. Kapital adekvatlığı ..... 62
27. Hesabat tarixindən sonrakı hadisələr ..... 62

# 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Aşağıda təqdim edilən hesabat müəssisə rəhbərliyinin və auditorların "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") maliyyə hesabatları ilə bağlı öhdəliklərini müəyyən etmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Bankın 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, həmin tarixə başa çatan il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS Standartları") uyğun olaraq düzgün əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

- Uyğun mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların mütəmadi olaraq tətbiqinə;
- Əsaslandırılmış və məqsədəuyğun mühakimə və təxminlərin irəli sürülməsinə;
- Maliyyə hesabatlarında açıqlanan və izah edilən hər hansı əhəmiyyətli kənarlaşmalar nəzərə alınmaqla, MHBS Standartlarına əməl edilib-edilməməsinin qeyd olunmasına;
- Bankın yaxın gələcəkdə öz fəaliyyətini davam etdirməsi ehtimalının məqsədəuyğun olmadığı hallar istisna olmaqla, maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

- Bankda sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Bankın maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlana biləcəyi və Bankın maliyyə hesabatlarının MHBS Standartlarına uyğunluğunu təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu standartlarına müvafiq olaraq yerli uçot qeydlərinin aparılmasına;
- Bankın aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlərin görülməsinə; və
- Fırıldaqçılıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Bankın 31 dekabr 2025-ci il tarixinə başa çatan il üzrə maliyyə hesabatlarının buraxılması Bankın İdarə Heyəti tərəfindən 29 aprel 2026-cı il tarixində təsdiqlənmişdir.

**Bankın İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:**

| | |
|---|---|
| **Xanım Günel Nəbiyeva** | **Cənab Fuad Məmmədli** |
| İdarə Heyətinin Sədri | İdarə Heyəti Sədrinin Müavini |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |
| 29 aprel 2026-cı il | 29 aprel 2026-cı il |

Azər-Türk Bank Açıq Səhmdar Cəmiyyəti · Azer-Turk Bank Open Joint-Stock Company · atb

Deloitte & Touche MMAC
Bakı Ağ Şəhər Ofisi Binası
8 Noyabr pr. 25E
Bakı, AZ1025, Azərbaycan
Tel: +994 (12) 404 12 10
Faks: +994 (12) 404 12 11
deloitte.az

# MÜSTƏQİL AUDİTOR HESABATI

**"Azər-Türk Bank" ASC-nin Səhmdarlarına və Müşahidə Şurasına:**

## Rəy

Biz "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixə başa çatan il üzrə mənfəət və ya zərər, sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühasibat uçotu siyasətinə dair mühüm məlumatlar daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları Bankın 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixə başa çatan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası ("MUBSŞ") tərəfindən buraxılmış MHBS üzrə Uçot Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

## Rəyin Əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS-lar") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti* bölməsində təsvir olunur. Biz ictimai əhəmiyyətli qurumların maliyyə hesabatlarının auditinə tətbiq edilən Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının *Peşəkar Mühasiblər üçün Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları daxil olmaqla)* ("MBESŞ Məcəlləsi") uyğun olaraq Bankdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Həmçinin biz etika ilə bağlı digər öhdəliklərimizi MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

## Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının BMUSŞ tərəfindən buraxılmış MHBS üzrə Uçot Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərliyin Bankı ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Bankın fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər Bankın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited ("DTTL") şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL (həmçinin "Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir və üçüncü tərəflərə münasibətdə bir-birini öhdəliklə bağlaya bilməzlər. DTTL və hər bir DTTL üzvü və əlaqəli qurum yalnız öz hərəkətləri və hərəkətsizliklərinə görə məsuliyyət daşıyır, bir-birinin hərəkətlərinə görə məsuliyyət daşımır. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.
© 2026. Deloitte & Touche MMC. Bütün hüquqlar qorunur.

**Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək əhəmiyyətli təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-lara uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün əhəmiyyətli təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürməklə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-lara uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Biz həmçinin:

- Maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış olanların aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Bankın daxili nəzarət sisteminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu prinsiplərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Bankın öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə önəmli şübhə doğura biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxardırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər Bankın öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Açıqlamalar daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı və audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar daxil olmaqla aşkar olunan mühüm məsələlər barədə məlumat veririk.

Biz həmçinin idarəetmə səlahiyyətləri olan şəxslərə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimiz, eləcə də müstəqilliyimizə təsir göstərməsi əsaslı şəkildə ehtimal olunan bütün əlaqələr və başqa məsələlər, əgər olarsa, təhdidlərin aradan qaldırılması üçün görülmüş və ya qoruyucu tədbirlər haqqında onlara məlumat verəcəyimiz barədə bəyanat təqdim edirik.

Bu müstəqil auditor hesabatı ilə yekunlaşan audit tapşırığında iştirak edən audit partnyoru Camal Həsənovdur.

Deloitte + Touche LLAC

DELOITTE & TOUCHE
MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ
AZERBAIJAN

Bakı, Azərbaycan
30 aprel 2026-cı il

## "AZƏR-TÜRK BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(Cədvəldəki rəqəmlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | *Qeydlər* | **31 dekabr 2025-ci il** | **31 dekabr 2024-cü il** |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6, 22 | 998,475 | 938,170 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 7, 22 | 142,923 | 152,685 |
| Müştərilərə verilmiş kreditlər | 8, 22 | 773,345 | 792,861 |
| İnvestisiya qiymətli kağızları | 9, 22 | 193,040 | 141,878 |
| Əmlak və avadanlıqlar | 10 | 26,378 | 19,692 |
| Qeyri-maddi aktivlər | 11 | 6,760 | 6,495 |
| Cari mənfəət vergisi aktivi | | 57 | - |
| Digər aktivlər | 14 | 32,800 | 19,441 |
| **Cəmi aktivlər** | | **2,173,778** | **2,071,222** |
| **Öhdəliklər** | | | |
| Kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlər | 15, 22 | 410,513 | 361,893 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 16, 22 | 1,627,686 | 1,565,057 |
| İcarə öhdəlikləri | 14 | 11,319 | 4,333 |
| Cari mənfəət vergisi öhdəliyi | | - | 3,519 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 12 | 1,127 | 400 |
| Digər öhdəliklər | 14 | 9,074 | 35,734 |
| **Cəmi öhdəliklər** | | **2,059,719** | **1,970,936** |
| **Kapital** | 17 | | |
| Səhmdar kapitalı | | 100,500 | 79,000 |
| Bölüşdürülməmiş mənfəət | | 12,583 | 22,840 |
| Ədalətli dəyər ehtiyatı | | 976 | (1,554) |
| **Cəmi kapital** | | **114,059** | **100,286** |
| **Cəmi öhdəliklər və kapital** | | **2,173,778** | **2,071,222** |

**Bankın İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:**

**Xanım Günel Nəbiyeva**
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

**Cənab Fuad Məmmədli**
İdarə Heyəti Sədrinin Müavini
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

Azər-Türk Bank Açıq Səhmdar Cəmiyyəti * Azer-Turk Bank Open Joint-Stock Company * atb

*9-62-ci səhifələrdə əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

# 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR HAQQINDA HESABAT

*(Cədvəldəki rəqəmlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | *Qeydlər* | *31 dekabr 2025-ci il tarixinə başa çatan il* | *31 dekabr 2024-cü il tarixinə başa çatan il* |
|---|---|---|---|
| **Faiz gəliri** | | | |
| Müştərilərə verilmiş kreditlər | 25 | 82,901 | 72,388 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | | 31,569 | 28,406 |
| İnvestisiya qiymətli kağızları | | 11,273 | 5,839 |
| **Effektiv faiz dərəcəsi metodundan istifadə edərək hesablanmış faiz gəliri** | | **125,743** | **106,633** |
| **Faiz xərci** | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | | (54,222) | (38,511) |
| Kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlər | | (8,885) | (9,390) |
| İcarə öhdəlikləri | 14 | (729) | (557) |
| | | **(63,836)** | **(48,458)** |
| **Xalis faiz gəliri** | | **61,907** | **58,175** |
| Maliyyə aktivləri üzrə kredit zərəri xərci | 13 | (6,060) | (4,034) |
| **Dəyərsizləşmə zərərlərindən sonra xalis faiz gəliri** | | **55,847** | **54,141** |
| Haqq və komissiya gəliri | 19 | 24,166 | 22,882 |
| Haqq və komissiya xərci | 19 | (20,586) | (17,388) |
| **Haqq və komissiya gəliri, xalis** | 19 | **3,580** | **5,494** |
| Xarici valyuta üzrə xalis gəlirlər: | | | |
| - dilinq əməliyyatları üzrə | | 11,437 | 14,223 |
| - məzənnə fərqi | | 872 | 221 |
| Digər gəlir | 20 | 738 | 857 |
| **Qeyri-faiz gəliri** | | **16,627** | **20,795** |
| İşçi heyəti ilə bağlı xərclər | 21 | (37,462) | (29,604) |
| Ümumi və inzibati xərclər | 21 | (10,326) | (10,917) |
| Köhnəlmə və amortizasiya | 10, 11 | (9,751) | (6,783) |
| Kreditlə əlaqəli öhdəliklər və digər dəyərsizləşmə üzrə ehtiyat | 14,18 | (81) | (21) |
| **Qeyri-faiz xərcləri** | | **(57,620)** | **(47,325)** |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **14,854** | **27,611** |
| Mənfəət vergisi xərci | 12 | (3,611) | (6,225) |
| **İl üzrə mənfəət** | | **11,243** | **21,386** |

**Bankın İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:**

Azer-Türk Bank Açıq Səhmdar Cəmiyyəti · atb · Azer-Turk Bank Open Joint-Stock Company

**Xanım Günel Nəbiyeva**
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

**Cənab Fuad Məmmədli**
İdarə Heyəti Sədrinin Müavini
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

*9-62-ci səhifələrdə əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MƏCMU GƏLİR HAQQINDA HESABAT

*(Cədvəldəki rəqəmlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | *Qeydlər* | ***31 dekabr 2025-ci il tarixinə başa çatan il*** | ***31 dekabr 2024-cü il tarixinə başa çatan il*** |
|---|---|---|---|
| **İl üzrə mənfəət** | | **11,243** | **21,386** |
| | | | |
| **Digər məcmu gəlir** | | | |
| *Sonrakı dövrlərdə mənfəət və ya zərərə təkrar təsnif edilməli olan digər məcmu gəlir* | | | |
| DMGƏD-də tanınan borc alətləri üzrə gözlənilən kredit zərərləri üçün ehtiyatlarda dəyişikliklər | 9 | 25 | (9) |
| Digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə tanınan borc alətlərinin ədalətli dəyərində xalis dəyişiklik | 9 | 3,048 | (1,911) |
| Digər məcmu gəlirin komponentlərinə aid mənfəət vergisi | 12 | (615) | 384 |
| **Vergi çıxılmaqla, il üzrə mənfəət və ya zərərə təkrar təsnifləşdirilməli olan cəmi digər məcmu gəlir/(xərc)** | | **2,458** | **(1,536)** |
| | | | |
| *Sonrakı dövrlərdə mənfəət və ya zərərə təkrar təsnifləşdirilməyəcək digər məcmu gəlir* | 9 | | |
| Digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə tanınan kapital alətlərinin ədalətli dəyərində xalis dəyişiklik | 9 | 90 | (465) |
| Digər məcmu gəlirin komponentlərinə aid mənfəət vergisi | 12 | (18) | 93 |
| **Vergi çıxılmaqla, il üzrə mənfəət və ya zərərə təkrar təsnifləşdirilməyəcək cəmi digər məcmu xərc** | | **72** | **(372)** |
| **Vergi çıxılmaqla, il üzrə digər məcmu gəlir/(xərc)** | | **2,530** | **(1,908)** |
| | | | |
| **İl üzrə digər məcmu gəlir** | | **13,773** | **19,478** |

**Bankın İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:**

**Xanım Günel Nəbiyeva**
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

**Cənab Fuad Məmmədli**
İdarə Heyəti Sədrinin Müavini
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

*9-62-ci səhifələrdə əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

# "AZƏR-TÜRK BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Cədvəldəki rəqəmlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | *Səhmdar kapitalı* | *Ədalətli dəyər ehtiyatı* | *Bölüşdürülməmiş mənfəət* | *Cəmi kapital* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il** | **50,000** | **354** | **30,454** | **80,808** |
| Bölüşdürülməmiş mənfəətdən səhmdar kapitalına köçürmə | 29,000 | - | (29,000) | - |
| İl üzrə xalis mənfəət | - | - | 21,386 | **21,386** |
| İl üzrə digər məcmu zərər | - | (1,908) | - | **(1,908)** |
| **31 dekabr 2024-cü il** | **79,000** | **(1,554)** | **22,840** | **100,286** |
| Bölüşdürülməmiş mənfəətdən səhmdar kapitalına köçürmə | 21,500 | - | (21,500) | - |
| İl üzrə xalis mənfəət | - | - | 11,243 | **11,243** |
| İl üzrə digər məcmu gəlir | - | 2,530 | - | **2,530** |
| **31 dekabr 2025-ci il** | **100,500** | **976** | **12,583** | **114,059** |

**Bankın İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:**

**Xanım Günel Nəbiyeva**
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

**Cənab Fuad Məmmədli**
İdarə Heyəti Sədrinin Müavini
Bakı, Azərbaycan Respublikası

29 aprel 2026-cı il

*9-62-ci səhifələrdə əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

## "AZƏR-TÜRK BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(Cədvəldəki rəqəmlər min Azərbaycan manatı ilə təqdim edilir)*

| | *Qeydlər* | *31 dekabr 2025-ci il tarixinə başa çatan il* | *31 dekabr 2024-cü il tarixinə başa çatan il* |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | | |
| Alınmış faizlər | | 125,683 | 105,103 |
| Ödənilmiş faizlər | | (63,440) | (46,885) |
| Alınmış haqq və komissiyalar | | 24,314 | 22,895 |
| Ödənilmiş haqq və komissiyalar | | (19,352) | (16,892) |
| Xarici valyuta ilə dilinq əməliyyatlarından xalis reallaşdırılmış gəlirlər | | 11,437 | 14,223 |
| İşçi heyəti ilə bağlı ödənilmiş xərclər | | (36,215) | (29,934) |
| Ödənilmiş ümumi və inzibati xərclər | | (15,021) | (13,635) |
| Əldə edilmiş digər gəlirlər | | 738 | 857 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən əldə edilən pul vəsaitləri** | | **28,144** | **35,732** |
| *Əməliyyat aktivləri üzrə xalis (artım)/azalma* | | | |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | | 9,507 | (46,420) |
| Müştərilərə verilmiş kreditlər | | 13,887 | (352,566) |
| Digər aktivlər | | (10,906) | 7,620 |
| *Əməliyyat öhdəlikləri üzrə xalis artım/(azalma)* | | | |
| Kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlər | | 34,285 | 61,347 |
| Müştərilərə ödəniləcək vəsaitlər | | 48,681 | 993,211 |
| Digər öhdəliklər | | (21,696) | 15,408 |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətləri üzrə (istifadə olunan)/əldə olunan xalis pul vəsaitləri** | | **101,902** | **714,332** |
| Ödənilmiş mənfəət vergisi | | (7,090) | (4,085) |
| **Əməliyyat fəaliyyəti üzrə (istifadə olunan)/əldə olunan xalis pul vəsaitləri** | | **94,812** | **710,247** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitləri** | | | |
| İnvestisiya qiymətli kağızlarının satışı və geri alınması üzrə daxilolmalar | | 71,766 | 121,179 |
| İnvestisiya qiymətli kağızlarının satın alınması | | (119,958) | (199,339) |
| Əmlak və avadanlığın satın alınması | | (5,503) | (5,439) |
| Qeyri-maddi aktivlərin əldə edilməsi | | (1,906) | (2,552) |
| **İnvestisiya fəaliyyəti üzrə əldə olunan /(istifadə olunan) xalis pul vəsaitləri** | | **(55,601)** | **(86,151)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitləri** | | | |
| Kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlər üzrə daxilolmalar | 15 | 30,766 | 32,344 |
| Kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlərin qaytarılması | 15 | (16,251) | (14,700) |
| Ödənilmiş icarə öhdəliyi | 14 | (3,524) | (3,601) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə əldə olunan xalis pul vəsaitləri** | | **10,991** | **14,043** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | 9,791 | (10,785) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | | **59,993** | **627,354** |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə | 6 | 938,170 | 310,816 |
| **Pul vəsaitlərinin hərəkəti üzrə pul vəsaitləri və onların ekvivalentləri ilin sonuna** | | **998,163** | **938,170** |
| Pul vəsaitləri və onların ekvivalentlərinə daxil edilmiş hesablanmış faiz | | 312 | - |
| **Maliyyə vəziyyəti haqqında hesabat üzrə pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna** | 6 | **998,475** | **938,170** |

**Bankın İdarə Heyəti adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:**

Azər-Türk Bank Açıq Səhmdar Cəmiyyəti
atb
Azer-Turk Bank Open Joint-Stock Company

| | |
|---|---|
| **Xanım Günel Nəbiyeva** | **Cənab Fuad Məmmədli** |
| İdarə Heyətinin Sədri | İdarə Heyəti Sədrinin Müavini |
| Bakı, Azərbaycan Respublikası | Bakı, Azərbaycan Respublikası |
| 29 aprel 2026-cı il | 29 aprel 2026-cı il |

*9-62-ci səhifələrdə əlavə olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.*

### 1. Əsas fəaliyyəti

“Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyəti (“Bank”) 1995-ci ilin may ayında Azərbaycan Respublikasında təsis edilmişdir. Bankın əməliyyatları Azərbaycan Respublikasının Mərkəzi Bankı (“AMB”) tərəfindən tənzimlənir və Bank öz fəaliyyətini 234 saylı lisenziya əsasında həyata keçirir.

Bankın əsas fəaliyyəti korporativ və pərakəndə bank əməliyyatlarının həyata keçirilməsindən ibarətdir. Bu əməliyyatlara sərbəst dönərli valyutalarda və Azərbaycan manatı (“AZN”) ilə depozitlərin alınması və kommersiya kreditlərinin verilməsi, Azərbaycanın daxilində və xaricə ödənişlərin köçürülməsi, müştərilərin ixrac/idxal əməliyyatlarının dəstəklənməsi, xarici valyutaların mübadiləsi, eləcə də kommersiya və pərakəndə müştərilərinə digər bank xidmətlərinin göstərilməsi daxildir.

31 dekabr 2025-ci il tarixinə Bankın fəaliyyət şəbəkəsi baş ofis, 1 müştəri xidməti mərkəzi və 16 filialdan ibarət olmuşdur (2024: baş ofis, 1 müştəri xidməti mərkəzi, 14 filial).

31 dekabr 2025-ci il tarixinə Bankın işçilərinin sayı 745 nəfər (2024: 675) olmuşdur.

Bankın hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı, AZ1078, C.Məmmədquluzadə küçəsi 85, 192/193.

31 dekabr tarixinə Bankın mövcud səhmlərinə aşağıdakı səhmdarlar sahib olmuşlar:

| ***Səhmdar*** | ***2025-ci il, %*** | ***2024-cü il, %*** |
|---|---|---|
| Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | 51.00 | - |
| Azərbaycan Respublikası Hökuməti | 24.00 | 75.00 |
| T.C. Ziraat Bankasi A.Ş | 12.37 | 12.37 |
| “AzRe Təkrarsığorta” ASC | 6.55 | 6.55 |
| “Qala Həyat” Sığorta Şirkəti ASC | 5.00 | 5.00 |
| “Ziraat Bank International AG” | 1.08 | 1.08 |
| **Cəmi** | **100.00** | **100.00** |

31 dekabr 2025-ci il tarixinə Bankın nəzarət zərfinə malik olan səhmdarı Azərbaycan Respublikası Dövlət Neft Şirkətidir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti 100 faiz Azərbaycan Respublikası Hökumətinə məxsusdur.

Səhmdarların Ümumi Yığıncağının 2024-cü ilin iyul ayında qəbul edilmiş qərarına əsasən, Bankın nizamnamə kapitalındakı dövlətə məxsus səhmlərin 51%-i Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə ötürülmüşdür. Bununla bağlı zəruri prosedurlar 2025-ci ilin oktyabr ayında yekunlaşdırılmışdır.

2020-ci ilin avqustunda dövlətə məxsus təşkilatların sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında” Fərman imzalamışdır. Azərbaycan İnvestisiya Holdinqinin idarəçiliyinə veriləcək dövlət şirkətlərinin siyahısı 5 noyabr 2020-ci il tarixində təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 22 sentyabr 2021-ci il tarixli Sərəncamı ilə “Azər-Türk Bank” ASC-nin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi təsdiq edilmişdir.

Bu maliyyə hesabatlarının buraxılması İdarə Heyəti tərəfindən 29 aprel 2026-cı il tarixində təsdiqlənmişdir.

**Biznes mühiti**

Bankın əməliyyatları əsasən Azərbaycanda aparılır. Nəticə etibarilə, Bank Azərbaycanın inkişaf etməkdə olan bazar xüsusiyyətlərini əks etdirən iqtisadi və maliyyə bazarlarının təsirinə məruz qalır. Hüquqi, vergi və tənzimləyici normaların təkmilləşdirilməsi davam etsə də, onlar müxtəlif cür şərh olunur və tez-tez dəyişir, bu da Azərbaycanda fəaliyyət göstərən müəssisələrin digər hüquq və vergi maneələri ilə yanaşı, müxtəlif çətinliklərlə üzləşməsinə səbəb olur.

Azərbaycanın iqtisadiyyatı xüsusilə neft və qaz qiymətlərinin dəyişməsinə həssasdır. Son illər ərzində Azərbaycan Hökuməti daha balanslı iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün irimiqyaslı iqtisadi və sosial islahatlara davam edir. Bu səylər artımın əsas hərəkətverici qüvvəsinə çevrilən qeyri-neft sektorunda diversifikasiyaya yönəlmişdi, belə ki, 2025-ci ildə ÜDM-dəki payı təxminən 71,5%-ə yüksəlmişdi. Bu artım kənd təsərrüfatı, sənaye, nəqliyyat və xidmət kimi sahələrdəki yüksək göstəricilərə əsaslanır. 2025-ci ildə Qeyri-neft sektoru üzrə ÜDM 2,7% artmış, neft-qaz sektoru isə 1,6% azalmış və karbohidrogen hasilatının azalması fonunda il ərzində ümumi ÜDM-nin 1,4% artımına səbəb olmuşdur. Dövlət Neft Fondu (ARDNF) tərəfindən dəstəklənən xarici valyuta ehtiyatları güclü olaraq qalır və davamlı ixrac gəlirləri güclü xarici mövqeyin saxlanması, ölkənin hazırkı hesabında əhəmiyyətli büdcə artıqlığının yaranması və xarici valyuta ehtiyatlarının artmasına səbəb olmuşdur. Azərbaycan Respublikasının Mərkəzi Bankı (“AMB”) 2018-ci ildən 1 ABŞ dolları üçün 1.7000 səviyyəsində qalan Azərbaycan manatının sabitliyini saxladı. Dünya bazarlarında qiymətlərin sabit qalması və inflyasiyanın azalmasının Azərbaycana təsiri ilə bağlı məsələləri həll etmək üçün 2024-cü ildə AMB-nin yenidən maliyyələşdirmə dərəcəsi 8.00 faizdən 7.25 faizə qədər, 2025-ci ilin dekabr ayında isə 6.75 faizədək azaldıldı və 31 dekabr 2025-ci il tarixinə qədər dəyişməz saxlanıldı.

2024-cü il ABŞ-da keçirilən seçkilərindən sonra 2025-ci ildə tətbiq edilən tarif siyasətləri, o cümlədən Azərbaycandan olan idxala tətbiq edilən 10% baza tarifi səbəbindən iqtisadi qeyri-müəyyənlik artmışdır. Bu şərtlər Azərbaycanın milli iqtisadiyyat perspektivinə təsir göstərməyə davam edə bilər. Bu şərtlər qlobal iqtisadi qeyri-müəyyənliyi yüksək səviyyədə saxlamış, eyni zamanda bazar dəyişkənliyinə və əmtəə qiymətlərində dalğalanmalara səbəb olmuşdur. Qlobal artımın mümkün yavaşlamaları ilə bağlı narahatlıqlar da mövcuddur. ABŞ ilə ticarətin kiçik, ildə təxminən 400-500 milyon ABŞ dolları olması səbəbindən qeyd edilən şərtlərin Azərbaycana birbaşa təsiri məhduddur, belə ki, Azərbaycanın ABŞ-yə ixracı əsasən qeyri-karbohidrogenlər təşkil edir və az təsir müşahidə olunmuşdur. Qlobal tələbin zəifləməsi ilə bağlı narahatlıqlar səbəbindən neft qiymətlərini azaldan təsir dolayı təsirlərə aiddir. Bu, karbohidrogendən əldə edilən gəlirlərin əldə edilməsi üçün çətinliklər yaradır, buna baxmayaraq diversifikasiya inkişaf tempini saxlamaqda davam edir. Güclü valyuta ehtiyatları, manatın sabit məzənnəsi və Orta Dəhliz kimi marşrutlara diqqətin yönəldilməsi ani fasilələrin qarşısını almağa kömək etmişdir. Bankın rəhbərliyi vəziyyəti fəal şəkildə izləyir və əməliyyatlarının davamlılığını və artımını dəstəkləmək üçün zəruri ehtiyat tədbirləri həyata keçirir.

## 2. Hesabatların hazırlanmasının əsasları

### Ümumi

Hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən buraxılmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS Standartları”) uyğun tərtib edilmişdir. Hazırkı maliyyə hesabatları Bankın hal-hazırda fəaliyyətini fasiləsizlik prinsipinə uyğun olaraq davam etdirməsi və gələcəkdə də bu cür fəaliyyət göstərəcəyi ehtimalına əsaslanaraq hazırlanmışdır.

Bankın əməliyyat və təqdimat valyutası Azərbaycan manatıdır ("AZN"), belə ki, Bank əməliyyatları əsasən AZN ilə ifadə edilir, ölçülür və ya maliyyələşdirilir. Digər valyutalarla aparılmış əməliyyatlar xarici valyuta ilə əməliyyatlar kimi uçota alınır. Bankdan uçotun aparılmasının və maliyyə hesabatlarının hazırlanmasının AZN ilə və MHBS Standartlarına uyğun olaraq həyata keçirilməsi tələb olunur. Hazırkı maliyyə hesabatları hər bir səhmə düşən məbləğlər və xüsusi olaraq qeyd edilmiş hallar istisna olmaqla, min AZN ilə təqdim edilir.

Maliyyə hesabatları ədalətli dəyər əsasında ölçülmüş investisiya qiymətli kağızları istisna olmaqla, ilkin maya dəyəri əsasında hazırlanmışdır.

## 3. Yeni uçot standartları və ya onlara 2025-ci üçün edilən düzəlişlər və gözlənən tələblər:

### Yeni və düzəliş edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları

a) 2025-ci ildən məcburi qüvvəyə minən düzəlişlər

**MUBS 21-yə düzəlişlər - *Mübadilə qabiliyyətinin olmaması***

Düzəlişlər valyutanın nə vaxt çevriləcəyini və çevrilə bilmədiyi hallarda hansı məzənnənin müəyyən olunması barədə təlimatları ehtiva edir. Düzəlişlər 1 yanvar 2025-ci il tarixindən və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

Yuxarıda qeyd olunan standart, ona edilən düzəlişlər və təkmilləşdirmələr Bankın maliyyə vəziyyətinə və fəaliyyətinə heç bir əhəmiyyətli təsir göstərmir.

b) Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni və düzəliş edilmiş MHBSlər

Bank aşağıda göstərilən standartları, həmin standartlara düzəliş və şərhləri tətbiq etməmişdir:

| | |
|---|---|
| MHBS 18 | *Maliyyə Hesabatlarında Təqdimat və Açıqlamalar* |
| MHBS 19 | *Publik Hesabat Aparmayan Törəmə Müəssisələr: Açıqlamalar* |
| MHBS 9 və MHBS 7-yə düzəlişlər | *MHBS 9 və MHBS 7-yə dəyişikliklər – Maliyyə alətlərinin təsnifatı və ölçülməsinə dəyişikliklər haqqında* |
| MHBS 9 və MHBS 7-yə düzəlişlər | *Elektrik enerjisinin satın alınması razılaşmaları haqqında* |
| İllik Təkmilləşdirmələr | *MHBS üzrə Uçot Standartlarına İllik Təkmilləşdirmələr – 11-ci buraxılış* |
| MHBS 19-a düzəlişlər | *Publik Hesabat Aparmayan Törəmə Müəssisələr: Açıqlamalar* |
| MUBS 21-ə düzəlişlər | *Hiperinflyasiya İqtisadiyyatında Təqdimat Valyutasına Çevrilmə* |
| MHBS S2-yə düzəlişlər | *İstixana Qazlarının Emissiyaları ilə bağlı Açıqlamalar* |

**MHBS 18 *Maliyyə Hesabatlarında Məlumatların Təqdimatı və Açıqlanması***

MHBS 18 maliyyə hesabatlarında məlumatların təqdim edilməsi və açıqlanması ilə bağlı MHBS-ni tətbiq edən bütün müəssisələr üçün tələbləri ehtiva edir. Bu standart 1 yanvar 2027-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**MHBS 19 *Publik Hesabat Aparmayan Törəmə Müəssisələr: Açıqlamalar***

MHBS 19 digər MHBS üzrə Uçotu Standartlarında nəzərdə tutulmuş açıqlama tələbləri əvəzinə publik hesabat aparmayan törəmə müəssisəyə icazə verilən açıqlama tələblərini müəyyən edir. Bu standart 1 yanvar 2027-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**MHBS 9 və MHBS 7-yə düzəlişlər *Maliyyə Alətlərinin Təsnifatı və Ölçülməsi***

Düzəlişlər MHBS 9 *Maliyyə Alətləri* standartının təsnifat və ölçmə ilə bağlı tələblərinin tətbiq edildikdən sonra aparılmış təhlili zamanı müəyyən edilmiş məsələləri əhatə edir. Düzəlişlər 1 yanvar 2026-cı il və ya həmin tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**MHBS 9 və MHBS 7-yə düzəlişlər Elektrik Enerjisinin Satın Alınması Razılaşmaları**

Düzəlişlər BMUSŞ-nin rəyinə əsasən maliyyə hesabatlarında bərpa olunan elektrik enerjisi müqavilələrinə dair daha düzgün məlumatların əks etdirilməsində şirkətlərə köməklik etmək məqsədi daşıyır. Düzəlişlər 1 yanvar 2026-cı il və ya həmin tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**MHBS üzrə Uçot Standartlarına İllik Təkmilləşdirmələr – 11-ci buraxılış**

Açıqlama aşağıdakı düzəlişləri əhatə edir:

- MHBS 1: MHBS-ni ilk dəfə tətbiq edən müəssisə tərəfindən aparılan hedcinq uçotu
- MHBS 7: Tanınmanın dayandırılması üzrə gəlir və ya zərər
- MHBS 7: Ədalətli dəyər ilə əməliyyat qiyməti arasında təxirə salınmış fərqin açıqlanması
- MHBS 7: Giriş müddəaları və kredit riskləri ilə bağlı açıqlamalar
- MHBS 9: İcarəçi tərəfindən icarə öhdəliklərinin tanınmasının dayandırılması
- MHBS 9: Əməliyyat qiyməti
- MHBS 10: "De fakto" agentin müəyyən edilməsi
- MUBS 7: İlkin dəyər metodu

Düzəlişlər 1 yanvar 2026-cı il və ya həmin tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**MHBS 19-a düzəlişlər *Publik Hesabat Aparmayan Törəmə Müəssisələr: Açıqlamalar***

Düzəlişlər MHBS 19 standartının ilk dəfə buraxıldığı zaman nəzərə alınmamış, 28 fevral 2021-ci il ilə 1 may 2024-cü il tarixləri arasında dərc edilmiş yeni və ya düzəliş edilmiş MHBS üzrə Uçot Standartlarını əhatə edir. Dəyişikliklər 1 yanvar 2027-ci il və ya həmin tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**MUBS 21-ə düzəlişlər Hiperinflyasiya İqtisadiyyatında Təqdimat Valyutasına Çevrilmə**

Düzəlişlər şirkətlərin maliyyə hesabatlarını hiperinflyasiyalı iqtisadiyyatın valyutası olmayan valyutadan hiperinflyasiyalı iqtisadiyyatın valyutasına necə çevirməli olduqlarını aydın izah edir. Düzəlişlər 1 yanvar 2027-ci il və ya həmin tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**MHBS S2-yə düzəlişlər İstixana Qazlarının Emissiyaları ilə bağlı Açıqlamalar**

MHBS S2 standartına edilmiş düzəlişlər, MHBS S2-də nəzərdə tutulmuş müəyyən tələblərin tətbiqi ilə bağlı mürəkkəbliyi, hesabatlılığın mümkün təkrarlanması riskini və xərcləri azaltmaqla MHBS S2-ni tətbiq edən müəssisələrə dəstək göstərmək məqsədini güdür. Dəyişikliklər 1 yanvar 2027-ci il və ya həmin tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

Bank bu standartların, düzəlişlərin və təkmilləşdirmələrin maliyyə hesabatlarına təsirini qiymətləndirir.

## 4. Mühasibat uçotu siyasətinə dair mühüm məlumatlar

### Ədalətli dəyərin ölçülməsi

Bank investisiya qiymətli kağızları kimi digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGƏD") tanınan maliyyə alətlərini hər hesabat tarixində ədalətli dəyərlə ölçür.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına biləcək və ya öhdəliyin köçürülməsinə görə ödənilə biləcək məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakılardan birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- Əsas bazar olmadıqda aktiv və ya öhdəlik üçün ən əlverişli bazar.

Bankın əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının aktiv və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələrin tətbiqi ilə ölçülür və ehtimal edilir ki, bazar iştirakçıları bu zaman öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimum və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimum və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Bank mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq müşahidə edilən məlumatların istifadəsini maksimum dərəcəyə çatdıran və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarından istifadə edir. Maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktiv və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə, əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – Eyni aktiv və ya öhdəliklər üçün aktiv bazardakı mövcud (düzəliş edilməmiş) qiymətlər.
- Səviyyə 2 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyə giriş məlumatlarının birbaşa və ya dolayı yolla müşahidə edilə bildiyi qiymətləndirmə üsulları.
- Səviyyə 3 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyə giriş məlumatlarının müşahidə edilə bilmədiyi qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Bank hər hesabat dövrünün sonunda kateqoriyalar üzrə bölgünü yenidən qiymətləndirərək iyerarxiya daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə, əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

## Maliyyə aktivləri və öhdəlikləri

***İlkin tanınma***

*Tanınma tarixi*

Maliyyə aktivlərinin və öhdəliklərinin bütün müntəzəm alış və satışları alqı-satqı tarixində, yəni Bank aktiv və ya öhdəliyin alışını üzərinə götürdüyü tarixdə tanınır. Müntəzəm alış və ya satış əməliyyatları qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin və öhdəliklərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin və öhdəliklərinin alınması və ya satılması deməkdir.

***İlkin ölçmə***

Maliyyə alətlərinin təsnifatı ilkin tanınmada onların müqavilə şərtlərindən və alətləri idarə etmək üçün biznes modelindən asılıdır. Maliyyə alətləri, ilkin olaraq ədalətli dəyərlə ölçülür və mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZƏD") tanınan maliyyə aktivləri və maliyyə öhdəlikləri istisna olmaqla, əməliyyat xərcləri həmin məbləğə əlavə edilir və ya bu məbləğdən çıxılır.

*Maliyyə aktivləri və öhdəliklərinin ölçülmə kateqoriyaları*

Bank bütün maliyyə aktivlərini aktivlərin idarə edilməsi üçün istifadə olunan biznes modeli və həmin aktivlərin müqavilə şərtləri əsasında aşağıdakı ölçmə kateqoriyalarından birinə təsnifləşdirir:

Amortizasiya dəyəri (AD);
DMGƏD;
MZƏD.

Kredit öhdəlikləri və maliyyə zəmanətləri istisna olmaqla, maliyyə öhdəlikləri ticarət məqsədi üçün saxlandıqda, törəmə alət olduqda və ya ədalətli dəyərin təyinatı tətbiq edildikdə amortizasiya hesablanmış dəyər və ya MZƏD ilə ölçülür.

*Kredit təşkilatlarından alınacaq vəsaitlər, müştərilərə verilmiş kreditlər, amortizasiya hesablanmış dəyərlə investisiya qiymətli kağızları*

Bank kredit təşkilatlarından alınacaq vəsaitləri və müştərilərə verilmiş kreditləri, investisiya borc qiymətli kağızlarını və digər maliyyə investisiyalarını yalnız aşağıda verilmiş şərtlərin hər ikisi yerinə yetirildikdə amortizasiya hesablanmış dəyərlə ölçür:

Maliyyə aktivi müqavilə üzrə pul vəsaitlərinin toplanması məqsədilə maliyyə aktivlərini saxlamaq üçün biznes modeli çərçivəsində saxlanıldıqda;
Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə yalnız əsas məbləğ və faiz ödənişlərindən (SPPI) ibarət pul vəsaitlərinin yaranmasına səbəb olduqda.

Bu şərtlər təfərrüatı ilə aşağıda açıqlanır.

*Biznes modelin qiymətləndirilməsi*

Biznes modeli maliyyə aktivlərinin təsnifatını müəyyən edir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətlərinin ümumiləşdirmə səviyyəsini və portfellərini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Bankın rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kredit qabiliyyətinin zəifləməsi səbəbindən potensial zərərin minimum həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün saxlama" biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, ödəmə müddətindən əvvəl digər satışlar da fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər baxımından əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlama" biznes modeli çərçivəsində dəyərləndirilir. Bankın rəhbərliyi satışın dəyərini portfelin orta müddəti üzrə biznes modeli qiymətləndirməsinin predmeti olan həmin portfelin dəyəri ilə müqayisə edərək satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini qiymətləndirir. Bundan əlavə, yalnız stress halı ssenarisində və ya Bankın nəzarətindən kənar olan, təkrarlanmayan və Bank tərəfindən gözlənilməyən ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən maliyyə aktivi satışı biznes modelinin məqsədləri üçün əhəmiyyətsiz sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

"Toplamaq və satmaq üçün saxlama" biznes modeli aktivlərin əsasən nağd vəsaitləri toplamaq üçün saxlanılmasını nəzərdə tutur, eyni zamanda bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə edilməsi, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən öhdəliklərin müddətinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da nəzərə alınır.

Yerdə qalan aktivlər kateqoriyası pul vəsaitlərinin əsasən satış (məsələn, ticarət modelinin mövcud olduğu hallarda) vasitəsilə realizasiya olunması məqsədilə idarə edilən maliyyə aktivi portfellərini əhatə edir. Müqavilə üzrə pul vəsaitlərinin toplanması bu biznes modeli üçün daha çox ikinci dərəcəli olur.

*SPPI testi*

Maliyyə aktivləri üzrə pul vəsaitlərinin yalnız əsas məbləğ və faiz ödənişlərindən ("SPPI") ibarət olub-olmasının müəyyən edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda, məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq yenidən nəzərdən keçirildikdə, lakin belə dəyişikliyin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsinin müddətinə uyğun olmadıqda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin hər ay yenidən müəyyən edildiyi maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişməsinin təsiri müvafiq alət üzrə pul vəsaitləri hərəkətinin SPPI xarakterli bənzər maliyyə aləti üzrə pul vəsaitləri hərəkəti ilə müqayisəsi əsasında dəyərləndirilir.

Bank müqavilə üzrə nəzərdə tutulan pul vəsaitləri hərəkətini dəyişmək qabiliyyətinə malik olan müqavilə şərtlərini müəyyən etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından əvvəl ödəniş etmək mümkün olduqda və erkən ödəniş məbləği əsas məbləğ və hesablanmış faizləri əks etdirdikdə, eləcə də müqaviləyə erkən xitam verilməsi səbəbindən əsaslandırılmış əlavə ödənişlər edildikdə SPPI üzrə meyarlar yerinə yetirilmiş sayılır. Aktivin əsas məbləği sonrakı dövrlər üzrə əsas məbləğ ödənişlərini (yəni effektiv faiz metodundan istifadə etməklə müəyyən edilmiş faiz çıxılmaqla hissəli ödənişlər) çıxmaqla ilkin tanınma zamanı mövcud olan ədalətli dəyəri əks etdirir. Bu prinsip üzrə istisna olaraq, standarta əsasən, aşağıdakı şərtlərə uyğun olan erkən ödəniş imkanına malik alətlər SPPI testinə cavab verə bilər: (i) maliyyə aktivi ilkin olaraq mükafat və ya diskont ilə yaranmışdır, (ii) erkən ödəniş məbləği müqavilə üzrə nominal məbləği, hesablanmış faizi və müqaviləyə erkən xitam verilməsi səbəbindən əsaslandırılmış əlavə ödənişləri əks etdirir və (iii) erkən ödəniş imkanının ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyət kəsb etmir.

*DMGƏD-də tanınan borc alətləri*

Bank aşağıdakı şərtlərin hər ikisi yerinə yetirildiyi halda borc alətlərini DMGƏD ilə ölçür:

Alət müqavilə üzrə pul vəsaitlərinin toplanılması və maliyyə aktivlərinin satılması ilə məqsədə nail olunan biznes modeli çərçivəsində saxlanıldıqda;

Maliyyə aktivi ilə bağlı müqavilə şərtləri SSPI testinə uyğun olduqda.

DMGƏD-də tanınan borc alətləri sonradan ədalətli dəyərlə ölçülür, ədalətli dəyərdəki dəyişikliklərə görə yaranan gəlir və zərərlər isə DMG-də tanınır. Faiz gəlirləri və məzənnə fərqindən yaranan gəlir və zərərlər mənfəət və ya zərərdə amortizasiya dəyəri ilə ölçülmüş maliyyə aktivləri ilə eyni qaydada tanınır. Tanınmanın dayandırılması zamanı əvvəllər DMG-də tanınmış məcmu gəlir və ya zərərlər DMG-dən mənfəət və ya zərərə yenidən təsnif edilir.

DMGƏD ilə ölçülmüş borc qiymətli kağızları üzrə gözlənilən kredit zərəri ("GKZ") maliyyə vəziyyəti haqqında hesabatda həmin maliyyə aktivlərinin qalıq dəyərini azaltmır və bunlar ədalətli dəyərdə qalır. Əvəzində, aktivlərin amortizasiya olunmuş dəyər ilə ölçüldüyü təqdirdə yarana biləcək ehtiyata bərabər məbləğ mənfəət və ya zərərə aid edilməklə DMG-də yığılmış dəyərsizləşmə məbləği kimi tanınır. DMG-də tanınan yığılmış zərər aktivin tanınması dayandırıldıqda mənfəət və zərərə aid edilir.

*DMGƏD-də tanınan kapital alətləri*

İlkin tanınma zamanı Bank bəzi hallarda MUBS 32 *Maliyyə alətləri: Təqdimat* standartı əsasında kapital anlayışına uyğun olan bəzi kapital investisiyalarını birmənalı şəkildə ticarət üçün saxlanılan alətlər kimi deyil, kapital alətləri kimi təsnif edir. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç vaxt mənfəət və ya zərərə aid edilmir. Bankın alətin dəyərinin bir hissəsinin bərpası olan gəlirlərdən faydalandığı hallar istisna olmaqla (bu halda belə gəlirlər DMG-də qeydə alınır), ödəmə hüququ müəyyən edildikdə dividendlər mənfəət və ya zərərdə digər gəlir kimi tanınır. DMGƏD-də tanınan kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır. Bu alətlər hesabdan silinəndə yığılmış yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

*Maliyyə zəmanətləri, akkreditivlər və istifadə edilməmiş kredit üzrə öhdəliklər*

Bank maliyyə zəmanətləri, akkreditivlər və kredit öhdəlikləri təqdim edir.

Maliyyə zəmanətləri, ilkin olaraq, maliyyə hesabatlarında alınmış mükafata bərabər ədalətli dəyərlə tanınır. İlkin tanınmadan sonra Bankın hər bir zəmanət üzrə öhdəliyi mənfəət və ya zərər haqqında hesabatda tanınmış məcmu amortizasiya çıxılmaqla ilkin olaraq tanınmış və GKZ ehtiyatı məbləğlərindən daha yüksək olanı ilə ölçülür.

İstifadə edilməmiş kredit üzrə öhdəliklər və akkreditivlər öhdəliyin müddəti ərzində Bankın əvvəlcədən müəyyən edilmiş şərtlərlə müştəriyə kredit təqdim etməsini nəzərdə tutur. Eynilə maliyyə zəmanəti haqqında müqavilələrdə olduğu kimi, bu müqavilələr də GKZ tələblərinin əhatə dairəsinə daxildir.

Bank vaxtaşırı bazar faiz dərəcələrindən aşağı dərəcə ilə kredit öhdəlikləri təmin edir. Belə öhdəliklər, ilkin olaraq, ədalətli dəyərdə tanınır və daha sonra GKZ ehtiyatının məbləği ilə müvafiq hallarda, tanınmış gəlirin məcmu məbləğini çıxmaqla ilkin tanınmış məbləğ arasında daha yüksək olanı ilə ölçülür.

*İcra zəmanətləri*

İcra zəmanətləri digər tərəf müqavilə öhdəliyini yerinə yetirmədikdə zərərin ödənilməsini nəzərdə tutan müqavilələrdir. İcra zəmanəti müqavilələri üzrə risk digər tərəfin müqavilə öhdəliklərini yerinə yetirməməsi ehtimalından ibarətdir. Beləliklə, icra zəmanətləri MHBS 9-un əhatə dairəsinə aid edilir.

**Maliyyə aktiv və öhdəliklərinin yenidən təsnif edilməsi**

Bank maliyyə aktivlərini idarə etmək üçün biznes modelini dəyişdiyi xüsusi hallar istisna olmaqla, maliyyə aktivlərini ilkin tanınmadan sonra yenidən təsnif etmir. Maliyyə öhdəlikləri heç bir zaman yenidən təsnif edilmir. 2025-ci ildə Bank heç bir maliyyə aktivi və öhdəliyini yenidən təsnif etməmişdir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri, Azərbaycan Respublikasının Mərkəzi Bankından (“AMB”) alınacaq vəsaitlər (AMB-də məcburi ehtiyatlar çıxılmaqla) və ödəmə müddəti verildiyi tarixdən etibarən doxsan gündən artıq olmayan və müqavilə üzrə hər hansı məhdudiyyətlə yüklənməmiş kredit təşkilatlarından alınacaq vəsaitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərlə uçota alınır, çünki: (i) müqavilə üzrə pul vəsaitlərinin toplanması üçün saxlanılır və həmin pul vəsaitləri SPPI meyarına uyğundur və (ii) onlar MZƏD ilə ölçülən kimi təyin edilməmişdir..

**Repo və əks repo müqavilələri və qiymətli kağızların borc verilməsi**

Satış və repo müqavilələri (“repolar”) təminatlı maliyyələşdirmə əməliyyatları kimi qəbul edilir. Satış və repo müqavilələri ilə satılan qiymətli kağızlar maliyyə vəziyyəti haqqında hesabatda saxlanılır və qəbul edən tərəf müqavilə üzrə və ya adətə əsasən onları satmaq və ya yenidən girov qoymaq hüququna malik olduqda, satış və repo müqavilələri əsasında girov qoyulmuş qiymətli kağızlar kimi yenidən təsnif edilir. Müvafiq öhdəlik kredit təşkilatları və ya müştərilərə ödəniləcək vəsaitlərdə təqdim olunur. Yenidən satış (əks repo) müqavilələri əsasında alınan qiymətli kağızlar müvafiq hallarda müştərilərə verilmiş kreditlər kimi uçota alınır. Satış və geri alış qiyməti arasındakı fərq faiz gəliri kimi tanınır və repo müqavilələrinin müddəti ərzində effektiv faiz metodu əsasında hesablanır.

Qarşı tərəflərə borc verilmiş qiymətli kağızlar maliyyə vəziyyəti haqqında hesabatda saxlanılır. Borc alınmış qiymətli kağızlar üçüncü tərəflərə satılmadığı halda maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Belə satış baş verdikdə, alış və satış əməliyyatları mənfəət və ya zərər haqqında hesabatda ticarət qiymətli kağızları üzrə xalis mənfəət/(zərər) tərkibində tanınır. Həmin qiymətli kağızların qaytarılması üzrə öhdəlik ticarət öhdəliyi kimi ədalətli dəyərlə tanınır.

**Borclar**

Buraxılmış maliyyə alətləri və ya onların komponentləri, müqavilə şərtlərinin mahiyyətinə əsasən Bankın alətin sahibinə pul vəsaiti və ya digər maliyyə aktivi təqdim etmək öhdəliyinin yaranmasına və ya öhdəliyin sabit məbləğdə pul vəsaiti və ya digər maliyyə aktivinin Bankın öz kapital alətlərinin sabit sayı ilə mübadiləsi istisna olmaqla digər üsulla yerinə yetirilməsinə səbəb olduqda, öhdəlik kimi təsnif edilir. Belə alətlərə kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlər, həmçinin müştərilərə ödəniləcək vəsaitlər daxildir. İlkin tanınmadan sonra borclar effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə ölçülür. Mənfəət və zərərlər borcların tanınmasının dayandırılması zamanı, eləcə də amortizasiya prosesi ərzində mənfəət və ya zərərdə tanınır.

**İcarələr**

Bank qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarələri istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçmə yanaşmasını tətbiq edir. Bank icarə ödənişlərini həyata keçirmək öhdəliyini əks etdirən icarə öhdəliklərini və əsas aktivdən istifadə hüququnu əks etdirən istifadə hüququ olan aktivləri uçotda tanıyır.

*İstifadə hüququ olan aktivlər*

Bank istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində (yəni əsas aktivin istifadəyə hazır olduğu tarixdə) uçotda tanıyır. İstifadə hüququ olan aktivlər ilkin dəyərlə ölçülür, sonradan isə yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxıldıqdan sonra, həmçinin icarə öhdəliklərinin yenidən ölçülməsinin təsiri nəzərə alınmaqla qiymətləndirilir. İstifadə hüququ olan aktivlərin ilkin dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği, çəkilmiş ilkin birbaşa xərclər və alınmış icarə güzəştləri çıxılmaqla icarənin başlanğıc tarixində və ya ondan əvvəl həyata keçirilmiş icarə ödənişləri daxildir. Bankın icarə müddətinin sonunda icarəyə götürülmüş aktiv üzərində mülkiyyət hüququnu əldə edəcəyinə kifayət qədər əminlik olmadığı halda, tanınmış istifadə hüququ olan aktivlər onların təxmin edilən faydalı istifadə müddəti ilə icarə müddətindən daha qısa olanı üzrə düz xətt metodu ilə amortizasiya edilir. İstifadə hüququ olan aktivlər dəyərsizləşmə üzrə qiymətləndirməyə məruz qalır.

*İcarə öhdəlikləri*

İcarənin başlanğıc tarixində Bank icarə öhdəliklərini icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçərək uçotda tanıyır. İcarə ödənişlərinə alınacaq icarə güzəştləri çıxılmaqla sabit ödənişlər (mahiyyət etibarilə sabit ödənişlər daxil olmaqla), indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri və qalıq dəyər zəmanətləri üzrə ödənilməsi gözlənilən məbləğlər daxildir. İcarə ödənişlərinə həmçinin Bank tərəfindən istifadə ediləcəyi əsaslı şəkildə müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Bankın müqaviləyə xitam vermə opsionundan istifadə etməsini əks etdirdiyi halda, müqaviləyə xitam verilməsinə görə ödənilən cərimələr daxildir. İndeksdən və ya dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri həmin ödənişə səbəb olan hadisə və ya şəraitin baş verdiyi dövrdə xərc kimi tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarədə nəzərdə tutulan faiz dərəcəsini asanlıqla müəyyən etmək mümkün olmadıqda Bank icarənin başlanğıc tarixində mövcud olan əlavə borclanma faiz dərəcəsindən istifadə edir. Başlanğıc tarixindən sonra icarə öhdəliklərinin məbləği faizlərin hesablanmasını əks etdirmək üçün artırılır və həyata keçirilmiş icarə ödənişləri məbləğində azaldılır. Bundan əlavə, icarə müqaviləsində dəyişiklik olduqda, icarə müddəti dəyişdikdə, mahiyyət etibarilə sabit icarə ödənişləri dəyişdikdə və ya əsas aktivin satın alınmasına dair qiymətləndirmə dəyişdikdə icarə öhdəliklərinin balans dəyəri yenidən ölçülür.

*Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarələri*

Bank qısamüddətli icarələr üzrə tanınma istisnasını qısamüddətli icarələrinə tətbiq edir (yəni başlanğıc tarixindən etibarən 12 ay və ya daha az müddəti olan və satınalma opsionu nəzərdə tutulmayan icarələrə). Bank həmçinin aşağı dəyərli hesab edilən (5 min ABŞ dollarından aşağı) ofis avadanlıqlarının icarəsinə aşağı dəyərli aktivlərin icarələri üzrə tanınma istisnasını tətbiq edir. Qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarələri üzrə ödənişlər icarə müddəti ərzində düz xətt metodu ilə xərc kimi tanınır.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Uçotda tanınmış məbləğləri əvəzləşdirmək üçün qanunla müəyyən edilən hüquq varsa və hesablaşmanı xalis əsasda həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi ödəmək niyyəti varsa, maliyyə aktivləri və öhdəlikləri qarşılıqlı şəkildə əvəzləşdirilir və xalis məbləğ maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilir. Əvəzləşdirmə hüququ gələcək hadisədən asılı olmamalı və aşağıdakı hallarda qanunla icra olunmalıdır:

Adi biznes fəaliyyəti çərçivəsində ;
Öhdəliklər yerinə yetirilmədikdə; və
Şirkətin və bütün qarşı tərəflərin müflis elan edilməsi və ya ödəmə qabiliyyətinin olmaması halında.

Bu şərtlər adətən əsas əvəzləşdirmə razılaşmalarında yerinə yetirilmir və buna görə də əlaqəli aktiv və öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda ümumi (brüt) məbləğdə təqdim edilir.

**Restrukturizasiya edilmiş kreditlər**

Mümkün olduğu hallarda Bank təminat üzərində mülkiyyət hüququ əldə etmək əvəzinə kreditlərin restrukturizasiyasına üstünlük verir. Bu, ödəniş qrafikinin uzadılmasını və yeni kredit şərtlərinin razılaşdırılmasını əhatə edə bilər.

Bank müştərilərə verilmiş kredit kimi maliyyə aktivlərinin şərt və müddəaları elə dəyişdirildikdə ki, həmin aktiv mahiyyət etibarilə yeni kreditə çevrilsin, həmin maliyyə aktivinin tanınmasını dayandırır. Dəyərsizləşmə zərəri artıq tanınmadığı halda yaranan fərq tanınmanın dayandırılması üzrə mənfəət və ya zərər kimi tanınır. Yeni tanınmış kreditlər, əldə edilmiş və ya yaradılma zamanı kredit üzrə dəyərsizləşmiş aktivlər (“ƏVKD” və ya POCI) hesab edilmədikdə, GKZ-nin hesablanması məqsədilə Mərhələ 1-də təsnif edilir.

Müştəriyə verilmiş kreditin tanınmasının dayandırılıb-dayandırılmamasını qiymətləndirərkən Bank, digər amillərlə yanaşı, aşağıdakıları nəzərə alır:

Kreditin valyutasında dəyişiklik;
Qarşı tərəfin dəyişməsi;
Dəyişiklik nəticəsində alətin artıq SPPI meyarına uyğun olmaması.

Dəyişiklik nəticəsində pul vəsaitlərinin hərəkətində əhəmiyyətli şəkildə fərq yaranmırsa, belə dəyişiklik tanınmanın dayandırılmasına gətirib çıxarmır. İlkin EFD (effektiv faiz dərəcəsi) ilə diskontlaşdırılan pul vəsaitlərində dəyişiklik əsasında Bank, dəyərsizləşmə zərəri qeydə alınmadığı halda mənfəət və ya zərər haqqında hesabatda dəyişiklikdən irəli gələn gəlir və ya zərəri qeydə alır.

Dəyişikliklər tanınmanın dayandırılması ilə nəticələnmədikdə, Bank kredit riskində əhəmiyyətli artımın olub-olmamasını və ya aktivlərin kredit üzrə dəyərsizləşmiş kimi təsnifləşdirilməli olub-olmadığını yenidən qiymətləndirir. GKZ hesablanmasının 2-ci və 3-cü mərhələsində olan aktivlərin 1-ci mərhələyə köçürülməsi üçün aşağıdakı bütün meyarlara uyğunluq təmin edilməlidir:

Maliyyə aləti üzrə son 6 ayın ödənişlərində 30 gündən çox gecikmənin olmaması;
Maliyyə aktivinin 2-ci və 3-cü təsnifat qrupuna aid edilməsinə səbəb olan bazar amillərində dəyişikliklərin dinamikasının dəyişməsi (məzənnə, girov qiymətləri, sektorda qeyri-adekvat dəyişikliklər);
Maliyyə aktivinin Problemli kreditlərin idarə edilməsi üzrə struktur bölmələrin nəzarətindən çıxarılması, Korporativ, Pərakəndə Kreditlər və ya Xəzinədarlıq departamentinin nəzarətinə verilməsi;
Maliyyə aktivi üzrə defolt ehtimalının və ya onun xarici reytinqinin əvvəlki və ya daha yaxşı vəziyyətə qayıtması.

### Dəyərsizləşmə

Bank MZƏD-də ölçülməyən aşağıdakı maliyyə alətləri ilə bağlı GKZ üzrə zərər ehtiyatlarını tanıyır:

banklara verilmiş kreditlər və avanslar
müştərilərə verilmiş kreditlər və avanslar
borc investisiya qiymətli kağızları
icarə üzrə debitor borcları
verilmiş kredit öhdəlikləri
verilmiş maliyyə zəmanəti haqqında müqavilələr.

Kapital investisiyaları üzrə dəyərsizləşmə zərəri tanınmır.

Bank GKZ hesablamaları üçün 3 yanaşma tətbiq edir:

1. Ümumi yanaşma;

2. Ticarət debitor borcları, müqavilə aktivləri və lizinq üzrə debitor borcları üçün sadələşdirilmiş yanaşma;

3. İkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş olan satın alınmış və ya verilmiş kredit üzrə dəyərsizləşmiş (“SVKD”) maliyyə aktivləri üçün yanaşma.

*Ümumi yanaşmaya əsasən, standartda kreditin dəyərsizləşməsinin aşağıdakı mərhələləri fərqləndirilir:*

- 12 aylıq GKZ, yəni hesabat tarixindən sonra 12 ay ərzində mümkün olan maliyyə aləti üzrə defolt hadisələri nəticəsində yaranan ömürlük GKZ (Mərhələ 1 kimi istinad edilir)

- tam ömürlük GKZ, yəni maliyyə alətinin istifadə müddəti ərzində bütün mümkün defolt hadisələri nəticəsində yaranan ömürlük GKZ (Mərhələ 2 və Mərhələ 3 kimi istinad edilir).

Xarici reytinqə əsaslanan yanaşmada digər maliyyə aktivlərinin kredit riskini qiymətləndirmək üçün xarici kredit reytinqlərindən, əsasən Standard and Poor' s reytinqlərindən istifadə edilir. Bu yanaşma kredit reytinqindəki dəyişiklikləri və defolt dərəcələri ilə bağlı tarixi məlumatlardan istifadə edərək, borcalanın öhdəliklərini yerinə yetirməməsi ehtimalını qiymətləndirir.

*Ticarət debitor borcları, müqavilə üzrə aktivlər və lizinq üzrə debitor borcları üçün sadələşdirilmiş yanaşma*

GKZ kredit zərərlərinin cari dəyərinin ehtimalla ölçülmüş təxminidir. Bunlar müqavilə üzrə Banka ödəniləcək pul vəsaitlərinin hərəkəti və aktivin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış, çoxsaylı gələcək iqtisadi ssenarilərin ölçülməsi nəticəsində Bankın əldə etməyi gözlədiyi pul vəsaitlərinin hərəkəti arasındakı fərqin cari dəyəri kimi ölçülür.

Kredit xətlərinin istifadə edilməmiş hissəsi üçün Bank Gözlənilən Kredit Zərərini (GKZ) hesablamaq məqsədilə istifadə olunmamış məbləğə Nağd pula Çevrilmə Əmsalını (CCF) tətbiq edir. Nağd pula Çevrilmə Əmsalı defolt zamanı istifadəsi ehtimal olunan istifadə edilməmiş cari məbləğin nisbətini əks etdirir. Bu düzəliş kredit xəttinin müəyyən hissəsinin istifadə olunmamasından yaranan potensial kredit riskini nəzərə tutur və GKZ-nin daha dəqiq qiymətləndirilməsini təmin edir.

Maliyyə zəmanəti haqqında müqavilələr üçün Bank Gözlənilən Kredit Zərərini (GKZ) hesablamaq məqsədilə istifadə olunmamış məbləğə Nağd pula Çevrilmə Əmsalını tətbiq edir.
Bank oxşar iqtisadi risk xüsusiyyətlərinə malik kredit portfelləri üçün GKZ-ni kollektiv əsasda ölçür. Zərər ehtiyatının ölçülməsi aktivin fərdi və ya kollektiv şəkildə ölçülməsindən asılı olmayaraq, onun ilkin EFD-dən istifadə etməklə gözlənilən pul vəsaitlərinin hərəkətinin cari dəyərinə əsaslanır. GKZ-nin ölçülməsi ilə bağlı əlavə məlumat, o cümlədən kollektiv əsasda qiymətləndirilərkən alətlərin qruplaşdırılmasına dair təfərrüatlar 22 saylı Qeyddə təqdim olunmuşdur.

*Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (3-cü Mərhələ)*

Maliyyə aktivinin təxmin edilən gələcək pul vəsaitlərinin hərəkətinə mənfi təsir göstərən bir və ya bir neçə hadisə baş verdikdə, maliyyə aktivi “kredit üzrə dəyərsizləşmiş” hesab edilir. Kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri 3-cü Mərhələ aktivləri adlanır. Kredit üzrə dəyərsizləşməyə dair sübuta aşağıdakı hadisələrlə bağlı müşahidə edilə bilən məlumatlar daxildir:

- Maliyyə aləti üzrə əsas borc və/və ya faiz ödənişlərinin hesabat tarixində 90 gündən çox gecikməsi;
- Maliyyə alətinin hesabat tarixindən sonra son 6 ay ərzində restrukturizasiya edilməsi və əsas borc və/və ya faiz ödənişlərinin hesabat tarixində 30 gündən çox gecikməsi;
- Xarici reytinqin aşağı düşməsi və nəticədə investisiya dərəcəli aktivin (ilkin tanınma zamanı) Spekulyativ dərəcəyə dəyişməsi (yerli hökumət orqanları üçün bu qayda istisnadır);
- Reytinqin 3 və ya daha çox pillə aşağı salınması;
- Müştərinin defolt vəziyyəti ilə bağlı digər müvafiq idarəetmə məlumatı əsasında aktivlərin 3-cü Mərhələ üzrə təsnifləşdirilməsi.

*Satın alınmış və ya verilmiş kredit üzrə dəyərsizləşmiş (“SVKD”) maliyyə aktivləri*

Kredit üzrə dəyərsizləşmiş alətlərdən ibarət portfel (problemli kreditlər portfeli) əldə edildikdə, maliyyə alətləri satın alınmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri kimi nəzərdən keçirilir. Defolt statusuna malik olan borcalan üçün restrukturizasiya edildikdən sonra (əgər defolt statusu restrukturizasiyadan sonra qalırsa) kreditin tanınması dayandırıldıqda və ya defolt statusu olan borcalana kredit verildikdə (borcalanın digər alətləri kredit üzrə dəyərsizləşmiş olduqda) maliyyə alətləri verilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri hesab edilir.

Alınmış və ya yaranmış kredit keyfiyyətsiz maliyyə aktivləri üzrə ilkin tanınma tarixində kredit zərərləri effektiv faiz dərəcəsinin hesablanması zamanı nəzərə alınır. Sonrakı hesabat tarixlərində yalnız alətin bütün istifadə müddəti üçün gözlənilən kredit zərərlərinin məbləğində yığılmış dəyişikliklər nəzərə alınır.

*<u>Defolt anlayışı</u>*

Maliyyə aləti 3-cü Mərhələyə (kredit üzrə dəyərsizləşmiş kreditlər) aid edildikdə Bank onu defolt alət hesab edir.

Mərhələli yaxşılaşma

Aşağıdakı meyarların hər ikisi yerinə yetirilərsə, aktiv bir mərhələ təkmilləşdirilmiş hesab olunur:

1. Kredit riskinin dəyərsizləşməsi və ya əhəmiyyətli dərəcədə artmasının əsasını təşkil edən şərtlər, tətbiq oluna bilməsindən asılı olaraq, yaxşılaşmışdır, yəni:

- kreditin vaxtı keçməmişdir (vaxtından 0 gün keçmiş);
- xarici reytinqlər əvvəlki (ilkin tanınma) səviyyəyə qayıtmış və ya daha yüksək səviyyələrə qalxmışdır.

2. Son 6 ay ərzində aktivin fəaliyyəti olmuşdur, yəni:

- kredit aktivində son 6 ay ərzində istənilən tarixdə gecikmə olmamışdır;
- digər investisiya aktivi üzrə son 6 ayda hər bir gözlənilən pul vəsaiti hərəkəti qrafikə uyğun olmuşdur.

*Kredit riskində əhəmiyyətli artım*

MHBS 9-a uyğun olaraq, kredit riskində əhəmiyyətli artım (SICR) olduqda maliyyə alətləri 2-ci Mərhələ üzrə təsnif edilir. Alətin 2-ci Mərhələyə təyin edilib-edilmədiyini müəyyən etmək üçün aşağıdakı meyarlardan istifadə olunur:

- Maliyyə aləti üzrə əsas məbləğ və/və ya faiz ödənişləri hesabat tarixində 31 gündən 90 günədək gecikibsə;
- Reytinq ilkin tanınmadan sonra 2 pillə aşağı salınıbsa və bu, İnvestisiya səviyyəsindən Spekulyativ səviyyəyə dəyişmə ilə nəticələnmirsə (yerli hökumət orqanları üçün spekulyativ reytinqin aşağı salınması qaydası istisnadır);
- Müştərinin maliyyə vəziyyətinin pisləşməsinə dair digər müvafiq idarəetmə məlumatları da aktivin 2-ci Mərhələ üzrə təsnif olunması üçün əsas kimi istifadə oluna bilərsə.

*DE-nin hesablanması*

Qeyri-maliyyə sektoruna verilmiş kreditlər üzrə defolt ehtimalının (DE) hesablanması kreditlərin tarixi ardıcıllığa əsaslanaraq fərqli seqmentlərə təsnifləşdirilməsini nəzərdə tutur. Bu seqmentlərə istehlak kreditləri, kredit kartları, biznes və KOB kreditləri, ipoteka və digər maliyyə alətləri daxildir. Hər bir seqment bütün qeyri-maliyyə sektorunun kredit portfeli üzrə kredit riskinin hərtərəfli dəyərləndirilməsini təmin edərək, defolt ehtimalını dəqiq qiymətləndirmək üçün fərdi yanaşma tələb edir.

DE-nin hesablanması prosesi cari bazar şərtləri ilə uzunmüddətli kredit riski tendensiyaları arasında balans yaradır və düzgün qiymətləndirmə üçün həm Müəyyən an (PIT), həm də Müəyyən dövr (TTC) üzrə dərəcələrdən istifadə edir.

## Maliyyə aktivi və öhdəliklərinin tanınmasının dayandırılması

***Maliyyə aktivləri***

Aşağıdakı hallarda maliyyə aktivinin (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) tanınması dayandırılır:

Aktivdən pul vəsaitləri əldə etmək hüquqlarının müddəti başa çatdıqda;
Bank özünün aktivdən pul vəsaitləri əldə etmək hüququnu üçüncü tərəfə ötürdükdə və ya aktivdən pul vəsaitləri əldə etmək hüququnu saxlayaraq, üzərinə belə vəsaitləri "tranzit" razılaşması əsasında tam məbləğdə və çox gecikdirmədən ödəmək öhdəliyi götürdükdə; və
Bank (a) aktiv üzrə risk və mənfəətin əsas hissəsini ötürdükdə, yaxud (b) aktiv üzrə risk və mənfəətin əsas hissəsini ötürmədikdə və ya özündə saxlamadıqda, lakin onlar üzrə nəzarət hüququnu ötürdükdə.

Bank aktivdən pul vəsaitləri əldə etmək hüququnu ötürdükdə, eləcə də nə aktiv üzrə risk və mənfəətin əsas hissəsini ötürdükdə, nə onları özündə saxladıqda, nə də aktiv üzrə nəzarət hüququnu ötürdükdə, aktiv, Bankın həmin aktiv üzrə iştirakı davam etdiyi halda tanınır. Aktivdə iştirakın ötürülmüş aktiv üzrə zəmanət formasında davam etməsi aktivin ilkin qalıq dəyəri və Bankdan tələb oluna biləcək maksimum ödəniş məbləği arasında daha az olanı ilə ölçülür.

Aktivdə iştirak, ötürülmüş aktiv üzrə yazılı və/və ya satın alınmış opsion (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) formasında davam edirsə, Bankın davam edən iştirakının həddi ötürülən aktivin Bank tərəfindən geri alınacaq məbləğinə bərabərdir. Lakin ədalətli dəyərlə ölçülən aktiv üzrə yazılı “put” opsionu (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) istisna təşkil edir və bu halda Bankın davam edən iştirakının həddi ötürülən aktivin ədalətli dəyəri və opsionun icra qiyməti arasında daha az olanı ilə məhdudlaşır.

*Silinmə*

Maliyyə aktivləri yalnız Bank bərpanı dayandırdıqda tam və qismən silinir. Silinəcək məbləğ yığılmış zərər ehtiyatından böyükdürsə, fərq ilk öncə ehtiyata əlavə kimi tanınır, sonra isə ümumi qalıq dəyərinə aid edilir. Sonrakı bərpalar kredit zərəri üzrə xərclərin azalması kimi tanınır. Silinmə tanınmanın dayandırılmasının bir növüdür.

***Maliyyə öhdəlikləri***

Maliyyə öhdəliyinin tanınması müvafiq öhdəlik icra edildikdə, ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud olan bir maliyyə öhdəliyi eyni kreditor qarşısında tam fərqli şərtlərlə digəri ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtlərinə əhəmiyyətli düzəlişlər edildikdə, belə əvəzetmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qeydə alınır və müvafiq qalıq dəyərlərindəki fərqlər mənfəət və ya zərərdə əks etdirilir.

## Vergiqoyma

Cari mənfəət vergisi xərci Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hesablanır.

Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri balans hesabatı metodundan istifadə edilməklə müvəqqəti fərqlər üzrə hesablanır. Təxirə salınmış mənfəət vergisi, şirkətlərin birləşməsi olmayan əməliyyat nəticəsində qudvilin və ya aktivin, yaxud öhdəliyin ilkin tanınmasından yaranan və əməliyyatın baş verdiyi tarixdə nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərməyən hallar istisna olmaqla, aktiv və öhdəliklərin vergi bazası ilə onların maliyyə hesabatları üzrə qalıq dəyərləri arasında yaranan bütün müvəqqəti fərqlər üzrə tanınır.

Təxirə salınmış mənfəət vergisi aktivi yalnız çıxılan müvəqqəti fərqlərin istifadə oluna biləcəyi həddə kifayət qədər vergiyə cəlb olunan mənfəətin əldə olunmasının ehtimal edildiyi hallarda tanınır. Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hesabat tarixinə qüvvədə olan və ya əsas etibarilə qüvvəyə minmiş vergi dərəcələri əsasında, aktivin reallaşdırıldığı və ya öhdəliyin ödənildiyi dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcələri ilə ölçülür.

Bundan əlavə, Azərbaycan Respublikasında Bankın fəaliyyəti ilə bağlı müxtəlif əməliyyat vergiləri tətbiq edilir. Bu vergilər ümumi və inzibati xərclərin tərkibində tanınır.

Cari və təxirə salınmış mənfəət vergiləri mənfəət və ya zərərdə tanınır. Bunun istisnası digər məcmu gəlirdə və ya birbaşa kapitalda tanınan maddələrlə bağlı olan vergilərdir. Belə hallarda cari və təxirə salınmış mənfəət vergiləri müvafiq olaraq digər məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır.

## Əmlak və avadanlıqlar

Əmlak və avadanlıqlar gündəlik xidmət xərcləri istisna olmaqla, yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə uçota alınır. Tanınma meyarları yerinə yetirildiyi hallarda, avadanlığın hər hansı hissəsinin əvəz edilməsi ilə bağlı çəkilmiş xərclər yarandığı zaman həmin aktivin maya dəyərinə daxil edilir.

Əmlak və avadanlıqların qalıq dəyərləri, dəyərsizləşmə əlamətlərini göstərən hadisələr baş verdikdə və ya şəraitdə dəyişikliklər olduqda, dəyərsizləşmə baxımından nəzərdən keçirilir.

Aktiv üzrə köhnəlmə onun istifadəyə hazır olduğu tarixdən hesablanmağa başlanır. Köhnəlmə aşağıdakı təxmin edilən faydalı istifadə müddətləri üzrə düz xətt metodu ilə hesablanır:

| | *Faydalı istifadə müddəti (illərlə)* |
|---|---|
| Mebel və qurğular | 5-10 |
| Kompüter | 5 |
| Nəqliyyat vasitələri | 5 |
| İstifadə hüququ olan aktivlər | Aktivin icarə müddəti və faydalı istifadə müddəti daha azdır |
| İcarəyə götürülmüş aktivlərin təkmilləşdirilməsi | Aktivin icarə müddəti və faydalı istifadə müddəti daha azdır |
| Digər əsas vəsaitlər | 5-8 |

Aktivlərin qalıq dəyərləri, faydalı istifadə müddətləri və metodlar hər maliyyə ilinin sonunda yenidən nəzərdən keçirilir və lazım olduqda uyğun şəkildə düzəlişlər edilir.

Təmir və yeniləmə xərcləri çəkildikdə xərclərə aid edilir və yalnız kapitallaşdırılması tələb olunan hallar istisna olmaqla, digər əməliyyat xərcləri arasında göstərilir.

### Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər kompüter proqramlarından və lisenziyalardan ibarətdir.

Ayrılıqda əldə edilmiş qeyri-maddi aktivlər ilkin tanınma zamanı maya dəyəri ilə ölçülür. Müəssisələrin birləşməsi nəticəsində əldə edilmiş qeyri-maddi aktivlərin maya dəyəri əldə edilmə tarixindəki ədalətli dəyəri əsasında müəyyən edilir. İlkin tanınmadan sonra qeyri-maddi aktivlər yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə uçota alınır. Qeyri-maddi aktivlərin faydalı istifadə müddətləri müəyyən və ya qeyri-müəyyən kimi qiymətləndirilir. Müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər on il ərzində amortizasiya edilir və aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamət olduqda dəyərsizləşmə baxımından qiymətləndirilir. Qeyri-maddi aktivlər üzrə amortizasiya müddətləri və metodları hər maliyyə ilinin sonunda ən azı bir dəfə nəzərdən keçirilir.
*Əmlak, tikili və avadanlığın və qeyri-maddi aktivlərin dəyərsizləşməsi*

Hər hesabat tarixində Bank öz əmlak, tikili və avadanlıqlarının və qeyri-maddi aktivlərinin balans dəyərlərini nəzərdən keçirərək həmin aktivlər üzrə dəyərsizləşmə zərərinin mövcudluğunu göstərə biləcək hər hansı əlamətin olub-olmadığını müəyyən edir. Belə əlamət mövcud olduqda, dəyərsizləşmə zərərinin məbləğini müəyyən etmək məqsədilə aktivin bərpa edilə bilən dəyəri qiymətləndirilir.

Aktiv digər aktivlərdən müstəqil pul axınları yaratmadıqda, Bank həmin aktivin aid olduğu pul vəsaiti yaradan vahidin bərpa edilə bilən dəyərini qiymətləndirir. Ağlabatan və ardıcıl bölüşdürmə əsası müəyyən edilə bildikdə, korporativ aktivlər ayrı-ayrı pul vəsaiti yaradan vahidlərə bölüşdürülür. Əks halda, onlar ağlabatan və ardıcıl bölüşdürmə əsasının müəyyən edilə bildiyi ən kiçik pul vəsaiti yaradan vahidlər qrupuna aid edilir.

Qeyri-müəyyən faydalı istifadə müddəti olan qeyri-maddi aktivlər ən azı ildə bir dəfə və ya hesabat dövrünün sonunda aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamət olduqda dəyərsizləşmə baxımından yoxlanılır.
Bərpa edilə bilən dəyər satış xərcləri çıxılmaqla ədalətli dəyər ilə istifadə dəyərindən daha yüksək olan məbləğdir. İstifadə dəyəri qiymətləndirilərkən, təxmin edilən gələcək pul axınları pulun zaman dəyəri və gələcək pul axınlarına dair qiymətləndirmələrdə nəzərə alınmayan aktivə xas risklər üzrə bazarın cari qiymətləndirmələrini əks etdirən vergidən əvvəlki diskont dərəcəsindən istifadə edilməklə cari dəyərinə diskontlaşdırılır.

Aktivin (və ya pul vəsaiti yaradan vahidin) bərpa edilə bilən dəyəri onun balans dəyərindən az olduqda, aktivin (və ya pul vəsaiti yaradan vahidin) balans dəyəri bərpa edilə bilən dəyərinə qədər azaldılır. Dəyərsizləşmə zərəri dərhal mənfəət və ya zərərdə tanınır.

Daha sonra dəyərsizləşmə zərəri ləğv edildikdə, aktivin (və ya pul vəsaiti yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən dəyərinin yenidən hesablanmış məbləğinə qədər artırılır. Lakin artırılmış balans dəyəri əvvəlki illərdə həmin aktiv (və ya pul vəsaiti yaradan vahid) üzrə dəyərsizləşmə zərəri tanınmamış olsaydı müəyyən ediləcək balans dəyərini aşmamalıdır. Dəyərsizləşmə zərərinin ləğvi əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərərini aradan qaldırdığı həddə dərhal mənfəət və ya zərərdə tanınır.

### Ehtiyatlar

Ehtiyatlar Bankın keçmiş hadisələr nəticəsində mövcud hüquqi və ya konstruktiv öhdəliyi olduqda, həmin öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi fayda ehtiva edən resursların xaric olmasının ehtimal edildiyi və öhdəliyin məbləğinin etibarlı şəkildə qiymətləndirilə bildiyi hallarda tanınır.

### Pensiya təminatı və işçilərə digər ödənişlər üzrə öhdəliklər

Bank Azərbaycan Respublikasının dövlət pensiya sistemindən ayrı hər hansı pensiya təminatı proqramına malik deyildir. Dövlət pensiya sistemi işəgötürəndən cari ümumi əməkhaqqı məbləğinin müəyyən faizi əsasında hesablanan cari ödənişlər etməyi tələb edir. Bu xərclər müvafiq əməkhaqqının aid olduğu dövrdə xərc kimi tanınır. Bundan əlavə, Bank əmək fəaliyyəti başa çatdıqdan sonra işçilərinə hər hansı əlavə müavinət təqdim etmir.

### Səhm kapitalı

*Səhm kapitalı*

Adi səhmlər və geri alına bilməyən, dividendlərinin elan edilməsi emitentin ixtiyarında olan imtiyazlı səhmlər kapital kimi təsnif edilir. Müəssisələrin birləşməsi halları istisna olmaqla, yeni səhmlərin buraxılması ilə birbaşa bağlı olan xarici xərclər kapitalda əldə edilmiş vəsaitdən çıxılmaqla tanınır. Alınmış əvəzin ədalətli dəyərinin buraxılmış səhmlərin nominal dəyərindən artıq olan hissəsi əlavə ödənilmiş kapital kimi tanınır.

*Dividendlər*

Dividendlər yalnız hesabat tarixindən əvvəl və ya hesabat tarixində elan edildiyi halda, öhdəlik kimi tanınır və hesabat tarixinə kapitalın məbləğindən çıxılır. Dividendlər hesabat tarixindən əvvəl təklif edildikdə və ya hesabat tarixindən sonra, lakin maliyyə hesabatları buraxılış üçün təsdiq olunmazdan əvvəl təklif və ya elan edildikdə onlar haqqında məlumat açıqlanır.

## Şərti öhdəliklər

Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin onların yerinə yetirilməsi üçün iqtisadi fayda ehtiva edən resursların xaric olması ehtimalının çox aşağı olduğu hallar istisna olmaqla maliyyə hesabatlarında açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin iqtisadi faydaların daxil olmasının ehtimal edildiyi hallarda maliyyə hesabatlarında açıqlanır.

## Gəlir və xərclərin tanınması

Gəlirlər, iqtisadi faydaların Banka daxil olmasının ehtimal edildiyi və gəlirin məbləğinin etibarlı şəkildə ölçülə bildiyi hallarda tanınır. Gəlirin tanınması üçün aşağıdakı xüsusi meyarlara da əməl edilməlidir.

*Faiz və analoji gəlir və xərclər*

Bank kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri istisna olmaqla, amortizasiya olunmuş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə (DMGƏD) ölçülən borc maliyyə aktivləri üzrə faiz gəlirlərini maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini (EFD) tətbiq etməklə hesablayır.

EFD maliyyə alətinin gözlənilən istifadə müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmalarını maliyyə aktivinin və ya maliyyə öhdəliyinin xalis balans dəyərinə dəqiq şəkildə diskontlaşdıran dərəcədir. Hesablama zamanı maliyyə alətinin bütün müqavilə şərtləri (məsələn, vaxtından əvvəl ödəniş hüququ) nəzərə alınır və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən, alətlə birbaşa əlaqəli bütün komissiyalar və əlavə xərclər daxil edilir. Gələcək kredit zərərləri isə nəzərə alınmır.

Bank ödənişlər və ya daxilolmalar üzrə qiymətləndirmələrinə yenidən baxdıqda, maliyyə aktivinin və ya maliyyə öhdəliyinin balans dəyərinə düzəliş edilir. Düzəliş edilmiş balans dəyəri ilkin effektiv faiz dərəcəsi əsasında hesablanır və balans dəyərində yaranan dəyişiklik faiz gəliri və ya faiz xərci kimi tanınır.

Maliyyə aktivi kredit üzrə dəyərsizləşmiş olduqda, Bank faiz gəlirini effektiv faiz dərəcəsini maliyyə aktivinin xalis amortizasiya olunmuş dəyərinə tətbiq etməklə hesablayır. Maliyyə aktivi sonradan bərpa olunduqda və artıq kredit üzrə dəyərsizləşmiş hesab edilmədikdə, Bank faiz gəlirinin hesablanmasını yenidən ümumi balans dəyəri əsasında həyata keçirir.

Satın alınmış və ya yaradılmış kredit üzrə dəyərsizləşmiş (SVKD) maliyyə aktivləri üzrə Bank faiz gəlirini kredit üzrə düzəliş edilmiş effektiv faiz dərəcəsini hesablayaraq və həmin dərəcəni aktivin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə müəyyən edir.

Kredit üzrə düzəliş edilmiş effektiv faiz dərəcəsi SVKD maliyyə aktivinin ilkin tanınması zamanı təxmin edilən gələcək pul axınlarını (kredit zərərləri də daxil olmaqla) həmin aktivin amortizasiya olunmuş dəyərinə diskontlaşdıran faiz dərəcəsidir.

*Haqq və komissiyalar*

Bank haqq və komissiya gəlirlərini müştərilərinə təqdim etdiyi müxtəlif xidmətlərdən əldə edir. Komissiya gəlirləri aşağıdakı iki kateqoriyaya bölünür:

► Xidmətlərin göstərilməsindən əldə olunan gəlirlər müvafiq əməliyyat baş verdiyi anda tanınır (məsələn, plastik kart əməliyyatları, hesablaşma əməliyyatları, nağd pul əməliyyatları və digər xidmətlər üzrə gəlirlər);

► İstifadə ediləcəyi ehtimal olunan kreditlər üzrə kredit öhdəliyi komissiyaları və kreditlərlə bağlı digər komissiyalar (onlarla birbaşa əlaqəli əlavə xərclərlə birlikdə) təxirə salınır və kreditin effektiv faiz dərəcəsinə düzəliş kimi tanınır.

### Xarici valyutanın çevrilməsi

Maliyyə hesabatları Bankın funksional və təqdimat valyutası olan Azərbaycan manatı ilə təqdim edilir. Xarici valyutalarda aparılan əməliyyatlar ilkin olaraq əməliyyat tarixində qüvvədə olan valyuta məzənnəsi ilə Bankın funksional valyutasına çevrilərək uçota alınır. Xarici valyuta ilə ifadə olunan monetar aktivlər və öhdəliklər hesabat tarixində qüvvədə olan məzənnə ilə funksional valyutaya yenidən çevrilir. Xarici valyuta əməliyyatlarının çevrilməsi nəticəsində yaranan gəlir və zərərlər mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda xarici valyutaların çevrilməsindən yaranan fərqlər üzrə gəlirlərdən zərərlər çıxıldıqdan sonra xalis məbləğdə tanınır. Xarici valyutada olan və tarixi (ilkin) dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr ilkin əməliyyat tarixində qüvvədə olmuş məzənnə ilə çevrilir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr isə ədalətli dəyərin müəyyən edildiyi tarixdə qüvvədə olan məzənnə ilə çevrilir.
Xarici valyuta ilə aparılan əməliyyat üzrə müqavilə məzənnəsi ilə əməliyyat tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi məzənnəsi arasındakı fərqlər dilinq əməliyyatlarından əldə olunan gəlirlərin tərkibində tanınır.

Bank hazırkı maliyyə hesabatlarının hazırlanmasında 31 dekabr tarixinə olan aşağıdakı rəsmi məzənnələrdən istifadə etmişdir:

| | *2025* | *2024* |
|---|---|---|
| 1 ABŞ dolları | AZN 1.7000 | AZN 1.7000 |
| 1 Avro | AZN 2.0022 | AZN 1.7724 |

## 5. Mühüm mühasibat uçotu mühakimələri və təxminlər ilə bağlı qeyri-müəyyənliyin əsas mənbələri

### Təxminlərlə bağlı qeyri-müəyyənlik

Bankın uçot siyasətlərinin tətbiqi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınan məbləğlərin müəyyən edilməsi məqsədilə mühakimələrdən istifadə etmiş və təxminlər irəli sürmüşdür. Ən mühüm mühakimələr və təxminlər aşağıdakılardır:

### Maliyyə alətlərinin ədalətli dəyəri

Maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmiş maliyyə aktivləri və maliyyə öhdəliklərinin ədalətli dəyərləri aktiv bazarlardan əldə edilə bilmədikdə, onlar riyazi modellərin tətbiqi də daxil olmaqla müxtəlif qiymətləndirmə üsullarından istifadə edilməklə müəyyən edilir. Bu modellər üzrə giriş məlumatları mümkün olduğu hallarda müşahidə edilə bilən bazar məlumatlarından götürülür. Bu mümkün olmadıqda isə ədalətli dəyərin müəyyən edilməsi zamanı müəyyən dərəcədə mühakimələrin tətbiq edilməsi tələb olunur. Əlavə məlumat 23 saylı Qeyddə təqdim edilmişdir.

### Maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərləri

Maliyyə aktivlərinin bütün kateqoriyaları üzrə dəyərsizləşmə zərərlərinin ölçülməsi mühakimələrin tətbiqini tələb edir. Xüsusilə, dəyərsizləşmə zərərlərinin müəyyən edilməsi zamanı gələcək pul vəsaitlərinin məbləği və daxilolma vaxtı, girov təminatının dəyəri, habelə kredit riskində əhəmiyyətli artımın olub-olmaması qiymətləndirilməlidir. Bu təxminlər bir sıra amillərdən asılıdır və həmin amillərdə baş verən dəyişikliklər ehtiyatların müxtəlif səviyyələrdə formalaşdırılması ilə nəticələnə bilər.

Bankın Gözlənilən Kredit Zərərləri ("GKZ") üzrə hesablamaları müxtəlif giriş məlumatlarının seçilməsi və onların qarşılıqlı əlaqələri ilə bağlı bir sıra əsas fərziyyələri özündə ehtiva edən mürəkkəb modellərin nəticəsidir. Uçot mühakimələri və təxminləri hesab edilən GKZ modellərinin əsas elementləri aşağıdakılardır:

- ► Kredit riskində əhəmiyyətli artımın baş verib-vermədiyinin müəyyən edilməsi və buna uyğun olaraq maliyyə aktivləri üzrə ehtiyatların Ömürlük Gözlənilən Kredit Zərərləri ("ÖGKZ") əsasında ölçülməli olub-olmamasının qiymətləndirilməsi, habelə keyfiyyət xarakterli qiymətləndirmə meyarları;
- ► GKZ-nin kollektiv əsasda qiymətləndirildiyi maliyyə aktivlərinin seqmentləşdirilməsi;
- ► Müxtəlif düsturlar və giriş məlumatlarının seçimi də daxil olmaqla GKZ modellərinin hazırlanması;
- ► Makroiqtisadi ssenarilər ilə işsizlik səviyyəsi və girov təminatının dəyəri kimi iqtisadi göstəricilər arasındakı əlaqələrin, eləcə də onların DE (defolt ehtimalı), DHRH (defolt halında risk həcmi) və DHZ (defolt halında zərər) göstəricilərinə təsirinin müəyyən edilməsi;
- ► GKZ modellərində istifadə olunan iqtisadi giriş məlumatlarının əldə edilməsi məqsədilə perspektivə yönəlmiş makroiqtisadi ssenarilərin və həmin ssenarilər üzrə ehtimal çəkilərinin seçilməsi.

Əlavə məlumat 8 və 22 saylı Qeydlərdə təqdim edilmişdir.

**Maliyyə aktivləri və maliyyə öhdəliklərində dəyişiklik**

*Maliyyə aktivləri*

Maliyyə aktivinin şərtləri dəyişərsə, Bank dəyişiklik edilmiş aktiv üzrə pul vəsaitlərində əhəmiyyətli dərəcədə fərqin olub-olmadığını qiymətləndirir. Pul vəsaitlərində əhəmiyyətli fərqlər olduğu təqdirdə (“əhəmiyyətli dəyişiklik”) ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə hüquqlarının müddəti bitmiş sayılır. Belə olan halda ilkin maliyyə aktivinin tanınması dayandırılır və yeni maliyyə aktivi müvafiq əməliyyat xərcləri daxil olmaqla ədalətli dəyərlə tanınır.

Dəyişiklik çərçivəsində əldə edilən istənilən haqların uçotu aşağıdakı şəkildə aparılır:

- yeni aktivin ədalətli dəyərinin müəyyən edilməsi zamanı nəzərə alınan haqlar və yol verilən əməliyyat xərclərinin ödənilməsini əks etdirən haqlar aktivin ilkin qiymətləndirilməsinə daxil edilir; və
- sair haqlar tanınmanın dayandırılması üzrə gəlir və ya zərərin bir hissəsi kimi mənfəət və ya zərərə daxil edilir.

Mövcud maliyyə aktivləri və ya maliyyə öhdəlikləri üzrə pul vəsaitlərində dəyişikliklər mövcud müqavilə şərtlərindən qaynaqlandığı təqdirdə dəyişiklik sayılmır. Məsələn, kredit razılaşmasına əsasən, Bankdan tələb edildiyi təqdirdə AMB-nin əsas faiz dərəcələrindəki dəyişikliklərə görə Bank tərəfindən verilən kreditin faiz dərəcəsinin dəyişməsi.

Bank dəyişikliyin əhəmiyyətli olub-olmadığına, yəni ilkin maliyyə aktivi və dəyişikliyə uğramış və ya əvəzlənmiş maliyyə aktivi üzrə pul vəsaitlərində əhəmiyyətli dərəcədə fərqin yaranmasına dair kəmiyyət və keyfiyyət qiymətləndirməsi aparır. Bank kəmiyyət və keyfiyyət amillərinə əsaslanaraq dəyişikliyin əhəmiyyətli olub-olmadığını növbəti ardıcıllıqda qiymətləndirir: keyfiyyət amilləri, kəmiyyət amilləri, keyfiyyət və kəmiyyət amillərinin birgə təsiri. Pul vəsaitləri əhəmiyyətli dərəcədə fərqləndiyi təqdirdə ilkin maliyyə aktivi üzrə pul vəsaitlərinə dair müqavilə hüquqlarının müddəti bitmiş sayılır. Bu qiymətləndirmə zamanı Bank maliyyə öhdəliklərinin tanınmasının dayandırılması ilə bağlı təlimatı tətbiq edir.

Bank aşağıdakı keyfiyyət amillərinə əsaslanaraq dəyişikliyin əhəmiyyətli olduğu qənaətinə gəlir:

- maliyyə aktivinin valyutasının dəyişməsi;
- girovun və ya sair kredit təminatlarının dəyişməsi;
- maliyyə aktivinin şərtlərində yalnız əsas borc və faiz ödənişi (SPPI) meyarına uyğunsuzluqla nəticələnən dəyişiklik (məs., kredit şərtlərinin dəyişməsi ilə bağlı müddəaların əlavə edilməsi)

Pul vəsaitlərinə dəyişiklik borcalanın maliyyə çətinlikləri zamanı edilərsə, adətən belə dəyişikliyin məqsədi şərtləri əhəmiyyətli dərəcədə fərqlənən yeni aktiv yaratmaq deyil, ilkin müqavilə şərtlərinin mümkün qədər bərpa edilməsidir. Bank maliyyə aktivini pul vəsaitlərinin bağışlanması ilə nəticələnəcək şəkildə dəyişməyi planlaşdırdıqda ilk olaraq aktivin bir qisminin dəyişiklikdən əvvəl silinib-silinməyəcəyini nəzərdən keçirir (silinmə siyasəti aşağıda təqdim edilib). Bu yanaşma kəmiyyət qiymətləndirməsinin nəticəsinə təsir edir və belə hallarda tanınmanın dayandırılması meyarlarının hər zaman nəzərə alınmadığını göstərir. Daha sonra Bank dəyişikliyin əhəmiyyətli olub-olmadığına dair keyfiyyət qiymətləndirməsi aparır. Amortizasiya edilmiş dəyərlə və ya DMGƏD ilə ölçülən maliyyə aktivində dəyişiklik maliyyə aktivinin tanınmasının dayandırılması ilə nəticələnmədikdə Bank ilk olaraq aktivin ilkin effektiv faiz dərəcəsindən istifadə edərək maliyyə aktivinin ümumi balans dəyərini yenidən hesablayır və nəticədə yaranmış düzəlişi mənfəət və ya zərərdə dəyişiklik üzrə gəlir və ya zərər kimi tanıyır. Üzən faiz dərəcəli maliyyə aktivlərində düzəliş üzrə gəlir və ya zərəri hesablamaq üçün istifadə edilən ilkin effektiv faiz dərəcəsinə dəyişiklik anında mövcud bazar şərtlərini əks etdirməsi məqsədilə düzəlişlər edilir. Dəyişikliyin bir hissəsi olaraq yaranmış istənilən xərc və haqlar, eləcə də alınmış haqlar ilə dəyişiklik edilmiş maliyyə aktivinin ümumi balans dəyərində düzəliş edilir və dəyişiklik edilmiş maliyyə aktivinin qalan müddəti üzrə amortizasiya hesablanır.

Dəyişiklik borcalanın maliyyə çətinlikləri səbəbindən həyata keçirildiyi təqdirdə, gəlir və ya zərər dəyərsizləşmə zərərləri ilə birlikdə təqdim edilir. Digər hallarda isə effektiv faiz metodundan istifadə etməklə hesablanmış faiz gəliri kimi təqdim edilir.

***İlkin tanınma zamanı müddətli borc vəsaitlərinin ədalətli dəyərinin ölçülməsi***

Müddətli borc vəsaitlərinin ilkin tanınması zamanı ədalətli dəyərin ölçülməsi istifadə olunan qiymətləndirmə üsulu üçün giriş məlumatlarının, o cümlədən diskont dərəcəsi və hər hansı müvafiq risk düzəlişlərinin müəyyən edilməsində mülahizələrin irəli sürülməsini tələb edir (Qeyd 15).

## 6. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| Kassada olan pul vəsaitləri | 13,572 | 27,133 |
| AMB-dəki cari hesablar | 16,747 | 82,995 |
| Digər banklardakı cari hesablar | 6,423 | 13,970 |
| AMB-də müddəti 90 günə qədər olan müddətli depozitlər | 710,308 | 303,100 |
| Digər banklarda müddəti 90 günə qədər olan müddətli depozitlər | 251,425 | 510,972 |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | **998,475** | **938,170** |

Digər banklardakı cari hesablar rezident və qeyri-rezident banklarda müvafiq olaraq 625 min AZN (2024: 164 min AZN) və 5,798 min AZN (2024-cü il: 13,806 min AZN) məbləğində müxbir hesab qalıqlarından ibarətdir.

Digər banklarda müddəti 90 günə qədər olan müddətli depozitlər qeyri-rezident banklarda saxlanılan 251,425 min AZN məbləğində qısamüddətli və overnayt depozitlərdən ibarətdir (2024: 510,972 min AZN).

31 dekabr 2025-ci il tarixinə Bankın digər banklardakı ümumi cari hesablarının 10%-dən çox olan 3 müxbir hesab (31 dekabr 2024-cü il: 3) üzrə qalığı vardır. Bu qalığın 31 dekabr 2025-cü il tarixinə ümumi məbləği 2,828 min AZN (31 dekabr 2024-cü il: 8,643 min AZN) təşkil etmişdir.

31 dekabr 2025-ci il tarixinə Bankın 4 qısamüddətli depozit qalığı (31 dekabr 2024-cü il: 2) və digər banklarda 90 günə qədər olan ümumi müddətli depozitlərin 10%-dən artıq ödənilməmiş qalığı vardır. Bu qalığın 31 dekabr 2025-ci il tarixinə ümumi məbləği 213,444 min AZN (31 dekabr 2024-cü il: 404,163 min AZN) təşkil etmişdir.

Pul vəsaitləri və onların ekvivalentlərinin (kassada olan pul vəsaitləri istisna olmaqla) kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| A- - A+ reytinqli (Fitch Ratings) | 205,497 | 481,023 |
| BBB- - BBB+ reytinqli (Fitch Ratings) | 727,121 | 404,128 |
| BBB- -dən aşağı reytinqli (Fitch Ratings) | 52,285 | 25,864 |
| Reytinqsiz | - | 22 |
| **Digər banklarda cəmi müxbir hesablar** | **984,903** | **911,037** |

Pul vəsaitlərinin ekvivalentləri üzrə bütün qalıqlar 1-ci Mərhələyə aid edilir. 31 dekabr 2025-ci və 2024-cü il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinə aid olan GKZ sıfıradək yuvarlaqlaşdırılır.

## 7. Kredit təşkilatlarından alınacaq vəsaitlər

Kredit təşkilatlarından alınacaq vəsaitlər aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| Müddəti 90 gündən çox olan müddətli depozitlər | 39,998 | 61,604 |
| AMB-də saxlanılan məcburi ehtiyatlar | 101,419 | 89,533 |
| Kredit təşkilatlarında girov qoyulmuş hesablar | 1,701 | 1,719 |
| **Banklara verilmiş kreditlərin ümumi məbləği** | **143,118** | **152,856** |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | (195) | (171) |
| **Banklara verilmiş cəmi kreditlər** | **142,923** | **152,685** |

31 dekabr 2025-ci il tarixinə müddəti 90 gündən çox olan müddətli depozitlərə 12 müxtəlif rezident və qeyri-rezident kredit təşkilatında yerləşdirilmiş 39,997 min AZN (31 dekabr 2024-cü il: 13 müxtəlif rezident və qeyri-rezident kredit təşkilatında yerləşdirilmiş 61,605 min AZN) məbləğində faizli müddətli depozitlər daxildir.

31 dekabr 2025-ci il tarixinə kredit təşkilatlarında blok edilmiş hesablar 5 müştəriyə (31 dekabr 2024-cü il: 4 müştəri) verilmiş zəmanətlər (31 dekabr 2024-cü il: zəmanətlər və akkreditivlər) üzrə 1 (31 dekabr 2024-cü il: 1 müştəri) qeyri-rezident kredit təşkilatı tərəfindən blok edilmiş vəsaitləri əhatə edir.

31 dekabr 2025-ci il tarixinə banklardan və digər maliyyə təşkilatlarından alınacaq vəsaitlərə aid olan hesablanmış faiz gəliri 595 min AZN (31 dekabr 2024-cü il: 1,124 min AZN) təşkil etmişdir.

Kredit təşkilatlarından alınacaq bütün qalıqlar 1-ci Mərhələyə aid edilir. 31 dekabr 2025-ci il tarixinə kredit təşkilatlarından alınacaq vəsaitlərə aid olan GKZ 194 min AZN-ə (31 dekabr 2024-cü il: 171 min AZN) bərabərdir.

31 dekabr 2025-ci il tarixinə AMB-də saxlanılan 101,419 min AZN məbləğində məcburi pul vəsaiti qalıqları (31 dekabr 2024-cü il: 89,533 min AZN) kredit təşkilatlarından alınacaq vəsaitlərə daxil edilir. 31 dekabr 2025-ci il tarixinə kredit təşkilatları yeni fərqlənmə meyarlarına uyğun olaraq AMB-də faizsiz nağd depozit (məcburi ehtiyat) saxlamalıdırlar. Fərqlənmə meyarları aşağıdakılardır:

- Hüquqi şəxslərin yerli valyuta ilə saxladığı depozitlərin məbləğinin 1,000,000 min AZN-dən (xarici valyuta ilə 750,000 min AZN) az olub-olmaması;
- Əlaqəli tərəflər üzrə depozitlərin cəmi depozitlərdəki payının 20%-dən az olub-olmaması;
- Əlaqəli depozitlərin cəmi depozitlərdəki payının 20%-dən az olub-olmaması.

Bu meyarlara uyğun olaraq, Bank əlaqəli tərəflərdən və əlaqəli əmanətlərdən olan depozitlərin nisbətinin 20%-dən çox olub-olmamasından asılı olaraq kredit təşkilatları tərəfindən müştərilərdən cəlb edilmiş, manatla olan bəzi öhdəliklərin əvvəlki ay üzrə orta qalıqlarının 5%-25% həcmində və xarici valyutada olan bəzi öhdəliklərin əvvəlki ay üzrə orta qalıqlarının 6%-25% həcmində AMB-də məcburi ehtiyatlar saxlamışdır. Bu, AMB-nin dərəcələrin artırılması barədə qərarı qəbul etdiyi tarixə, 1 noyabr 2023-cü il tarixinə qədər qüvvədə olan əvvəlki müvafiq olaraq 4% və 5% dərəcələri ilə müqayisədə artımın olduğunu göstərir.

31 dekabr 2025-ci il tarixinə Bank kredit təşkilatları tərəfindən müştərilərdən cəlb edilmiş, manatla olan bəzi öhdəliklərin əvvəlki ay üzrə orta qalıqlarının 12.5%-i (2024: 10%) həcmində və xarici valyutada olan bəzi öhdəliklərin əvvəlki ay üzrə orta qalıqlarının 15%-i (2024: 12%) həcmində AMB-də məcburi ehtiyatlar saxlamışdır. Bu, AMB-nin dərəcələrin artırılması barədə qərarı qəbul etdiyi tarixə, 1 noyabr 2023-cü il tarixinə qədər qüvvədə olan əvvəlki müvafiq olaraq 4% və 5% dərəcələri ilə müqayisədə artımın olduğunu göstərir.

## 8. Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| Fiziki şəxslərə verilmiş kreditlər - istehlak kreditləri | 331,560 | 299,003 |
| Dövlət müəssisələrinə verilmiş kreditlər | 170,027 | 217,243 |
| Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditləri | 207,580 | 193,039 |
| Korporativ kreditlər | 48,036 | 68,363 |
| Fiziki şəxslərə verilmiş kreditlər - sahibkarlar | 35,003 | 26,450 |
| **Amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş ümumi kreditlər** | **792,206** | **804,098** |
| Çıxılsın: gözlənilən kredit zərərləri üçün ehtiyat | (18,861) | (11,237) |
| **Amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər** | **773,345** | **792,861** |

**Müştərilərə verilmiş kreditlərin cəmləşməsi**

Kreditlər əsas etibarı ilə aşağıdakı sənaye sahələri üzrə verilmişdir:

| | *31 dekabr 2025-ci il* | *2025-ci il üzrə portfel, %* | *31 dekabr 2024-cü il* | *2024-cü il üzrə portfel, %* |
|---|---|---|---|---|
| Fiziki şəxslər | 539,139 | 68.06% | 491,726 | 61.15% |
| Neft və qaz | 173,425 | 21.89% | 257,180 | 31.98% |
| Ticarət müəssisələri | 41,004 | 5.18% | 35,653 | 4.43% |
| Digər | 31,032 | 3.92% | 16,066 | 2.00% |
| Kənd təsərrüfatı və qida məhsullarının emalı | 2,537 | 0.32% | 1,899 | 0.24% |
| İstehsal | 897 | 0.11% | 1,465 | 0.18% |
| Nəqliyyat | 4,172 | 0.52% | 109 | 0.02% |
| **Müştərilərə verilmiş kreditlər, ümumi** | **792,206** | **100%** | **804,098** | **100%** |

31 dekabr 2025-ci il tarixinə Bank 10 (31 dekabr 2024-cü il: 10) ən iri borcalanından alınmalı olan 203,282 min AZN və ya ümumi kredit portfelinin 25.7%-i (31 dekabr 2024-cü il: 275,604 min AZN və ya 34.3%) ilə təmsil olunan kredit cəmləşməsinə malik olmuşdur. Bu kreditlər üzrə 3,451 min AZN (31 dekabr 2024-cü il: 12 min AZN) məbləğində ehtiyat tanınmışdır.

31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlərə daxil olan hesablanmış faiz gəliri 6,669 min AZN (31 dekabr 2024-cü il: 5,699 min AZN) təşkil etmişdir.

**Amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat**

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində fiziki şəxslərə verilmiş ipoteka kreditləri ilə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| *Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditləri* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə ümumi balans dəyəri** | **191,466** | **798** | **775** | **193,039** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 28,739 | - | - | **28,739** |
| Ödənilmiş aktivlər | (13,830) | (95) | (322) | **(14,247)** |
| 1-ci Mərhələyə köçürmələr | 319 | (247) | (72) | **-** |
| 2-ci Mərhələyə köçürmələr | (1,555) | 1,555 | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | - | (76) | 76 | **-** |
| Bərpalar | - | - | - | **-** |
| Silinmiş məbləğlər | - | - | 49 | **49** |
| **31 dekabr 2025-ci il tarixinə** | **205,139** | **1,935** | **506** | **207,580** |

| ***Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditləri*** | ***1-ci mərhələ*** | ***2-ci mərhələ*** | ***3-cü mərhələ*** | ***Cəmi*** |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə GKZ** | **(8)** | **(15)** | **(432)** | **(455)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (1) | - | - | **(1)** |
| Ödənilmiş aktivlər | - | 1 | 74 | **75** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | 14 | (14) | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | - | 5 | (5) | **-** |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (10) | 4 | 18 | **12** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | - | - | - | - |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | (9) | **(9)** |
| Bərpalar | - | - | (49) | **(49)** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| **31 dekabr 2025-ci il tarixinə** | **(5)** | **(19)** | **(403)** | **(427)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində fiziki şəxslərə verilmiş istehlak kreditləri ilə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| ***Fiziki şəxslərə verilmiş kreditlər - istehlak kreditləri*** | ***1-ci mərhələ*** | ***2-ci mərhələ*** | ***3-cü mərhələ*** | ***SVKD*** | ***Cəmi*** |
|---|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə ümumi balans dəyəri** | **279,576** | **7,765** | **11,644** | **18** | **299,003** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 193,982 | 1,170 | 569 | - | **195,721** |
| Ödənilmiş aktivlər | (156,603) | (3,014) | (4,150) | - | **(163,767)** |
| SVKD üzrə xalis yenidən qiymətləndirmə | - | - | - | (5) | **(5)** |
| 1-ci Mərhələyə köçürmələr | 536 | (503) | (33) | - | - |
| 2-ci Mərhələyə köçürmələr | (7,376) | 7,469 | (93) | - | - |
| 3-cü Mərhələyə köçürmələr | (5,896) | (2,835) | 8,731 | - | - |
| Bərpalar | - | - | 608 | - | **608** |
| Silinmiş məbləğlər | - | - | - | - | **-** |
| **31 dekabr 2025-ci il tarixinə** | **304,219** | **10,052** | **17,276** | **13** | **331,560** |

| ***Fiziki şəxslərə verilmiş kreditlər - istehlak kreditləri*** | ***1-ci mərhələ*** | ***2-ci mərhələ*** | ***3-cü mərhələ*** | ***SVKD*** | ***Cəmi*** |
|---|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə GKZ** | **(1,942)** | **(1,961)** | **(6,300)** | **(18)** | **(10,221)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (989) | (269) | (256) | - | **(1,514)** |
| Ödənilmiş aktivlər | 702 | 255 | 2,091 | - | **3,048** |
| 1-ci Mərhələyə köçürmələr | (2) | 2 | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | 1,565 | (1,584) | 19 | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | 2,804 | 1,276 | (4,080) | - | **-** |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (3,607) | 145 | (212) | 5 | **(3,669)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | | | | | |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | (816) | - | **(816)** |
| Bərpalar | - | - | (608) | - | **(608)** |
| Silinmiş məbləğlər | - | - | - | - | **-** |
| **31 dekabr 2025-ci il tarixinə** | **(1,469)** | **(2,136)** | **(10,162)** | **(13)** | **(13,780)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində korporativ kreditlərlə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| ***Korporativ kreditlər*** | ***1-ci mərhələ*** | ***2-ci mərhələ*** | ***3-cü mərhələ*** | ***Cəmi*** |
|---|---|---|---|---|
| **1 yanvar 2025-cü il tarixinə ümumi balans dəyəri** | **63,922** | **620** | **3,821** | **68,363** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 19,956 | 1,600 | - | **21,556** |
| Ödənilmiş aktivlər | (40,349) | (367) | (1,219) | **(41,935)** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | (875) | 875 | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | (4,472) | (253) | 4,725 | **-** |
| Bərpalar | - | - | 52 | 52 |
| Silinmiş məbləğlər | - | - | - | - |
| **31 dekabr 2025-ci il tarixinə** | **38,182** | **2,475** | **7,379** | **48,036** |

| ***Korporativ kreditlər*** | ***1-ci mərhələ*** | ***2-ci mərhələ*** | ***3-cü mərhələ*** | ***Cəmi*** |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə GKZ** | **(43)** | **-** | **(475)** | **(518)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (26) | (1) | (6) | **(33)** |
| Ödənilmiş aktivlər | 2 | - | 154 | **156** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | 3,489 | - | (3,489) | **-** |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (3,482) | - | (495) | **(3,977)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | | | | |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | (73) | **(73)** |
| Bərpalar | - | - | (52) | **(52)** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| **31 dekabr 2025-ci il tarixinə** | **(60)** | **(1)** | **(4,436)** | **(4,497)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində dövlət müəssisələrinə verilmiş kreditlər ilə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| *Dövlət müəssisələrinə verilmiş kreditlər* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə ümumi balans dəyəri** | **217,243** | **-** | **-** | **217,243** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 596 | - | - | **596** |
| Ödənilmiş aktivlər | (47,812) | - | - | **(47,812)** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | - | - | - | **-** |
| Bərpalar | - | - | - | **-** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| **31 dekabr 2025-ci il tarixinə** | **170,027** | **-** | **-** | **170,027** |

31 dekabr 2025-ci il tarixinə dövlət müəssisələrinə verilmiş kreditlər üzrə GKZ sıfıra bərabər olmuşdur.

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixində başa çatmış il ərzində fiziki şəxslərə - sahibkarlara verilmiş kreditlər ilə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| *Fiziki şəxslərə verilmiş kreditlər – sahibkar* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə ümumi balans dəyəri** | **26,099** | **-** | **351** | **26,450** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 25,142 | 1,485 | 128 | **26,755** |
| Ödənilmiş aktivlər | (17,983) | - | (220) | **(18,203)** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | (784) | 794 | (10) | **-** |
| 3-cü Mərhələyə köçürmələr | (142) | - | 142 | **-** |
| Bərpalar | - | - | 1 | 1 |
| Silinmiş məbləğlər | - | - | - | - |
| **31 dekabr 2025-ci il tarixinə** | **32,332** | **2,279** | **392** | **35,003** |

| *Fiziki şəxslərə verilmiş kreditlər – sahibkar* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə GKZ** | **(23)** | **-** | **(20)** | **(43)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (39) | (32) | (8) | **(79)** |
| Ödənilmiş aktivlər | 10 | - | 14 | **24** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | 26 | (26) | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | 25 | - | (25) | **-** |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (47) | - | (6) | **(53)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | | | | |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | (5) | **(5)** |
| Bərpalar | - | - | (1) | **(1)** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| **31 dekabr 2025-ci il tarixinə** | **(48)** | **(58)** | **(51)** | **(157)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində fiziki şəxslərə verilmiş ipoteka kreditləri ilə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| *Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditləri* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə ümumi balans dəyəri** | **172,318** | **1,294** | **1,034** | **174,646** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 32,279 | - | - | **32,279** |
| Ödənilmiş aktivlər | (13,315) | (203) | (449) | **(13,967)** |
| 1-ci Mərhələyə köçürmələr | 751 | (585) | (166) | **-** |
| 2-ci Mərhələyə köçürmələr | (346) | 350 | (4) | **-** |
| 3-cü Mərhələyə köçürmələr | (221) | (58) | 279 | **-** |
| Diskont üzrə düzəliş | - | - | | **-** |
| Bərpalar | - | - | 81 | **81** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| **31 dekabr 2024-cü il tarixinə** | **191,466** | **798** | **775** | **193,039** |

| *Fiziki şəxslərə verilmiş kreditlər - ipoteka kreditləri* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə GKZ** | **(19)** | **(81)** | **(732)** | **(832)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (1) | - | - | (1) |
| Ödənilmiş aktivlər | 1 | 10 | 271 | 282 |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 2-ci Mərhələyə köçürmələr | 6 | (6) | - | - |
| 3-cü Mərhələyə köçürmələr | 25 | 7 | (32) | - |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (20) | 55 | 142 | 177 |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | - | - | - | - |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | - | - |
| Bərpalar | - | - | (81) | (81) |
| Silinmiş məbləğlər | - | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə** | **(8)** | **(15)** | **(432)** | **(455)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində fiziki şəxslərə verilmiş istehlak kreditləri ilə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| *Fiziki şəxslərə verilmiş kreditlər - istehlak kreditləri* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *SVKD* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə ümumi balans dəyəri** | **218,979** | **5,964** | **9,691** | **-** | **234,634** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 201,853 | 2,625 | 1,263 | - | **205,741** |
| Ödənilmiş aktivlər | (133,440) | (2,559) | (2,383) | - | **(138,382)** |
| SVKD üzrə xalis yenidən qiymətləndirmə | - | - | - | 18 | **18** |
| 1-ci Mərhələyə köçürmələr | 309 | (291) | (18) | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | (4,032) | 4,107 | (75) | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | (4,093) | (2,081) | 6,174 | - | **-** |
| Diskont üzrə düzəliş | | - | - | - | **-** |
| Bərpalar | - | - | 377 | - | **377** |
| Silinmiş məbləğlər | - | - | (3,385) | - | **(3,385)** |
| **31 dekabr 2024-cü il tarixinə** | **279,576** | **7,765** | **11,644** | **18** | **299,003** |

| *Fiziki şəxslərə verilmiş kreditlər - istehlak kreditləri* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *SVKD* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə GKZ** | **(784)** | **(1,419)** | **(5,492)** | - | **(7,695)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (1,476) | (705) | (581) | - | **(2,762)** |
| Ödənilmiş aktivlər | 368 | 274 | (418) | - | **224** |
| 1-ci Mərhələyə köçürmələr | (2) | 2 | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | 990 | (1,005) | 15 | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | 1,878 | 968 | (2,846) | - | **-** |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (2,916) | (76) | 296 | (18) | **(2,714)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | | | | | |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | (282) | - | **(282)** |
| Bərpalar | - | - | (377) | - | **(377)** |
| Silinmiş məbləğlər | - | - | 3,385 | - | **3,385** |
| **31 dekabr 2024-cü il tarixinə** | **(1,942)** | **(1,961)** | **(6,300)** | **(18)** | **(10,221)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində korporativ kreditlərlə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| *Korporativ kreditlər* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə ümumi balans dəyəri** | **21,916** | **3,393** | **2,976** | **28,285** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 55,275 | - | - | **55,275** |
| Ödənilmiş aktivlər | (11,069) | (3,253) | (1,032) | **(15,354)** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | (620) | 620 | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | (1,580) | (140) | 1,720 | **-** |
| Diskont üzrə düzəliş | - | - | - | - |
| Bərpalar | - | - | 159 | **159** |
| Silinmiş məbləğlər | - | - | (2) | **(2)** |
| **31 dekabr 2024-cü il tarixinə** | **63,922** | **620** | **3,821** | **68,363** |

| *Korporativ kreditlər* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə GKZ** | **(67)** | **(144)** | **(427)** | **(638)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (13) | - | - | (13) |
| Ödənilmiş aktivlər | - | 144 | 303 | 447 |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 3-cü Mərhələyə köçürmələr | 110 | 22 | (132) | - |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (73) | (22) | 81 | (14) |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | | | | |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | (143) | (143) |
| Bərpalar | - | - | (159) | (159) |
| Silinmiş məbləğlər | - | - | 2 | 2 |
| **31 dekabr 2024-cü il tarixinə** | **(43)** | **-** | **(475)** | **(518)** |

| *Dövlət müəssisələrinə verilmiş kreditlər* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə ümumi balans dəyəri** | **-** | **-** | **-** | **-** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 217,243 | - | - | **217,243** |
| Ödənilmiş aktivlər | - | - | - | **-** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | - | - | - | **-** |
| Bərpalar | - | - | - | **-** |
| Silinmiş məbləğlər | - | - | - | **-** |
| **31 dekabr 2024-cü il tarixinə** | **217,243** | **-** | **-** | **217,243** |

31 dekabr 2024-cü il tarixinə dövlət müəssisələrinə verilmiş kreditlər üzrə GKZ sıfıra bərabər olmuşdur.

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixində başa çatmış il ərzində fiziki şəxslərə - sahibkarlara verilmiş kreditlər ilə əlaqədar ümumi balans dəyərində və müvafiq GKZ-də dəyişikliklər təhlil edilir:

| *Fiziki şəxslərə verilmiş kreditlər – sahibkar* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə ümumi balans dəyəri** | **15,565** | **-** | **74** | **15,639** |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | 22,225 | - | 146 | **22,371** |
| Ödənilmiş aktivlər | (11,560) | - | - | **(11,560)** |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | **-** |
| 3-cü Mərhələyə köçürmələr | (131) | - | 131 | **-** |
| Diskont üzrə düzəliş | - | - | - | |
| Bərpalar | - | - | - | - |
| Silinmiş məbləğlər | - | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə** | **26,099** | **-** | **351** | **26,450** |

| *Fiziki şəxslərə verilmiş kreditlər – sahibkar* | *1-ci mərhələ* | *2-ci mərhələ* | *3-cü mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə GKZ** | **17** | **(1)** | **(19)** | **(3)** |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir edən hərəkətlər* | | | | |
| Verilmiş və ya satın alınmış yeni aktivlər | (20) | - | (7) | (27) |
| Ödənilmiş aktivlər | 1 | - | - | 1 |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 3-cü Mərhələyə köçürmələr | 12 | - | (12) | - |
| Zərər ehtiyatı üzrə xalis yenidən qiymətləndirmə | (33) | 1 | 18 | (14) |
| *Mənfəət və ya zərərdə kredit zərəri ehtiyatı üzrə (xərcə)/bərpaya təsir etməyən hərəkətlər* | | | | |
| Diskont üzrə düzəliş (3-cü Mərhələ kreditləri üçün faiz gəlirində azalma kimi tanınır) | - | - | - | - |
| Bərpalar | - | - | - | - |
| Silinmiş məbləğlər | - | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə** | **(23)** | **-** | **(20)** | **(43)** |

### Girov və kreditin keyfiyyətini artıran digər amillər

Tələb olunan girovun məbləği və növü biznes tərəfdaşının kredit riskinin qiymətləndirilməsindən asılıdır. Girov növlərinin münasibliyi və qiymətləndirmə parametrlərinə dair qaydalar tətbiq edilir.

Əldə edilmiş girovların əsas növləri aşağıdakılardır:

Korporativ və dövlət kreditləri üçün daşınmaz əmlak üzrə ödənişlər və blok edilmiş pul vəsaitləri;
Pərakəndə kreditlər üçün yaşayış binaları üzrə girovlar.

Rəhbərlik kreditin dəyərsizləşməsi üçün ehtiyatın uyğunluğunu nəzərdən keçirərkən girovun bazar dəyərinə nəzarət edir və müvafiq razılaşmaya uyğun olaraq əlavə girov tələb edir. 31 dekabr 2025-ci il tarixinə 3-cü Mərhələdə girovla təmin edilmiş kreditlər üzrə maksimum risk həcmi 2,039 min AZN (31 dekabr 2024-cü il: 2,396 min AZN) olmuşdur ki, bunun üçün də 415 min AZN (31 dekabr 2024-cü il: 927 min AZN) məbləğində GKZ tanınmışdır. Bu kreditlər üzrə girov olmadığı təqdirdə, həmin kreditlər üzrə GKZ 2,039 min AZN (31 dekabr 2024-cü il: 2,396 min AZN) olardı.

### Bazar dərəcəsindən aşağı faiz dərəcəsi ilə verilmiş kreditlər

2025-ci il tarixinə başa çatan il ərzində bazar dərəcəsindən aşağı faiz dərəcəsi ilə kreditlər verilməmişdir (31 dekabr 2024-cü il: sıfır).

## 9. İnvestisiya qiymətli kağızları

İnvestisiya qiymətli kağızları aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| **DMGƏD-də tanınan borc qiymətli kağızları** | | |
| AMB-nin buraxdığı notlar | - | 3,547 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən buraxılmış notlar | 52,721 | 53,298 |
| Repo müqavilələri üzrə girov qoyulmuş Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən buraxılmış notlar | - | 3,119 |
| Korporativ istiqrazlar | 66,232 | 81,776 |
| **Cəmi DMGƏD-də tanınan borc qiymətli kağızları** | **118,953** | **141,740** |
| **DMGƏD-də tanınan kapital qiymətli kağızları** | | |
| Korporativ səhmlər | - | 138 |
| **DMGƏD-də tanınan investisiya qiymətli kağızlarının ümumi məbləği** | **118,953** | **141,878** |
| **Amortizasiya hesablanmış dəyərlə borc qiymətli kağızları** | | |
| AMB-nin buraxdığı notlar | 5,950 | - |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən buraxılmış notlar | 24,797 | - |
| Korporativ istiqrazlar | 43,340 | - |
| **Cəmi amortizasiya hesablanmış dəyərlə borc qiymətli kağızları** | **74,087** | **-** |
| **İnvestisiya qiymətli kağızlarının cəmi məbləği** | **193,040** | **141,878** |

Kredit zərərləri üçün ehtiyatlarda hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | *2025* | *2024* |
|---|---|---|
| **1 yanvar tarixinə GKZ** | (124) | (133) |
| Əldə edilmiş və ya satın alınmış yeni aktivlər | (56) | (69) |
| Yenidən qiymətləndirmə | 31 | 78 |
| **31 dekabr tarixinə GKZ** | **(149)** | **(124)** |

2025-ci il ərzində B reytinqli şirkətdən 13.0% faiz dərəcəsi ilə 700 min AZN məbləğində, BB+ reytinqli şirkətdən 13.0% faiz dərəcəsi ilə 854 min AZN məbləğində və BB reytinqli şirkətdən 10.5% faiz dərəcəsi ilə 4,000 min AZN məbləğində yeni korporativ istiqrazlar əldə olunmuşdur (2024: BB- reytinqli şirkətlərdən 6.0%-11.5% arasında olan faiz dərəcələri ilə 7,702 min AZN).

İnvestisiya qiymətli kağızlarının bütün qalıqları 1-ci Mərhələyə aid edilir. Bank 31 dekabr 2025-ci il tarixinə investisiya qiymətli kağızları üçün 149 min AZN məbləğində kredit zərəri ehtiyatını tanımışdır (31 dekabr 2024-cü il: 124 min AZN).

31 dekabr 2025-ci il tarixinə investisiya qiymətli kağızlarına daxil edilən hesablanmış faiz gəliri 1,870 min AZN məbləğində olmuşdur (31 dekabr 2024-cü il: 2,038 min AZN).

DMGƏD kimi müəyyən edilmiş kotirovka olunmayan korporativ səhmlərin təfərrüatları aşağıda təqdim edilir:

| Adı | Fəaliyyət növü | Mülkiyyət hüququ faiz ilə (%) | *2025-ci il* | *2024-cü il* |
|---|---|---|---|---|
| "Milli Kart" MMC | Kart prosessinqi | 2.4 | - | 30 |
| "IBAR" ASC | Kommersiya Bankı | 0.01 | - | 108 |
| **Cəmi investisiya qiymətli kağızları** | | | **-** | **138** |

31 dekabr 2025-ci il tarixində başa çatan il ərzində Bank investisiya qiymətli kağızlarının ədalətli dəyərinin dəyişməsi üzrə 3,138 min AZN məbləğində DMG-də gəlir tanımışdır (31 dekabr 2024-cü il: borc investisiya qiymətli kağızlarının ədalətli dəyərində dəyişiklik üzrə 2,376 min AZN məbləğində zərər).

## 10. Əmlak və avadanlıq

Əmlak və avadanlıqda hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | *Mebel və qurğular* | *Kompüter* | *Nəqliyyat vasitələri* | *Digər əsas vəsaitlər* | *İcarəyə götürülmüş aktivlərin təkmilləş-dirilməsi* | *İstifadə hüququ olan aktivlər* | *Cəmi* |
|---|---|---|---|---|---|---|---|
| **Maya dəyəri** | | | | | | | |
| **1 yanvar 2024-cü il** | **9,114** | **8,637** | **1,947** | **396** | **5,790** | **14,278** | **40,162** |
| Əlavələr | 1,827 | 1,807 | 529 | 117 | 1,940 | 3,428 | 9,648 |
| İcarə müqaviləsinin silinməsi /tanınmasının dayandırılması | (8) | (8) | (5) | (1) | - | (867) | (889) |
| **31 dekabr 2024-cü il** | **10,933** | **10,436** | **2,471** | **512** | **7,730** | **16,839** | **48,921** |
| Əlavələr | 1,941 | 1,522 | 188 | 80 | 1,390 | 9,781 | 14,902 |
| **31 dekabr 2025-ci il** | **12,874** | **11,958** | **2,659** | **592** | **9,120** | **26,620** | **63,823** |
| **Yığılmış köhnəlmə** | | | | | | | |
| **1 yanvar 2024-cü il** | **(4,168)** | **(4,245)** | **(1,031)** | **(209)** | **(4,153)** | **(9,943)** | **(23,749)** |
| Köhnəlmə xərci | (1,278) | (1,250) | (289) | (54) | (454) | (2,155) | (5,480) |
| **31 dekabr 2024-cü il** | **(5,446)** | **(5,495)** | **(1,320)** | **(263)** | **(4,607)** | **(12,098)** | **(29,229)** |
| Köhnəlmə xərci | (1,643) | (1,498) | (340) | (69) | (1,480) | (3,177) | (8,207) |
| Silinmələr | (2) | (7) | - | - | - | - | (9) |
| **31 dekabr 2025-ci il** | **(7,091)** | **(7,000)** | **(1,660)** | **(332)** | **(6,087)** | **(15,275)** | **(37,445)** |
| **Xalis qalıq dəyəri** | | | | | | | |
| **31 dekabr 2024-cü il** | **5,487** | **4,941** | **1,151** | **249** | **3,123** | **4,741** | **19,692** |
| **31 dekabr 2025-ci il** | **5,783** | **4,958** | **999** | **260** | **3,033** | **11,345** | **26,378** |

31 dekabr 2025-ci il tarixinə 7,863 min AZN (2024: 9,391 min AZN) məbləğində əmlak və avadanlıq tamamilə amortizasiya olunmuşdur.

İstifadə hüququ olan aktiv Bankın filiallarını və bankomatları əhatə edir.

## 11. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər üzrə hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | *Lisenziyalar* | *Proqram təminatı* | *Cəmi* |
|---|---|---|---|
| **Maya dəyəri** | | | |
| **1 yanvar 2024-cü il** | **3,461** | **7,757** | **11,218** |
| Əlavələr | 714 | 1,119 | 1,833 |
| **31 dekabr 2024-cü il** | **4,175** | **8,876** | **13,051** |
| Əlavələr | 1,030 | 779 | 1,809 |
| **31 dekabr 2025-ci il** | **5,205** | **9,655** | **14,860** |
| **Yığılmış amortizasiya** | | | |
| **1 yanvar 2024-cü il** | **(1,914)** | **(3,297)** | **(5,211)** |
| Amortizasiya xərci | (565) | (738) | (1,303) |
| Silinmələr | (42) | - | (42) |
| **31 dekabr 2024-cü il** | **(2,521)** | **(4,035)** | **(6,556)** |
| Amortizasiya xərci | (673) | (871) | (1,544) |
| **31 dekabr 2025-ci il** | **(3,194)** | **(4,906)** | **(8,100)** |
| **Xalis qalıq dəyəri** | | | |
| **31 dekabr 2024-cü il** | **1,654** | **4,841** | **6,495** |
| **31 dekabr 2025-ci il** | **2,011** | **4,749** | **6,760** |

31 dekabr 2025-ci il tarixinə 1,650 min AZN (2024 : 813 min AZN) məbləğində qeyri-maddi aktivlər tam amortizasiya edilmişdir.

## 12. Vergiqoyma

Korporativ mənfəət vergisi xərci aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il tarixinə başa çatan il* | *31 dekabr 2024-cü il tarixinə başa çatan il* |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (3,490) | (5,793) |
| Təxirə salınmış mənfəət vergisi krediti − müvəqqəti fərqlərin yaranması və ləğv edilməsi | (96) | (432) |
| Əlavə edilsin: Əvvəlki ilin mənfəət vergisinin yenidən qiymətləndirilməsi | (25) | - |
| **Mənfəət vergisi xərci** | **(3,611)** | **(6,225)** |

İl ərzində digər məcmu gəlirə aid edilmiş və ya kreditləşdirilmiş maddələrlə bağlı olan təxirə salınmış mənfəət vergisi aşağıda təqdim olunur:

| | *31 dekabr 2025-ci il tarixinə başa çatan il* | *31 dekabr 2024-cü il tarixinə başa çatan il* |
|---|---|---|
| DMGƏD-də müəyyən edilmiş borc və kapital alətləri üzrə xalis (zərər)/gəlir | (633) | 477 |
| **Digər məcmu gəlirə aid edilmiş mənfəət vergisi** | **(633)** | **477** |

Qüvvədə olan mənfəət vergisi dərəcəsi yerli qanunvericilikdə müəyyən edilən mənfəət vergisi dərəcəsindən fərqlənir. Aşağıdakı cədvəldə yerli qanunvericilik əsasında mənfəət vergisi xərci faktiki xərclərlə tutuşdurulur:

| | *31 dekabr 2025-ci il tarixinə başa çatan il* | *31 dekabr 2024-cü il tarixinə başa çatan il* |
|---|---|---|
| **Vergidən əvvəl mənfəət** | **14,854** | **27,611** |
| Yerli qanunvericiliyə uyğun olan mənfəət vergisi dərəcəsi | 20% | 20% |
| **Yerli qanunvericiliyə uyğun dərəcə ilə nəzəri mənfəət vergisi xərci** | **(2,971)** | **(5,522)** |
| Çıxılmayan xərclərin vergiyə təsiri | (615) | (703) |
| Əvvəlki ilin mənfəət vergisinin yenidən qiymətləndirilməsi | (25) | - |
| | **(3,611)** | **(6,225)** |

31 dekabr tarixinə təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri və onların müvafiq illərdə hərəkətləri aşağıda təqdim olunur:

| | | *Müvəqqəti fərqlərin yaradılması və bərpası* | | | *Müvəqqəti fərqlərin yaradılması və bərpası* | | |
|---|---|---|---|---|---|---|---|
| | *1 yanvar 2024-cü il* | *Mənfəət və ya zərər haqqında hesabatda* | *Digər məcmu gəlirdə* | *31 dekabr 2024-cü il* | *Mənfəət və ya zərər haqqında hesabatda* | *Digər məcmu gəlirdə* | *31 dekabr 2025-ci il* |
| **Çıxılan müvəqqəti fərqlərin vergiyə təsiri** | | | | | | | |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 162 | (74) | - | 88 | 5 | - | 93 |
| İcarə öhdəlikləri | 346 | 111 | - | 457 | 146 | - | 603 |
| Digər öhdəliklər | (171) | (466) | - | (637) | (25) | - | (662) |
| İnvestisiya qiymətli kağızları | (57) | (349) | 477 | 71 | (167) | (633) | (729) |
| Əmlak və avadanlıq | 1,055 | 350 | - | 1,405 | 840 | - | 2,245 |
| Digər aktivlər | 64 | 162 | - | 226 | (328) | - | (102) |
| **Təxirə salınmış mənfəət vergisi aktivləri** | **1,399** | **(266)** | **477** | **1,610** | **471** | **(633)** | **1,448** |
| **Vergiyə cəlb olunan müvəqqəti fərqlərin vergiyə təsiri** | | | | | | | |
| Qeyri-maddi aktivlər | 6 | 83 | - | 89 | 130 | - | 219 |
| Müştərilərə ödəniləcək vəsaitlər | 123 | 365 | - | 488 | - | - | 488 |
| Banklara və dövlət qurumlarına ödəniləcək vəsaitlər | (66) | (293) | - | (359) | - | - | (359) |
| Müştərilərə verilmiş kreditlər | (1,905) | (321) | - | (2,226) | (697) | - | (2,923) |
| **Təxirə salınmış mənfəət vergisi öhdəlikləri** | **(1,842)** | **(166)** | **-** | **(2,008)** | **(567)** | **-** | **(2,575)** |
| **Xalis təxirə salınmış mənfəət vergisi aktivləri/(öhdəlikləri)** | **(443)** | **(432)** | **477** | **(398)** | **(96)** | **(633)** | **(1,127)** |

## 13. Kredit zərərinin bərpası və digər dəyərsizləşmə və ehtiyatlar

Aşağıdakı cədvəldə 31 dekabr 2025-ci il tarixində başa çatan il üzrə mənfəət və ya zərər haqqında hesabatda qeydə alınmış maliyyə alətləri üzrə GKZ xərcləri göstərilir:

| | *Qeyd* | *1-ci Mərhələ* | *2-ci Mərhələ* | *3-cü Mərhələ* | *SVKD* | *Cəmi* |
|---|---|---|---|---|---|---|
| Amortizasiya olurmuş dəyərlə müştərilərə verilmiş kreditlər | 8 | 434 | (238) | (6,212) | 5 | (6,011) |
| İnvestisiya qiymətli kağızları | | (25) | - | - | - | (25) |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | | (24) | - | - | - | (24) |
| **Maliyyə aktivləri üzrə kredit (zərəri)/gəliri** | | **385** | **(238)** | **(6,212)** | **5** | **(6,060)** |
| Maliyyə zəmanətləri | 18 | (6) | - | (75) | - | (81) |
| **Kreditlə bağlı öhdəliklər** | | **(6)** | **-** | **(75)** | **-** | **(81)** |
| **Cəmi kredit zərəri (xərci)/bərpası** | | **379** | **(238)** | **(6,287)** | **5** | **(6,141)** |

Aşağıdakı cədvəldə 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə mənfəət və ya zərər haqqında hesabatda qeydə alınmış maliyyə alətləri üzrə GKZ xərcləri göstərilir:

| | *Qeyd* | *1-ci Mərhələ* | *2-ci Mərhələ* | *3-cü Mərhələ* | *SVKD* | *Cəmi* |
|---|---|---|---|---|---|---|
| Amortizasiya olurmuş dəyərlə müştərilərə verilmiş kreditlər | 8 | (1,163) | (331) | (2,902) | (18) | (4,414) |
| İnvestisiya qiymətli kağızları | | 9 | - | - | - | 9 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | | 367 | - | - | - | 367 |
| **Maliyyə aktivləri üzrə kredit (zərəri)/gəliri** | | **(787)** | **(331)** | **(2,902)** | **(18)** | **(4,038)** |
| Maliyyə zəmanətləri | 18 | (17) | - | - | - | (17) |
| **Kreditlə bağlı öhdəliklər** | | **(17)** | **-** | **-** | **-** | **(17)** |
| **Cəmi kredit zərəri (xərci)/bərpası** | | **(804)** | **(331)** | **(2,902)** | **(18)** | **(4,055)** |

Kreditlə bağlı öhdəliklər və icra zəmanətləri üçün ehtiyatlar digər öhdəliklərdə qeydə alınır.

## 14. Digər aktivlər və öhdəliklər

Digər aktivlərə aşağıdakılar daxildir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| **Digər maliyyə aktivləri** | | |
| Plastik kartlarla əməliyyatlar üzrə hesablaşmalar | 14,290 | 6,447 |
| Vasitəçilərdən alınacaq vəsaitlər | 11,540 | 8,580 |
| Pul köçürmələri üzrə hesablaşmalar | 2,673 | 1,593 |
| MZƏD ilə ölçülən törəmə maliyyə aktivləri (Qeyd 20) | - | 174 |
| **Cəmi digər maliyyə aktivləri** | **28,503** | **16,794** |
| **Digər qeyri-maliyyə aktivləri** | | |
| Xidmətlər üçün avans ödənişləri | 1,460 | 1,232 |
| Müsadirə edilmiş girovlar | 780 | 779 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması üçün avans ödənişləri | 951 | 472 |
| Təxirə salınmış xərclər | 700 | 162 |
| Dövlət büdcəsi ilə hesablaşmalar | 406 | 2 |
| **Cəmi digər qeyri-maliyyə aktivləri** | **4,297** | **2,647** |
| **Digər aktivlərin cəmi məbləği** | **32,800** | **19,441** |

Digər aktivlərin bütün qalıqları 1-ci Mərhələyə aid edilir. 31 dekabr 2025 və 2024-cü il tarixlərinə digər aktivlərlə bağlı GKZ sıfırdır.

Digər öhdəliklərə daxildir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| **Digər maliyyə öhdəlikləri** | | |
| Hesablaşmada oland` vəsaitlər | 5,456 | 31,388 |
| İşçilər üzrə kreditor borclar | 1,728 | 502 |
| Hesablanmış xərclər | 269 | 2,550 |
| **Cəmi digər maliyyə öhdəlikləri** | **7,453** | **34,440** |
| **Digər qeyri-maliyyə öhdəlikləri** | | |
| Dövlət büdcəsi ilə hesablaşmalar | 788 | 693 |
| Təxirə salınmış gəlir | 731 | 580 |
| Kreditlə bağlı öhdəlik üzrə GKZ ehtiyatı və digər ehtiyatlar (18 saylı Qeyd) | 102 | 21 |
| **Cəmi digər qeyri-maliyyə öhdəlikləri** | **1,621** | **1,294** |
| **Digər öhdəliklər** | **9,074** | **35,734** |

İcarə öhdəliyi üzrə hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| **1 yanvar tarixinə** | **4,333** | **4,384** |
| Əlavələr | 564 | 2,631 |
| Silinmələr | - | (400) |
| Yenidən qiymətləndirmə | 9,217 | 762 |
| Faiz xərci | 729 | 557 |
| Ödənişlər | (3,524) | (3,601) |
| **31 dekabr tarixinə** | **11,319** | **4,333** |

31 dekabr 2025-cü il tarixinə Bankın icarələr üzrə ümumilikdə 3,524 min AZN məbləğində məxarici olmuşdur (2024: 3,601 min AZN). Bankın 31 dekabr 2025-ci il tarixində istifadə hüquqlu aktivlərə və icarə öhdəliklərinə 564 min AZN (2024: 2,631 min AZN) məbləğində nağdsız əlavələri olmuşdur.

**İcarə müddətinin uzadılması imkanları**

Bankın icarəyə götürdüyü bəzi ofis və filialların icarə müqavilələrinə ləğv edilə bilməyən müqavilənin müddəti bitdikdən sonra 1 il müddətinə uzadılma imkanları daxildir. Bank əməliyyat imkanlarını artırmaq məqsədilə mümkün olduqca yeni icarə müqavilələrinə müddətin uzadılması şərtini daxil edir. Bu hüquq icarəyə verənlərə deyil, yalnız Banka şamil edilir. Bank icarə müddətinin başladığı tarixdə bu hüququndan istifadə edib-etməyəcəyini qiymətləndirir. Bank öz nəzarətində olan hallarda əhəmiyyətli dəyişiklik olduqda və ya əhəmiyyətli hadisə baş verdikdə bu hüququndan istifadə edib-etməyəcəyini yenidən qiymətləndirir.

## 15. Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər

Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| Cari hesablar | 157,944 | 166,463 |
| Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanəti Fonduna ödəniləcək vəsaitlər | 203,846 | 186,718 |
| Müddətli depozitlər və kreditlər | 46,283 | 3,657 |
| Sahibkarlığın İnkişafı Fondundan alınmış kreditlər | 2,440 | 5,055 |
| **Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər** | **410,513** | **361,893** |

31 dekabr 2025-ci il tarixinə Bankın qeyri-rezident maliyyə institutu ilə müddəti 2026-cı ildə başa çatan və faiz dərəcəsi 1.0% olan 46,283 min AZN məbləğində (31 dekabr 2024-cü il: 3,657 min AZN) 1 müddətli (31 dekabr 2024-cü il: üç) depoziti olmuşdur.

31 dekabr 2025-ci il tarixinə Bankın kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək cari hesablar üzrə cəmi məbləğin 10%-dən çox olan qalıq məbləği 4 bank və digər maliyyə institutlarında (31 dekabr 2024-cü il: 1) olmuşdur. 31 dekabr 2025-ci il tarixinə bu qalığın ümumi məbləği 104,852 min AZN təşkil etmişdir (31 dekabr 2024-cü il: 77,122 min AZN).

20 dekabr 2006-cı il tarixində Bank Azərbaycan İpoteka və Kredit Zəmanət Fondu ilə fiziki şəxslərə uzunmüddətli ipoteka kreditləri vermək üçün kredit müqaviləsi imzalamışdır. Bu proqram çərçivəsində Banka 2026-2055-ci il ödəmə müddəti (2024-cü il: 2025-2055) və illik 1-4% dərəcəsi ilə vəsaitlər təqdim olunur (2024-cü il: illik 1-4%). Bank bu vəsaitləri müvafiq borcalanlara illik 8.0%-dən yüksək olmayan dərəcələrlə verir.

23 dekabr 2010-cu il tarixində Bank Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu ilə kiçik və orta müəssisələrin maliyyələşdirilməsi üçün kredit müqaviləsi imzalamışdır. Bu proqram çərçivəsində vəsaitlər Banka illik 1% (2024-cü il: illik 1%) ilə verilir və onların müddəti 2026-2028-cu (2024-cü il: 2024-2030-ci) illərdə başa çatır. Bank bu vəsaitlərdən müvafiq borcalanlara illik 6% dərəcəsi ilə kreditlər vermək üçün istifadə edir.

Bank rəhbərliyi hesab edir ki, Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondundan və Azərbaycan İpoteka Fondundan alınan müddətli borc öhdəliklərinə bənzər digər maliyyə alətləri mövcud deyil və bu bazarı ayrıca bazar kimi nəzərdən keçirir.

Müddətli borcların ilin əvvəlinə və ilin sonuna olan məbləğlərinin maliyyə fəaliyyətlərindən əldə olunan müvafiq nağd və nağdsız dəyişikliklərlə üzləşdirməsi aşağıda təqdim olunur:

| | *2025* | *2024* |
|---|---|---|
| **1 yanvar** | **191,773** | **174,224** |
| **Nağd daxilolmalar** | | |
| Daxilolmalar | 30,766 | 32,344 |
| Ödənişlər | (16,251) | (14,700) |
| Ödənilmiş faiz | (5,006) | (4,408) |
| **Nağdsız dəyişikliklər** | | |
| Faiz xərci | 5,004 | 4,313 |
| **31 dekabr** | **206,286** | **191,773** |

31 dekabr 2025-ci il tarixinə kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlərə daxil olan hesablanmış faiz xərci 1,264 min AZN (31 dekabr 2024-cü il: 1,257 min AZN) təşkil etmişdir.

## 16. Müştərilərə ödəniləcək vəsaitlər

Müştərilərə ödəniləcək vəsaitlərə aşağıdakılar daxildir:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| Cari hesablar | 1,153,445 | 1,042,386 |
| Müddətli depozitlər | 474,241 | 520,868 |
| Repo müqavilələri əsasında alınmış borclar | - | 1,803 |
| **Müştərilərə ödəniləcək vəsaitlər** | **1,627,686** | **1,565,057** |
| Zəmanətlər və akkreditivlər üzrə təminat kimi saxlanılan vəsaitlər (Qeyd 18) | 2,458 | 1,904 |
| Müştərilərə verilmiş kreditlər üzrə təminat kimi saxlanılan vəsaitlər | 184,061 | 253,256 |

31 dekabr 2025-ci il tarixinə Bankın qalıq məbləği 1,000 min AZN-dən yuxarı olan 67 müştərisi (31 dekabr 2024-cü il: 65 müştəri) olmuşdur. Bu müştərilərin məcmu qalığı 1,439,606 min AZN (31 dekabr 2024-cü il: 1,419,810 min AZN) olmuş və ya cəmi müştəri hesablarının 87%-ni (31 dekabr 2024-cü il: 91%) təşkil etmişdir.

Müştəri hesablarının iqtisadi sektorlar üzrə təhlili aşağıda təqdim olunur:

| | *31 dekabr 2025-c il* | *2025-ci il üzrə cəmi %* | *31 dekabr 2024-cü il* | *2024-cü il üzrə cəmi %* |
|---|---|---|---|---|
| Dövlət və ictimai təşkilatlar | 836,618 | 51.4% | 832,224 | 53.2% |
| Ticarət və xidmətlər | 304,260 | 18.7% | 267,267 | 17.1% |
| Fiziki şəxslər | 244,986 | 15.1% | 211,241 | 13.5% |
| Tikinti | 84,628 | 5.2% | 110,406 | 7.1% |
| Sığorta şirkətləri və digər bank olmayan maliyyə təşkilatları | 70,328 | 4.3% | 82,014 | 5.2% |
| Nəqliyyat və rabitə | 49,638 | 3.0% | 46,084 | 2.9% |
| Digər | 29,939 | 1.8% | 11,175 | 0.7% |
| İstehsal | 7,208 | 0.4% | 4,625 | 0.3% |
| Kənd təsərrüfatı | 81 | 0.1% | 21 | - |
| **Müştərilərə ödəniləcək vəsaitlər** | **1,627,686** | **100%** | **1,565,057** | **100%** |

31 dekabr 2025-cü il tarixinə Bankın dövlət və ictimai təşkilatlar üzrə qalıq məbləği 50,000 min AZN-dən yuxarı olan 2 müştərisi (31 dekabr 2024-cü il: 4 müştəri) olmuşdur. Bu müştərilərin məcmu qalığı 648,877 min AZN (31 dekabr 2024-cü il: 725,368 min AZN) olmuş və ya cəmi müştəri hesablarının 39.7%-ni (31 dekabr 2024-cü il: 46%) təşkil etmişdir.

31 dekabr 2025-ci il tarixinə müştərilərə ödəniləcək vəsaitlərə daxil edilən hesablanmış faiz xərcləri 5,926 min AZN (31 dekabr 2024-cü il: 6,205 min AZN) təşkil etmişdir.

## 17. Kapital

31 dekabr 2025-ci il tarixinə Bankın nizamnamə kapitalı hər səhmin nominal dəyəri 2.01 manat olan, təsdiq olunmuş, buraxılmış və tam ödənilmiş 50,000,000 adi səhm ilə təmsil olunur. Hər adi səhmin bir səs hüququ vardır.

2025-ci ilin oktyabr ayında Milli Depozit Mərkəzində 21.5 milyon manat bölüşdürülməmiş mənfəət hesabına bir səhmin nominal dəyərinin 1.58 manatdan 2.01 manata çatdırılması yolu ilə bankın nizamnamə kapitalının 79 milyon manatdan 100.5 milyon manata çatdırılması prosesi qeydə alınmışdır. 2025-ci ilin oktyabrında proses tamamlanmışdır.

Bankın nizamnamə kapitalı səhmdarlar tərəfindən Azərbaycan manatı ilə qoyulmuşdur və onlar Azərbaycan manatı ilə dividendlər və hər hansı kapital paylarını almaq hüququna malikdirlər.

### Ədalətli dəyər ehtiyatı

Bu ehtiyatda maliyyə aktivləri üzrə ədalətli dəyər dəyişiklikləri DMGƏD-də əks olunur.

## 18. Təəhhüdlər və şərti öhdəliklər

**Hüquq**

Adi fəaliyyət zamanı Bank məhkəmə iddiaları və şikayətləri ilə üzləşir. Rəhbərlik hesab edir ki, belə iddia və ya şikayətlərdən irəli gələn yekun öhdəlik (əgər olarsa) Bankın maliyyə vəziyyəti və ya gələcək əməliyyat nəticələrinə mühüm mənfi təsir göstərməyəcəkdir.

**Vergiqoyma**

Vergi qanunvericiliyi Azərbaycanda müxtəlif şərhlərə və tez-tez dəyişikliklərə məruz qalır. Bankın əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən vergi qanunvericiliyinin rəhbərlik tərəfindən şərhi müvafiq səlahiyyətli orqanlar tərəfindən mübahisələndirilə bilər. Azərbaycan Respublikasında son zamanlar baş verən hadisələr göstərir ki, vergi orqanları bu qanunvericiliyin şərh edilməsi və tətbiqində daha sərt mövqe tuta bilərlər, buna görə də gələcəkdə istənilən vaxt vergi orqanları Bankın əməliyyat və fəaliyyət növləri ilə bağlı əvvəl irəli sürmədikləri iddiaları irəli sürə bilərlər. Nəticə etibarı ilə müvafiq orqanlar tərəfindən böyük məbləğdə əlavə vergi, cərimə və faiz hesablana bilər.

Vergi orqanları tərəfindən belə yoxlama aparmaq qərarı qəbul edildiyi ildən əvvəlki 3 maliyyə ili üzrə vergi yoxlamaları aparıla bilər. Sonuncu vergi yoxlaması 2015-ci ilin ikinci rübü və 2016-cı ilin üçüncü rübünü əhatə etmişdir.
Rəhbərlik hesab edir ki, müvafiq qanunvericiliyin 31 dekabr 2025-ci il tarixinə rəhbərlik tərəfindən tətbiq edilən şərhi münasibdir və Bankın vergi, valyuta və gömrük mövqeləri qəbul ediləcəkdir.

### Sığorta

Bank hazırda səhvlərdən və ya təhriflərdən irəli gələn öhdəliklərlə əlaqədar sığorta təminatı almamışdır.

### AMB tələblərinə uyğunluq

AMB banklardan yerli qanunvericiliyə istinad edən maliyyə hesabatları əsasında hesablanmış müəyyən prudensial normaların yerinə yetirilməsini tələb edir.

2024-cü ilin dekabr ayında Bank Azərbaycan Respublikası Mərkəzi Bankı (AMB) tərəfindən tələb olunan minimum leverec əmsalını təmin edə bilmədi. Bu AMB tərəfindən məcburi sərəncamın verilməsi ilə nəticələndi. Sərəncamla Banka pozuntunun aradan qaldırılması və təkrarlanmaması üçün tədbirlərin görülməsi tapşırıldı. Bank rəhbərliyi 2025-ci ilin yanvarında pozuntunu uğurla aradan qaldırdı və AMB-nin leverec əmsalının tələblərinə uyğunluğu tam bərpa etdi. 31 dekabr 2025-ci il tarixinə Bank AMB-nin bütün qüvvədə olan prudensial normalarına uyğunluğu təmin etmişdir.

### Maliyyə öhdəlikləri və şərti öhdəliklər

Bank tələb olduqda müştərilər üçün vəsaitlərin mövcud olmasını təmin etmək məqsədilə müştərilərə zəmanətlər və akkreditivlər təqdim edir. Zəmanətlər və ehtiyat akkreditivləri müştəri üçüncü tərəflər qarşısında öhdəliklərini yerinə yetirə bilmədiyi təqdirdə Bankın ödəmələr edəcəyini qəti olaraq təsdiq edən ləğv olunmaz sənəddir. Sənədli akkreditivlər və kommersiya akkreditivləri Bankın müştəri adından üzərinə götürdüyü yazılı öhdəliklərdir və üçüncü şəxslərə xüsusi şərtlər əsasında Banka qarşı tələblər irəli sürmək öhdəliyi verməklə aidiyyəti malların çatdırılması və ya nağd pul depozitləri ilə təmin edilir, bu səbəbdən birbaşa borcla müqayisədə daha aşağı riskə məruz qalır.

İstifadə edilməmiş kredit öhdəliklərinə dair razılaşmalarda Bank üçün əlverişsiz şərtlər, o cümlədən təkrar maliyyələşdirmə dərəcəsində dəyişiklik, inflyasiya, məzənnədə dəyişiklik və s. yarandığı halda Bankın birtərəfli qaydada razılaşmadan çıxmaq hüququ müəyyən edilir.

31 dekabrda Bankın öhdəlikləri və şərti öhdəlikləri aşağıdakılardan ibarət olmuşdur:

| | *31 dekabr 2025-ci il* | *31 dekabr 2024-cü il* |
|---|---|---|
| **Kreditlə bağlı öhdəliklər** | | |
| Maliyyə zəmanətləri | 24,620 | 23,411 |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 24,269 | 15,215 |
| Akkreditivlər | - | 97 |
| **Cəmi kreditlə bağlı öhdəliklər** | **48,889** | **38,723** |
| İcra zəmanətləri | 12,591 | 11,256 |
| **Öhdəliklər və şərti öhdəliklər** | **61,480** | **49,979** |
| Kreditlə bağlı öhdəliklər üzrə GKZ üçün ehtiyatlar | 102 | 21 |
| Maliyyə zəmanətləri üzrə təminat kimi saxlanılan depozitlər (Qeyd 16) | 912 | 546 |
| İcra zəmanətləri üzrə təminat kimi saxlanılan depozitlər (Qeyd 16) | 1,546 | 1,261 |
| Akkreditivlər üzrə təminat kimi saxlanılan depozitlər (Qeyd 16) | - | 97 |

**Maliyyə öhdəlikləri və şərti öhdəliklər**

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə GKZ-də dəyişikliklərin təhlili aşağıdakı kimidir:

| *Kreditlə bağlı öhdəliklər* | *1-ci Mərhələ* | *2-ci Mərhələ* | *3-cü Mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2025-ci il tarixinə GKZ** | **(21)** | **-** | **-** | **(21)** |
| Yeni risklər | (14) | - | (1) | (15) |
| Tanınması dayandırılmış və ya müddəti bitmiş risklər (silinmələri çıxmaqla) | 10 | - | - | 10 |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 3-cü Mərhələyə köçürmələr | 74 | - | (74) | - |
| Zərər ehtiyatı üzrə xalis yenidən ölçülmə | (76) | - | - | (76) |
| **31 dekabr 2025-ci il** | **(27)** | **-** | **(75)** | **(102)** |

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə GKZ-də dəyişikliklərin təhlili aşağıdakı kimidir:

| *Kreditlə bağlı öhdəliklər* | *1-ci Mərhələ* | *2-ci Mərhələ* | *3-cü Mərhələ* | *Cəmi* |
|---|---|---|---|---|
| **1 yanvar 2024-cü il tarixinə GKZ** | **(5)** | **-** | **-** | **(5)** |
| Yeni risklər | (15) | - | - | (15) |
| Tanınması dayandırılmış və ya müddəti bitmiş risklər (silinmələri çıxmaqla) | 5 | - | - | 5 |
| 1-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 2-ci Mərhələyə köçürmələr | - | - | - | - |
| 3-cü Mərhələyə köçürmələr | - | - | - | - |
| Zərər ehtiyatı üzrə xalis yenidən ölçülmə | (6) | - | - | (6) |
| **31 dekabr 2024-cü il** | **(21)** | **-** | **-** | **(21)** |

31 dekabr 2025 və 2024-cü il tarixlərinə istifadə edilməmiş kredit öhdəlikləri ilə bağlı GKZ sıfıra bərabər olmuşur.

## 19. Xalis haqq və komissiya gəliri

Xalis haqq və komissiya gəliri aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il tarixində başa çatan il* | *31 dekabr 2024-cü il tarixində başa çatan il* |
|---|---|---|
| Plastik kart əməliyyatları xidmətinin göstərilməsi | 14,454 | 13,026 |
| Hesablaşma əməliyyatları | 4,541 | 4,619 |
| Nağd pul ilə aparılan əməliyyatlar | 1,926 | 1,960 |
| Xarici valyuta mübadiləsi üzrə əməliyyatlar | 809 | 1,000 |
| Zəmanətlər və akkreditiv | 779 | 1,166 |
| Digər | 1,657 | 1,111 |
| **Haqq və komissiya gəliri** | **24,166** | **22,882** |
| Plastik kart əməliyyatları xidmətinin göstərilməsi | (16,937) | (14,166) |
| Hesablaşma əməliyyatları | (1,104) | (872) |
| Nağd pul ilə aparılan əməliyyatlar | (471) | (474) |
| Zəmanətlər və öhdəliklər | (45) | (36) |
| Digər | (2,029) | (1,840) |
| **Haqq və komissiya xərcləri** | **(20,586)** | **(17,388)** |
| **Xalis haqq və komissiya gəliri** | **3,580** | **5,494** |

## 20. Digər gəlirlər

Digər gəlirlər aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il tarixində başa çatan il* | *31 dekabr 2024-cü il tarixində başa çatan il* |
|---|---|---|
| Törəmə maliyyə alətləri ilə əməliyyatlardan gəlir (Qeyd 14) | 81 | 527 |
| Digər gəlirlər | 657 | 330 |
| **Cəmi digər gəlirlər** | **738** | **857** |

## 21. İşçi heyəti ilə bağlı, ümumi və inzibati xərclər

İşçi heyəti ilə bağlı xərclər aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il tarixində başa çatan il* | *31 dekabr 2024-cü il tarixində başa çatan il* |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | (29,547) | (22,854) |
| Sosial sığorta xərcləri | (6,895) | (5,655) |
| İşçilərlə bağlı digər xərclər | (1,020) | (1,095) |
| **İşçi heyəti ilə bağlı xərclər** | **(37,462)** | **(29,604)** |

Ümumi və inzibati xərclər aşağıdakılardan ibarətdir:

| | *31 dekabr 2025-ci il tarixində başa çatan il* | *31 dekabr 2024-cü il tarixində başa çatan il* |
|---|---|---|
| Məlumatların emalı | (1,573) | (1,604) |
| Hüquq və məsləhət xidmətləri | (1,503) | (848) |
| Rabitə | (1,405) | (1,428) |
| Əmanətlərin sığortalanması xərcləri | (1,104) | (1,524) |
| Marketinq və reklam | (1,037) | (1,047) |
| Mənfəət vergisi istisna olmaqla, əməliyyat vergiləri | (781) | (989) |
| Kommunal xərclər | (677) | (662) |
| Əmlak və avadanlıqların təmiri və texniki xidməti | (478) | (417) |
| Ofis təchizatı | (434) | (600) |
| Təhlükəsizlik | (332) | (306) |
| İşgüzar səfərlər | (261) | (381) |
| Üzvlük xərcləri | (71) | (51) |
| Hərrac xərcləri | - | (9) |
| Digər | (670) | (1,051) |
| **Cəmi ümumi və inzibati xərclər** | **(10,326)** | **(10,917)** |

31 dekabr 2025-ci il tarixində başa çatan il ərzində audit və qeyri-audit xidmətlərinin göstərilməsi üçün Bankdan tutulan haqlar müvafiq olaraq 224 min AZN və 115 min AZN təşkil edir.

## 22. Risklərin idarə edilməsi

**Giriş**

Bank öz fəaliyyəti ilə əlaqədar kredit limitlərinə və digər nəzarət tədbirlərinə məruz qalır və bu prosesi riskləri davamlı olaraq müəyyən etməklə, qiymətləndirməklə və monitorinqini aparmaqla idarə edir. Risklərin idarə edilməsi prosesi Bankın davamlı gəlirliliyi üçün çox vacibdir və Bankın hər bir əməkdaşı öz öhdəlikləri çərçivəsində risklərə görə məsuliyyət daşıyır. Bank kredit riski, likvidlik riski və bazar risklərinə məruz qalır. Bank həmçinin əməliyyat risklərinə də məruz qalır. Müstəqil riskə nəzarət prosesinə mühit, texnologiya və sənaye sahələrində dəyişikliklər kimi biznes riskləri daxil deyildir. Onlar Bankın strateji planlaşdırma prosesi vasitəsilə nəzarət altında saxlanılır.

*Riskin idarə edilməsi strukturu*

Direktorlar Şurası risklərin müəyyən edilməsi və nəzarətdə saxlanmasına görə son məsul tərəfdir, lakin risklərin idarə olunması və monitorinqinə ayrıca müstəqil orqanlar cavabdehdir.

*Direktorlar Şurası*

Direktorlar Şurası ümumilikdə riskin idarə edilməsi yanaşmasına, risk strategiyası və prinsiplərinin təsdiq edilməsinə cavabdehdir.

*Audit Komitəsi*

Audit Komitəsi audit tapşırığı və strategiyasının müəyyən edilib hazırlanmasına görə ümumi məsuliyyət daşıyır. Komitə fundamental audit məsələlərinə və Daxili Auditin fəaliyyətinin monitorinqinə cavabdehdir.

*İdarə Heyəti*

İdarə Heyəti Bankda risklərin idarə olunması prosesinə ümumi nəzarət üçün məsuliyyət daşıyır.

*Risk Komitəsi*

Risk Komitəsi risk strategiyasının işlənib hazırlanması və risk prinsipləri, konsepsiyası, siyasəti və hədlərinin tətbiqi üçün ümumi məsuliyyət daşıyır. Komitə fundamental risk məsələlərinə cavabdehdir və müvafiq risklərlə bağlı qərarları idarə edir və onlara nəzarəti həyata keçirir.

*Risklərin idarə olunması*

Risklərin idarə olunması departamenti müstəqil nəzarət prosesini təmin etmək məqsədilə risklə bağlı prosedurların icrası və icranın təmin edilməsi üçün məsuliyyət daşıyır.

*Bankın Xəzinədarlığı*

Bankın Xəzinədarlığı Bank aktivlərinin və öhdəliklərinin idarə olunması, eləcə də ümumi maliyyə strukturu üçün məsuliyyət daşıyır. Bundan əlavə, xəzinədarlıq başlıca olaraq Bankın maliyyələşdirmə və likvidlik risklərinə cavabdehdir.

*Daxili Audit*

Daxili audit funksiyası hər il Bankda risklərin idarə olunması proseslərinin auditini aparararaq, həm prosedurların uyğunluğunu, həm də Bankın prosedurlara əməl etməsini yoxlayır. Daxili Audit bütün qiymətləndirmələrin nəticələrini rəhbərliklə müzakirə edir və nəticə və tövsiyələr haqqında Audit Komitəsinə hesabat verir.

*Risklərin ölçülməsi və hesabat sistemləri*

Bankın riskləri həm adi fəaliyyət zamanı yaranması ehtimal edilən zərəri və gözlənilməyən zərərləri əks etdirən metoddan istifadə etməklə ölçülür ki, bu da statistik modellər əsasında yekun faktiki zərərlərin qiymətləndirməsini əks etdirir. Modellərdə keçmiş təcrübədən əldə edilmiş və iqtisadi mühiti əks etdirmək üçün düzəliş edilmiş ehtimallardan istifadə edilir. Həmçinin Bank, baş verməsi ehtimalı az olan fövqəladə hadisələr həqiqətən baş verdikdə yarana bilən ən pis ssenariləri nəzərdən keçirir.

Risklərin monitorinqi və onlara nəzarət ilk öncə Bankın müəyyən etdiyi limitlər əsasında aparılır. Bu limitlər Bankın biznes strategiyasını və bazar mühitini, eləcə də Bankın seçilmiş sənaye sahələrinə əlavə diqqət yetirməklə qəbul etməyə hazır olduğu risk səviyyəsini əks etdirir. Bundan əlavə, Bank bütün risk və əməliyyat növləri üzrə riskə məruzqalma ilə bağlı ümumi qəbul edilə bilən risk səviyyəsinə nəzarət edir və onu ölçür.

Risklərin təhlili, onlara nəzarət və erkən aşkar edilməsi məqsədilə bütün bölmələrdən əldə edilmiş məlumat yoxlanılır. Bu məlumat İdarə Heyətinə, Risk Komitəsinə və hər bir biznes bölmənin rəhbərinə təqdim edilir. Hesabata məcmu kredit riski haqqında məlumat, limitlər üzrə istisnalar və likvidlik əmsalları daxil edilir. Hər ay baş verən sənaye sahəsi, müştəri və coğrafi risklər barədə ətraflı məlumat təqdim edilir. Yuxarı rəhbərlik hər rüb kredit zərərləri üçün ehtiyat yaratmaq zərurətini qiymətləndirir. Direktorlar Şurası rübdə bir dəfə risklər haqqında ətraflı hesabat alır, həmin hesabatda isə Bankın risklərini qiymətləndirmək və müvafiq qərarlar qəbul etmək üçün bütün zəruri məlumatlar açıqlanır.

Bank daxilində bütün səviyyələr üçün risklər haqqında xüsusi hesabatlar hazırlanır və təqdim olunur, bununla bütün biznes bölmələr ətraflı, zəruri və aktual məlumatla tanış olmaq imkanı əldə edirlər.

İdarə Heyəti və Bankın bütün digər müvafiq işçilərinin gündəlik brifinqlərində bazar limitlərinin və likvidliyin dəstəklənməsi, eləcə də risklərlə bağlı digər dəyişikliklər müzakirə olunur.

*Risklərin azaldılması*

Bank kredit risklərini azaltmaq üçün girovdan fəal istifadə edir.

*Həddindən artıq risk konsentrasiyası*

Risklərin konsentrasiyası bir sıra kontragentlər oxşar fəaliyyət növləri ilə məşğul olduqda və ya onların fəaliyyəti eyni coğrafi bölgədə həyata keçirildikdə və ya kontragentlər oxşar iqtisadi xüsusiyyətlərə malik olduqda və nəticə olaraq iqtisadi, siyasi və digər şərtlərdə dəyişikliklər həmin kontragentin müqavilə öhdəliklərini yerinə yetirmək qabiliyyətinə eyni dərəcədə təsir göstərdikdə yaranır. Risk konsentrasiyası Bankın fəaliyyət nəticələrinin xüsusi sənaye sahəsinə və ya coğrafi bölgəyə təsir göstərən dəyişikliklərə qarşı nisbi həssaslığını əks etdirir.

Həddindən artıq risk konsentrasiyasına yol verməmək üçün Bank daxili siyasətlərinə və prosedurlarına müxtəlif çeşidli portfellərin saxlanması ilə bağlı qaydalar daxil edilmişdir. Müəyyən edilmiş kredit riski konsentrasiyaları müvafiq qaydada nəzarətdə saxlanılır və idarə olunur.

**Kredit riski**

Kredit riski Bankın sifarişçiləri, müştəriləri və ya kontragentlərinin öz müqavilə öhdəliklərini yerinə yetirməməsi səbəbindən Bankın zərər çəkməsi riskidir. Bank ayrı-ayrı kontragentlər, eləcə də coğrafi və sənaye sahələri üzrə konsentrasiya ilə əlaqədar Bankın qəbul etməyə hazır olduğu risk məbləğləri üzrə limit müəyyən etməklə və həmin limitlərlə bağlı riskə məruzqalmaların monitorinqini aparmaqla kredit riskini idarə edir və ona nəzarət edir.

Bank girovun müntəzəm qaydada yenidən baxılması daxil olmaqla biznes tərəfdaşlarının kredit ödəmək qabiliyyətlərində mümkün dəyişikliklərin daha tez müəyyən edilməsini təmin etmək məqsədilə kredit keyfiyyətinin yoxlanılması prosesini müəyyən etmişdir. Biznes tərəfdaşları üzrə limitlər kredit riskinin təsnifləşdirilməsi sistemindən istifadə etməklə müəyyən edilir. Kredit keyfiyyətinin yoxlanması prosesi Banka məruz qaldığı risklər nəticəsində potensial zərəri qiymətləndirməyə və lazımi tədbirləri görməyə imkan yaradır.

*Kreditlə bağlı öhdəliklər riski*

Bankın müştərilərə verdiyi zəmanətlər əsasında müştərilər adından ödənişlər etmək zərurəti yarana bilər. Müştərilər bu ödənişləri Banka akkreditivin şərtləri əsasında qaytarırlar. Onlar Bankı kredit risklərinə oxşar risklərə məruz qoyur, belə risklər eyni nəzarət prosesləri və qaydaları ilə azaldılır.

Qarşılıqlı əvəzləşdirmə və girov müqavilələrindən istifadə nəticəsində riskin azalması təsirindən əvvəl maliyyə vəziyyəti haqqında hesabatın komponentləri üzrə kredit riskinə maksimum məruzqalma onların balans dəyərlərini daha yaxşı əks etdirir.

Maliyyə alətləri ədalətli dəyərlə qeydə alındıqda balans dəyəri gələcəkdə dəyərin dəyişməsi nəticəsində yarana bilən maksimum riskə məruzqalmanı deyil, cari kredit riskinə məruzqalmanı əks etdirir.

Maliyyə alətlərinin hər bir sinfi üzrə kredit riskinə maksimum məruzqalma haqqında daha ətraflı məlumat xüsusi qeydlərdə açıqlanır. Girovun və digər riskin azaldılması vasitələrinin təsiri  8 saylı Qeyddə göstərilir.

*Dəyərsizləşmənin qiymətləndirilməsi*

Bank EFD-yə yaxın dərəcə ilə diskont edilmiş, gözlənilən pul vəsaitlərinin çatışmazlığını qiymətləndirmək üçün GKZ-ni bir neçə ehtimalla ölçülmüş ssenari əsasında hesablayır. Pul vəsaitlərinin çatışmazlığı müqaviləyə uyğun olaraq şirkətə ödəniləcək pul vəsaitləri ilə müəssisənin əldə etməsi ehtimal edilən pul vəsaitləri arasındakı fərqdir. GKZ-nin hesablanması mexanizmi aşağıda təsvir olunur və əsas elementləri aşağıdakılardır:

| | |
|---|---|
| DE | *Defolt ehtimalı* müəyyən edilən vaxt çərçivəsində defolt ehtimalının qiymətləndirilməsidir. Əgər müvafiq vəsait daha əvvəl uçotdan çıxarılmamışdırsa və hələ də portfelə daxildirsə defolt yalnız qiymətləndirilən dövr ərzində müəyyən vaxtda yarana bilər. |
| DHRH | *Defolt halında riskin həcmi* müqavilədə nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq, əsas və faiz məbləğlərinin qaytarılması, kredit öhdəliyi üzrə gözlənilən vəsaitlərin istifadəsi və yerinə yetirilməmiş ödənişlər üzrə hesablanmış faiz də daxil olmaqla hesabat tarixindən sonra riskə məruzqalma üzrə gözlənilən dəyişikliyi nəzərə alaraq gələcək defolt tarixində riskə məruzqalmanın qiymətləndirilməsidir. |
| DHZ | *Defolt halında zərər* müəyyən edilən vaxtda defolt baş verdiyi halda yaranan zərərin qiymətləndirilməsidir Bu, müqavilə ilə nəzərdə tutulmuş ödəniləcək pul vəsaitləri ilə kreditorun əldə etməsi gözlənilən (o cümlədən hər hansı girovun satışından) pul vəsaitləri arasındakı fərqə əsaslanır. Bu, adətən DHRH-nin faizi kimi ifadə edilir. |

GKZ üzrə ehtiyat aktivin istifadə müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (ömürlük gözlənilən kredit zərəri və ya ÖGKZ) əsaslanır, lakin yarandığı dövrdən kredit riskində əhəmiyyətli artım olmadığı hallar istisnadır, belə ki, bu halda ehtiyat 12 aylıq gözlənilən kredit zərərinə (12 aylıq GKZ) əsaslanır. 12 aylıq GKZ hesabat tarixindən sonra 12 ay ərzində mümkün olan maliyyə aləti ilə bağlı defolt hadisələrindən yaranan GKZ-ni əks etdirən ÖGKZ-nin bir hissəsidir. Həm ÖGKZ, həm də 12 aylıq GKZ maliyyə alətlərinin müvafiq portfelinin xüsusiyyətindən asılı olaraq fərdi və ya məcmu əsasla hesablanır.

Bank hər hesabat dövrünün sonunda maliyyə alətinin qalan müddəti üzrə öhdəliklərin yerinə yetirilməməsi (defolt) riskindəki dəyişiklikləri nəzərə almaqla, maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artıb-artmamasını qiymətləndirmək üçün siyasət müəyyən etmişdir. Yuxarıdakı prosesə əsasən Bank kreditləri 1-ci Mərhələ, 2-ci Mərhələ, 3-cü Mərhələ və SVKD üzrə aşağıdakı kimi qruplaşdırır:

| | |
|---|---|
| 1-ci Mərhələ: | Kreditlər ilk dəfə tanındıqda, Bank ehtiyatı 12 aylıq GKZ əsasında tanıyır. 1-ci Mərhələyə aid kreditlərə həm də kredit riskinin azaldığı və 2-ci Mərhələdən yenidən təsnif edilmiş vəsaitlər daxildir. |
| 2-ci Mərhələ: | Kredit verildiyi andan etibarən kredit riskində əhəmiyyətli dərəcədə artım olduqda Bank ÖGKZ üzrə ehtiyat tanıyır. 2-ci Mərhələnin kreditlərinə həm də kredit riskinin azaldığı və 3-cü Mərhələdən yenidən təsnif edilmiş vəsaitlər daxildir. |
| 3-cü Mərhələ: | Dəyərsizləşmiş hesab olunan kreditlər. Bank ÖGKZ üzrə ehtiyat tanıyır. |
| SVKD: | Satın alınmış və ya verilmiş kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (SVKD) ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləridir. SVKD aktivləri ilkin tanınma zamanı ədalətli dəyərlə qeydə alınır və daha sonra faiz gəliri kredit üzrə düzəliş edilmiş effektiv faiz dərəcəsi ("EFD") əsasında tanınır. GKZ yalnız ömürlük gözlənilən kredit zərərlərində sonradan dəyişiklik baş verdiyi həcmdə tanınır və ya ləğv edilir. |

*Defolt anlayışı və bərpa olunma*

Borcalan müqavilə üzrə ödənişləri 90 gün gecikdirdiyi hallarda, Bank maliyyə alətinin defolt olduğunu və GKZ hesablamaları üçün 3-cü Mərhələyə (kredit üzrə dəyərsizləşməyə) aid olduğunu hesab edir. Gün ərzində tələb olunan ödənişlər fərdi müqavilələrdə göstərildiyi kimi iş gününün sonuna qədər ödənilmədikdə Bank banklardan alınacaq məbləğlərin defolt olduğunu hesab edir və dərhal tədbirlər görür.

Müştərinin defolt vəziyyətində olub-olmadığının keyfiyyət baxımından qiymətləndirilməsi çərçivəsində Bank ödənişin icrası ehtimalının aşağı olduğuna işarə edə bilən bir sıra halları nəzərdən keçirir. Bu cür hadisələr baş verdikdə, Bank hadisənin müştərinin defolt hesab edilməsi və bu səbəbdən GKZ-nin hesablanması üçün 3-cü Mərhələ kimi qiymətləndirilməsi ilə nəticələnməsini və ya 2-ci Mərhələnin məqsədəuyğun olmasını diqqətlə nəzərdən keçirir. Belə hallara aşağıdakılar aiddir:

- ► Defolt və kredit üzrə dəyərsizləşmiş aktivlər:
  - Əsas məbləği və/və ya hesablanmış faizi və/ və ya hər hansı digər ödənişləri müqavilədə qeyd edilən tarixdən 90 gündən çox gecikdirilən kreditlər;
  - Restrukturizasiya olunmuş kreditlər;
  - Rəhbərlik tərəfindən vaxtı keçmiş hesab olunan istənilən kreditlər.

- ► Borcalanın müflisləşməsi, ödəniş qabiliyyətinin olmaması və ya oxşar şəraitdə olacağı/olması barədə məlumatın mövcudluğu.
- ► Eyni borcalanın digər maliyyə alətləri üzrə defolta məruz qalması.
- ► Xarici reytinqə uyğun olaraq defolta məruz qalma.

Ən azı 6 ardıcıl ay ərzində defolt meyarlarından heç biri mövcud olmadıqda Bankın siyasətinə görə belə maliyyə aləti "bərpa olunmuş" hesab edilir və nəticədə 3-cü Mərhələdən xaric edilərək yenidən təsnifləşdirilir. Bərpa olunmadan sonra aktivin 2-ci Mərhələ və ya 1-ci Mərhələ kimi təsnifləşdirilməsi barədə qərar bərpa olunma zamanı yenilənmiş kredit dərəcəsindən və onun ilkin tanınma ilə müqayisədə kredit riskində əhəmiyyətli artım göstəricisi olub-olmamasından asılıdır.

*DE-nin qiymətləndirilməsi prosesi*

Bank əsas portfellər üçün ayrıca modelləri istifadə edir. Modellər kəmiyyət məlumatlarını özündə birləşdirir və borcalanın davranışına təsir göstərə biləcək əlavə xarici məlumatlardan istifadə edir. Makroiqtisadi amillərin defolt ehtimalına təsirini nəzərdən keçirmək üçün ehtimalların makroiqtisadi amillərə həssaslığı statistik reqressiya metodu ilə hesablanır. Praktiki cəhətdən uyğun olduqda, proqnoz məlumatı və MHBS 9-a uyğun riskin mərhələli təsnifləşdirilməsini özündə birləşdirən DE-lər hər bir dərəcə üçün təyin edilir. Bu proses hər bir iqtisadı ssenari üçün uyğun şəkildə təkrar olunur.

*Xəzinədarlıq və banklararası münasibətlər*

Bankın xəzinədarlıq və banklararası münasibətləri və kontragentləri maliyyə xidmətləri üzrə təşkilatlardan, banklardan, broker- dillerlərdən, mübadilə məntəqələrindən və klirinq-hesablaşma mərkəzlərindən ibarətdir. Bu münasibətlər üçün Bank maliyyə məlumatları və digər xarici məlumat (məs. DE və DHZ-ni müəyyən etmək üçün xarici reytinqlər) kimi ictimaiyyət üçün açıq olan məlumatı təhlil edir.

*İstehlak və ipoteka kreditləri*

İstehlak kreditlərinə təminatlı və təminatsız fərdi kreditlər, kredit kartları və overdraftlar daxildir. Bu məhsullar, həmçinin ipoteka kreditləri və daha sadə kiçik biznes kreditləri vaxtı keçmiş günlər əsasında qiymətləndirilir.

İstehlak kreditləri üçün defolt ehtimalı keçid matrislərindən istifadə etməklə hesablanır. Bu məqsədlə, bir ilin müvafiq ayından növbəti ilin eyni ayınadək baş verən dəyişikliyi əks etdirən sadələşdirilmiş keçid matrisləri hər bir matrisdə olan kreditlərin məbləği əsasında hazırlanır. Modellərin digər əsas giriş məlumatlarına real ÜDM-nin artımı və Azərbaycan manatının ABŞ dollarına nisbətdə məzənnəsi daxildir.

*Korporativ və kiçik biznes kreditləri*

İstehlak kreditləri üçün istifadə edilən yanaşma və giriş məlumatları korporativ və kiçik biznes kreditlərinə də tətbiq edilir. Korporativ kreditlər üçün DE və GKZ-nin hesablanmasında istifadə edilən keçid matrisləri hər bir matrisdə olan kreditlərin sayı əsasında müəyyən edilir. DHZ yalnız defoltlu kreditlərinin aylıq bərpası üzrə mövcud tarixi məlumatlardan istifadə edən, "kreditlərin keçidi matrisi" ("roll rates") adlandırılan dərəcələr əsasında hesablanır (məlumatlar aylıq göstərilir və diskontlaşdırılır).

*Defolt halında risklərin həcmi*

Defolt halında risklərin həcmi (DHRH) həm müştərinin defolt yaxınlaşdıqda riskə məruzqalmanı artırmaq qabiliyyətini, həm də mümkün erkən ödənişləri nəzərə almaqla dəyərsizləşmə hesablaması aparılmalı olan maliyyə alətlərinin ümumi balans dəyərini əks etdirir.

*Defolt halında zərər*

Korporativ kreditləşmə aktivləri üçün DHZ-nin dəyərləri ən azı hər rüb müştərilərlə iş üzrə menecerlər tərəfindən qiymətləndirilir və Bank tərəfindən nəzərdən keçirilir və təsdiqlənir.

Kredit riskinin qiymətləndirilməsi müəyyən DHZ dərəcəsi ilə nəticələnən standartlaşdırılmış DHZ-nin qiymətləndirilməsi modelinə əsaslanır. Bu DHZ dərəcələri hər hansı saxlanılan girovdan bərpa olunması və ya realizə edilməsi gözlənilən məbləğlə müqayisədə gözlənilən DHRH-ni nəzərə alır.

Bank gələcək pul vəsaitləri hərəkətinin qiymətləndirilməsinə xas olan mühüm parametrlərə əsaslanmaqla pərakəndə kreditləşmə məhsullarını daha kiçik homogen portfellər üzrə seqmentləşdirir. Tətbiq edilən məlumatlar əvvəlki dövrlər üzrə toplanmış zərər haqqında məlumatlara əsaslanır və daha geniş əməliyyat xüsusiyyətlərinin toplusunu (məs. məhsulun növü) və borcalanın xüsusiyyətlərini əhatə edir.

Uyğun olduqda, maliyyə alətlərinin hər bir qrupu üçün MHBS 9 üzrə DHZ dərəcəsini müəyyən etmək üçün ən son məlumatdan istifadə edilir. Proqnoz məlumatlarının qiymətləndirilməsi zamanı gözlənti müxtəlif ssenarilərə əsaslanır. Əsas giriş məlumatlarının nümunələrinə ipoteka kreditləri üçün əmlak qiymətləri daxil olmaqla girovların dəyəri, əmtəə qiymətləri, ödəniş statusu və qrupda zərər göstəricisi olan digər amillərdə dəyişikliklər daxildir.

DHZ dərəcələri hər bir aktiv sinfinin 1-ci Mərhələ, 2-ci Mərhələ və 3-cü Mərhələ seqmenti üçün qiymətləndirilir.

*Kredit riskində əhəmiyyətli artım*

Bank GKZ-yə məruz qalan aktivlərə davamlı şəkildə nəzarət edir. Alətin və ya alətlər portfelinin 12 aylıq GKZ və ya ÖGKZ-yə məruz qalıb-qalmamasını müəyyən etmək üçün Bank ilkin tanınmadan sonra kredit riskində əhəmiyyətli artımın olub-olmamasını qiymətləndirir.

Müştərinin/kreditin nəzarətdə olan kreditlər siyahısına daxil edilməsi və ya kredit hadisəsi ilə əlaqədar hesabın restrukturizasiya səbəbindən aktiv üzrə kredit riskinin əhəmiyyətli artımına təkan vermək üçün Bank həmçinin ikinci dərəcəli keyfiyyət metodunu tətbiq edir. Bəzi hallarda, Bank həmçinin yuxarıdakı "Defolt anlayışı" bölməsində izah edilən hadisələri defoltun əksinə kredit riskində əhəmiyyətli artım kimi nəzərə ala bilər. Kredit dərəcələrində dəyişikliyə baxmayaraq, müqavilə üzrə ödənişlərdə 30 gündən artıq gecikmə olarsa, kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmış hesab olunur. Kredit riskinin əhəmiyyətli dərəcədə artması üçün istifadə olunan meyarlar aşağıdakı kimidir:

Maliyyə aləti xarici valyuta ilə ifadə olunur və onun ilkin tanınması anından hesabat tarixinə kimi xarici valyutanın mübadilə məzənnəsində 20%-dək artım olmuşdur,

Köhnəlmə və amortizasiyadan sonra maliyyə aktivi üzrə təminatın dəyəri ilkin qiymətləndirmə, eyni zamanda maliyyə aktivinin qalıq dəyəri ilə müqayisədə daha azdır və aktiv üzrə ödəmələrdə 15-30 gün gecikmələr mövcuddur,

Maliyyə aktivi üzrə defolt ehtimalı 10-30% arası artmışdır,

Maliyyə aləti restrukturizasiya olunmuşdur və hazırda əsas borc və/və ya faizlər üzrə gecikmə günlərinin sayı 30-dan aşağıdır.

Banklararası əməliyyatlar və banklar tərəfindən buraxılan istiqrazlar üçün:

Kənar reytinqdə pisləşmə;

Monitorinq borcalanın maliyyə çətinliyi olduğunu göstərir.

Eyni aktivlər qrupu üçün GKZ-ləri məcmu şəkildə qiymətləndirərkən Bank ilkin tanınmadan sonra kredit riskində əhəmiyyətli artımın olub-olmamasını qiymətləndirmək üçün eyni prinsiplərdən istifadə edir.

*Məcmu əsasla qiymətləndirilən maliyyə aktivlərinin qruplaşdırılması*

Aşağıdakı amillərdən asılı olaraq, Bank GKZ-ləri məcmu və ya fərdi əsasla hesablayır.

Bankın GKZ-ni fərdi əsasla qiymətləndirdiyi aktiv siniflərinə aşağıdakılar daxildir:

Xəzinədarlıq və banklararası münasibətlər (amortizasiya olunmuş dəyər və DMGƏD ilə banklardan alınacaq məbləğlər, pul vəsaitlərinin ekvivalentləri və borc investisiya qiymətli kağızları).

Bütün digər aktivlər üzrə GKZ məcmu əsasla hesablanır.

*Proqnozlaşdırılmış məlumat*

GKZ modellərində Bank aşağıda göstərilən iqtisadi giriş məlumatları kimi geniş miqyaslı proqnoz məlumatlarına əsaslanır:

ÜDM;
Real ÜDM;
Qeyri-neft sahəsi üzrə real ÜDM;
Əhalinin nominal gəliri;
Nominal əmək haqları;
Büdcə kəsiri;
Ölkədə vaxtı keçmiş kreditlərin həcmi;
Azərbaycanda bütün bankların cəmi kredit portfeli.

GKZ-lərin hesablanması üçün istifadə edilən giriş məlumatları və modellər maliyyə hesabatlarının hazırlanma tarixinə bazarın bütün xüsusiyyətlərini nəzərə almaya bilər. Bunu əks etdirmək üçün belə fərqlər əhəmiyyətli olduqda bəzən müvəqqəti düzəlişlər kimi keyfiyyət düzəlişləri və ya əlavə düzəlişlər tətbiq edilir.

*Maliyyə aktivlərinin sinifləri üzrə kreditin keyfiyyəti*

Bank tərəfindən kreditlərlə bağlı aktivlərin təsnifləşdirilməsi aşağıdakı qaydada həyata keçirilmişdir:

Yüksək reytinqli – bura yüksək likvidli girovları və ya güclü hökumət dəstəyi olan, dövr ərzində kredit şərtlərində heç bir dəyişiklik olmayan, ödəniş müddətlərində gecikmə olmayan və maliyyə vəziyyəti əla qiymətləndirilən kontragentlər aid edilir.

Standart reytinqli – bu kateqoriyaya dövr ərzində kredit şərtlərində heç bir dəyişiklik olmayan, əsas və faiz borclarında 0-30 gün gecikmə olan və maliyyə vəziyyəti yaxşı qiymətləndirilən kontragentlər aid edilir.

Standartdan aşağı reytinq – bu kateqoriyaya dövr ərzində kredit şərtlərinə dəyişiklik edilən, əsas və faiz borclarında 30-90 gün gecikmələr olan və maliyyə vəziyyəti qənaətbəxş qiymətləndirilən kontragentlər aid edilir.

Dəyərsizləşmiş – bu kateqoriyaya dövr ərzində kredit şərtlərinə dəyişiklik edilən, əsas və faiz borclarında 90 gündən artıq vaxtı keçmiş borcları olan və maliyyə vəziyyəti kafi qiymətləndirilən kontragentlər aid edilir.

Maliyyə aktivlərinin kredit keyfiyyəti Bankın yuxarıda göstərilən daxili kredit reytinqləri ilə idarə olunur. Aşağıdakı cədvəldə Bankın kredit reytinqi sistemi əsasında maliyyə vəziyyəti haqqında hesabatda kreditlə əlaqəli sətirlər üçün aktivin sinfi üzrə kredit keyfiyyəti göstərilir.

| *31 dekabr 2025-ci il* | *Qeyd* | | *Yüksək reytinq* | *Standart reytinq* | *Standartdan aşağı reytinq* | *Dəyərsiz-ləşmiş* | *Cəmi* |
|---|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri, kassada olan pul vəsaitləri istisna olmaqla | 6 | 1-ci Mərhələ | 932,551 | 52,352 | - | - | **984,903** |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 7 | 1-ci Mərhələ | 19,957 | 122,966 | - | - | **142,923** |
| Amortizasiya hesablanmış dəyərlə müştərilərə verilmiş kreditlər | 8 | | | | | | |
| - Dövlətlə bağlı müəssisələr | | 1-ci Mərhələ | 170,027 | - | - | - | **170,027** |
| - Fiziki şəxslərə verilmiş kreditlər – istehlak kreditləri | | 1-ci Mərhələ | - | 304,219 | - | - | **304,219** |
| | | 2-ci Mərhələ | - | - | 10,052 | - | **10,052** |
| | | 3-cü Mərhələ | - | - | - | 17,289 | **17,289** |
| - Korporativ kreditlər | | 1-ci Mərhələ | - | 38,182 | - | - | **38,182** |
| | | 2-ci Mərhələ | - | - | 2,475 | - | **2,475** |
| | | 3-cü Mərhələ | - | - | - | 7,379 | **7,379** |
| - Fiziki şəxslərə verilmiş kreditlər – sahibkarlar | | 1-ci Mərhələ | - | 32,332 | - | - | **32,332** |
| | | 2-ci Mərhələ | - | - | 2,279 | - | **2,279** |
| | | 3-cü Mərhələ | - | - | - | 392 | **392** |
| - Fiziki şəxslərə verilmiş kreditlər – ipoteka kreditləri | | 1-ci Mərhələ | - | 205,139 | - | - | **205,139** |
| | | 2-ci Mərhələ | - | - | 1,935 | - | **1,935** |
| | | 3-cü Mərhələ | - | - | - | 506 | **506** |
| DMGƏD-də tanınan borc qiymətli kağızları | 9 | 1-ci Mərhələ | 105,359 | 13,594 | - | - | **118,953** |
| Amortizasiya hesablanmış dəyərlə borc qiymətli kağızları | 9 | 1-ci Mərhələ | 68,447 | 5,640 | - | - | **74,087** |
| Digər maliyyə aktivləri | 14 | 1-ci Mərhələ | 510 | 27,993 | - | - | **28,503** |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 18 | 1-ci Mərhələ | - | 23,197 | - | - | **23,197** |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 18 | 2-ci Mərhələ | - | - | 28 | - | **28** |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 18 | 3-cü Mərhələ | - | - | - | 1,044 | **1,044** |
| Akkreditivlər | 18 | 1-ci Mərhələ | - | - | - | - | **-** |
| Maliyyə zəmanətləri | 18 | 1-ci Mərhələ | - | 24,604 | - | - | **24,604** |
| Maliyyə zəmanətləri | 18 | 2-ci Mərhələ | - | - | - | - | **-** |
| Maliyyə zəmanətləri | 18 | 3-cü Mərhələ | - | - | - | 16 | **16** |
| İcra zəmanətləri | 18 | 1-ci Mərhələ | - | 11,191 | - | - | **11,191** |
| İcra zəmanətləri | 18 | 2-ci Mərhələ | - | - | - | - | **-** |
| İcra zəmanətləri | 18 | 3-cü Mərhələ | - | - | - | 1,400 | **1,400** |
| **Cəmi** | | | **1,296,851** | **861,409** | **16,769** | **28,026** | **2,203,055** |

| *31 dekabr 2024-cü il* | *Qeyd* | | *Yüksək reytinq* | *Standart reytinq* | *Standartdan aşağı reytinq* | *Dəyərsiz-ləşmiş* | *Cəmi* |
|---|---|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri, kassada olan pul vəsaitləri istisna olmaqla | 6 | 1-ci Mərhələ | 814,986 | 96,051 | - | - | **911,037** |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 7 | 1-ci Mərhələ | 32,726 | 119,959 | - | - | **152,685** |
| Amortizasiya hesablanmış dəyərlə müştərilərə verilmiş kreditlər | 8 | | | | | | |
| - Dövlətlə bağlı müəssisələr | | 1-ci Mərhələ | 217,243 | - | - | - | **217,243** |
| - Fiziki şəxslərə verilmiş kreditlər – istehlak kreditləri | | 1-ci Mərhələ | - | 279,576 | - | - | **279,576** |
| | | 2-ci Mərhələ | - | - | 7,765 | | **7,765** |
| | | 3-cü Mərhələ | - | - | - | 11,662 | **11,662** |
| - Korporativ kreditlər | | 1-ci Mərhələ | - | 63,922 | - | - | **63,922** |
| | | 2-ci Mərhələ | - | - | 620 | - | **620** |
| | | 3-cü Mərhələ | - | - | - | 3,821 | **3,821** |
| - Fiziki şəxslərə verilmiş kreditlər – sahibkarlar | | 1-ci Mərhələ | - | 26,099 | - | - | **26,099** |
| | | 2-ci Mərhələ | - | - | - | - | **-** |
| | | 3-cü Mərhələ | - | - | - | 351 | **351** |
| - Fiziki şəxslərə verilmiş kreditlər – ipoteka kreditləri | | 1-ci Mərhələ | - | 191,466 | - | - | **191,466** |
| | | 2-ci Mərhələ | - | - | 798 | - | **798** |
| | | 3-cü Mərhələ | - | - | - | 775 | **775** |
| DMGƏD-də tanınan borc qiymətli kağızları | 9 | 1-ci Mərhələ | 121,463 | 20,415 | - | - | **141,878** |
| Digər maliyyə aktivləri | 14 | 1-ci Mərhələ | 4,100 | 12,694 | - | - | **16,794** |
| İstifadə edilməmiş kredit öhdəlikləri | 18 | 1-ci Mərhələ | - | 15,215 | - | - | **15,215** |
| Akkreditivlər | 18 | 1-ci Mərhələ | - | 97 | - | - | **97** |
| İcra zəmanətləri | 18 | 1-ci Mərhələ | - | 11,256 | - | - | **11,256** |
| İcra zəmanətləri | 18 | 2-ci Mərhələ | - | | - | - | **-** |
| Maliyyə zəmanətləri | 18 | 1-ci Mərhələ | - | 23,411 | - | - | **23,411** |
| **Cəmi** | | | **1,190,518** | **860,161** | **9,183** | **16,609** | **2,076,471** |

Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi üçün ehtiyat haqqında daha ətraflı məlumat 8 saylı Qeyddə təqdim edilir.

Maliyyə zəmanətləri, istifadə edilməmiş kredit öhdəlikləri və akkreditivlər qiymətləndirilir və gözlənilən kredit zərərləri üçün ehtiyat kreditlərlə eyni qaydada hesablanır (18 saylı Qeydə baxın).

Bankın maliyyə aktivlərinin və öhdəliklərinin coğrafi cəmləşməsi aşağıda müəyyən edilir:

| | *31 dekabr 2025-ci il* | | | | *31 dekabr 2024-cü il* | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | *Azərbaycan* | *İƏİT* | *MDB və digər xarici ölkələr* | *Cəmi* | *Azərbaycan* | *İƏİT* | *MDB və digər xarici ölkələr* | *Cəmi* |
| **Aktivlər** | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 774,270 | 77,575 | 146,630 | 998,475 | 413,392 | 424,178 | 100,600 | **938,170** |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 101,403 | 27,700 | 13,820 | 142,923 | 95,377 | 44,442 | 12,866 | **152,685** |
| İnvestisiya qiymətli kağızları | 102,700 | 62,845 | 27,495 | 193,040 | 76,752 | 41,504 | 23,622 | **141,878** |
| Müştərilərə verilmiş kreditlər | 773,345 | - | - | 773,345 | 792,861 | - | - | **792,861** |
| Digər maliyyə aktivləri | 27,993 | 510 | - | 28,503 | 12,608 | 4,100 | 86 | **16,794** |
| | **1,779,711** | **168,630** | **187,945** | **2,136,286** | **1,390,990** | **514,224** | **137,174** | **2,042,388** |
| **Öhdəliklər** | | | | | | | | |
| Kredit təşkilatlarına və dövlət qurumlarına ödənilməli məbləğlər | 223,429 | 34 | 187,050 | 410,513 | 285,289 | 874 | 75,730 | **361,893** |
| Müştərilərə ödənilməli məbləğlər | 1,533,558 | 22,866 | 71,262 | 1,627,686 | 1,459,174 | 21,778 | 84,105 | **1,565,057** |
| İcarə öhdəlikləri | 11,319 | - | - | 11,319 | 4,333 | - | - | **4,333** |
| Digər maliyyə öhdəlikləri | 7,382 | 70 | 1 | 7,453 | 34,440 | - | - | **34,440** |
| | **1,775,688** | **22,970** | **258,313** | **2,056,971** | **1,783,236** | **22,652** | **159,835** | **1,965,723** |
| **Xalis aktivlər** | **4,023** | **145,660** | **(70,368)** | **79,315** | **(392,246)** | **491,572** | **(22,661)** | **76,665** |

## Likvidlik riski və maliyyələşdirmənin idarə edilməsi

Likvidlik riski adi və ya fövqəladə hallarda ödəniş tarixində Bankın öz ödəniş öhdəliklərini yerinə yetirə bilməməsi riskidir. Bu riski məhdudlaşdırmaq məqsədilə rəhbərlik mövcud əsas bank əmanətlərindən əlavə müxtəlif maliyyələşdirmə mənbələrini təmin etmişdir və bundan əlavə likvidliyi nəzərə almaqla aktivləri idarə edir və gələcək pul vəsaitləri hərəkətlərinin və likvidliyin gündəlik monitorinqini həyata keçirir. Bu proses gözlənilən pul vəsaitləri hərəkətlərinin qiymətləndirilməsini və tələb olunduqda əlavə maliyyələşdirmə əldə etmək üçün istifadə edilə bilən yüksək keyfiyyətli təminatın mövcudluğunu əks etdirir.

Bank pul vəsaitlərinin hərəkəti gözlənilmədən dayandığı təqdirdə asanlıqla satıla bilən yüksək tələbatlı və müxtəlif növ aktivlər portfelinə sahibdir. Bundan əlavə, Bank AMB-də məcburi ehtiyatlar saxlayır və onların məbləği cəlb edilmiş müştəri əmanətlərinin səviyyəsindən asılıdır.

Likvidlik vəziyyəti Bank tərəfindən AMB-nin təyin etdiyi müəyyən likvidlik əmsalları əsasında müəyyən edilir və idarə olunur. ARMB-nin tələblərinə əsasən banklar ani likvidlik əmsalını və likvidliyin örtülmə əmsalını müvafiq olaraq 30% və 62.76%-dən yüksək səviyyədə saxlamalıdır. 31 dekabr tarixinə həmin əmsallar aşağıdakı kimidir:

| | *2025, % auditi aparılmamış* | *2024, % auditi aparılmamış* |
|---|---|---|
| Ani likvidlik əmsalı (bir gün ərzində alınacaq və ya satılacaq aktivlər/tələb əsasında ödənilən öhdəliklər) | 62.76 | 78.22 |
| Likvidliyin örtülmə əmsalı | 179.4 | 339.87 |

*Qalan ödəniş müddətləri ilə maliyyə öhdəliklərinin təhlili*

Aşağıdakı cədvəllərdə diskont edilməmiş müqavilə öhdəlikləri əsasında Bankın 31 dekabr tarixinə maliyyə öhdəliklərinin ödəmə müddətləri təqdim edilir. Tələb əsasında ödəmələr tələbin dərhal verilməsi kimi nəzərə alınır. Azərbaycan qanunvericiliyinə uyğun olaraq Bank, əmanətçinin tələbi əsasında əmanətin əsas məbləğini ödəmək öhdəliyinə malikdir. Lakin Bankın ehtimalına görə bir çox müştərilər Bankdan ödəmənin tələb oluna biləcəyi ən erkən tarixdə ödəniş tələb etməyəcək və cədvəldə Bankın əmanətlərin saxlanılması tarixinə uyğun gözlənilən pul vəsaitlərinin hərəkəti əks olunmur.

| *31 dekabr 2025-ci il tarixinə* | *3 aydan az* | *3 - 12 ay* | *1 - 5 il* | *5 ildən çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlər | 204,214 | 152 | 4,902 | 304,392 | **513,660** |
| Müştərilərə ödəniləcək vəsaitlər | 1,239,907 | 196,441 | 237,037 | - | **1,673,385** |
| İcarə öhdəlikləri | 9 | 442 | 13,865 | - | **13,592** |
| Digər maliyyə öhdəlikləri | 7,453 | - | - | - | **7,453** |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **1,451,583** | **197,035** | **255,804** | **304,392** | **2,208,814** |

| *31 dekabr 2024-cü il tarixinə* | *3 aydan az* | *3 - 12 ay* | *1 - 5 il* | *5 ildən çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| **Maliyyə öhdəlikləri** | | | | | |
| Kredit təşkilatları və dövlət qurumlarına ödəniləcək vəsaitlər | 168,487 | 1,700 | 5,788 | 276,441 | **452,416** |
| Müştərilərə ödəniləcək vəsaitlər | 1,234,769 | 92,228 | 303,592 | - | **1,630,589** |
| İcarə öhdəlikləri | 13 | 711 | 5,057 | - | **5,781** |
| Digər maliyyə öhdəlikləri | 34,440 | - | - | - | **34,440** |
| **Cəmi diskont edilməmiş maliyyə öhdəlikləri** | **1,437,709** | **94,639** | **314,437** | **276,441** | **2,123,226** |

Aşağıdakı cədvəldə Bankın kreditlə bağlı öhdəliklərinin müqavilə müddətləri göstərilir. Hər bir istifadə edilməmiş kredit öhdəliyi istifadə edilə bildiyi en erkən zaman kəsiyinə daxil edilir. Buraxılmış maliyyə zəmanəti müqavilələri və akkreditivlər üçün maksimum məbləğ müqavilənin ləğv edilə bildiyi ən erkən dövr üzrə bölünür.

| | *3 aydan az* | *3 - 12 ay* | *1 - 5 il* | *5 ildən çox* | *Cəmi* |
|---|---|---|---|---|---|
| 2025 | 48,889 | - | - | - | **48,889** |
| 2024 | 38,723 | - | - | - | **38,723** |

Bank ehtimal edir ki, şərti öhdəliklərin və ya təəhhüdlərin heç də hamısı öhdəliklərin müddəti başa çatana qədər yerinə yetirilməyəcəkdir.

Bankın öhdəlikləri yerinə yetirmək qabiliyyəti eyni müddət ərzində eyni məbləğdə aktivləri satmaq qabiliyyətindən asılıdır. Bir ildən az ödəmə müddəti olan fiziki şəxslərdən və müəssisələrdən alınacaq məbləğlərin cəmləşməsi mövcuddur. Bu vəsaitlərin iri məbləğdə çıxarılması Bankın əməliyyatlarına mənfi təsir göstərə bilər. Yaxın gələcəkdə Bankın maliyyələşdirməsi həmin səviyyədə saxlanacaq və bu vəsaitləri çıxarmaq zərurəti yaranarsa Banka likvid aktivləri sataraq həmin ödənişləri yerinə yetirmək üçün yetərli bildiriş veriləcək.

Ödəmə müddətlərinin təhlili cari hesabların tarixən sabitliyini əks etdirmir. Onların satışı tarixən yuxarıdakı cədvəllərdə göstərilən müddətlərdən daha uzun müddətdə aparılmışdır. Bu qalıqlar yuxarıdakı cədvəllərdə 3 aydan az müddət ərzində ödəniləcək vəsaitlərə daxil edilmişdir.

**Bazar riski**

Bazar riski faiz dərəcəsi və valyuta məzənnələri kimi bazar göstəricilərində dəyişikliklər nəticəsində maliyyə alətlərinin ədalətli dəyəri və ya gələcək pul axınlarının dəyişməsi riskidir. Bank bazar riskinə məruzqalmanı qeyri-ticarət portfellərinə təsnif edir. Həssaslıq təhlilindən istifadə etməklə qeyri-ticarət mövqeləri idarə edilir və onların monitorinqi aparılır. Xarici valyuta daxilində cəmləşmələr istisna olmaqla, Bankın əhəmiyyətli bazar riski cəmləşməsi yoxdur.

*Faiz dərəcəsi riski*

Faiz dərəcəsi riski faiz dərəcələrindəki dəyişikliklərin gələcək pul vəsaitlərinin hərəkətinə və ya maliyyə alətlərinin ədalətli dəyərlərinə təsir etməsi ehtimalından yaranır. 31 dekabr 2025 və 2024-cü il tarixlərinə Bankın hər hansı əhəmiyyətli dəyişkən dərəcəli qeyri-ticarət maliyyə alətləri olmamışdır.

Aktiv və öhdəliklərin ödəmə müddətinin təhlili Bankın faiz dərəcələrinin yenidən qiymətləndirilməsi profilini əks etdirir.

*Valyuta riski*

Valyuta riski xarici valyuta məzənnələrində dəyişikliklərlə əlaqədar maliyyə alətinin dəyərinin dəyişməsi riskidir. İdarə Heyəti AMB-nin qaydalarına uyğun olaraq valyuta mövqeləri üzrə hədlər müəyyən etmişdir. Bu mövqelərin gündəlik monitorinqi həyata keçirilir.

Aşağıdakı cədvəldə 31 dekabr tarixinə Bankın qeyri-ticarət monetar aktivləri və öhdəlikləri və proqnozlaşdırılmış pul vəsaitləri hərəkətləri üzrə əhəmiyyətli riskə məruz qaldığı valyutalar göstərilir. Təhlil zamanı bütün digər göstəricilərin sabit qalması şərti ilə, valyuta məzənnəsinin AZN-ə qarşı bütün mümkün hərəkətinin mənfəət və ya zərər haqqında hesabata təsiri (valyutaya qarşı həssas olan qeyri-ticarət monetar aktivlərin və öhdəliklərin ədalətli dəyərinə görə) hesablanır. Kapitala təsir mənfəət və ya zərər haqqında hesabata təsirdən fərqlənmir. Cədvəldə mənfi məbləğ mənfəət və ya zərər haqqında hesabatda və ya kapitalda mümkün xalis azalmanı, müsbət məbləğ isə xalis mümkün artımı əks etdirir.

| *Valyuta* | *2025-ci il üzrə valyuta məzənnəsində artım, faiz ilə* | *2025-ci il üzrə vergidən əvvəlki mənfəətə təsir* | *2024-cü il üzrə valyuta məzənnəsində artım, faiz ilə* | *2024-cü il üzrə vergidən əvvəlki mənfəətə təsir* |
|---|---|---|---|---|
| ABŞ dolları | 10.00% | (991) | 10.00% | (754) |
| AVRO | 10.00% | 22 | 10.00% | 10 |

| *Valyuta* | *2025-ci il üzrə valyuta məzənnəsində azalma, faiz ilə* | *2025-cüi il üzrə vergidən əvvəlki mənfəətə təsir* | *2024-cü il üzrə valyuta məzənnəsində azalma, faiz ilə* | *2024-cü il üzrə vergidən əvvəlki mənfəətə təsir* |
|---|---|---|---|---|
| ABŞ dolları | -10.00% | 991 | -10.00% | 754 |
| AVRO | -10.00% | (22) | -10.00% | (10) |

Bankın maliyyə aktivləri və öhdəliklərinin valyuta təsnifatı aşağıdakı kimidir:

| **31 dekabr 2025-ci il tarixinə** | **AZN** | **ABŞ dolları** | **Avro** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 751,560 | 63,132 | 52,066 | 131,717 | 998,475 |
| Banklardan alınacaq vəsaitlər | 42,985 | 96,932 | 3,006 | - | 142,923 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 608,707 | 164,617 | 21 | - | 773,345 |
| İnvestisiya qiymətli kağızları | 90,651 | 102,389 | - | - | 193,040 |
| Digər maliyyə aktivləri | 22,855 | 5,392 | 242 | 14 | 28,503 |
| **Cəmi maliyyə aktivləri** | **1,516,758** | **432,462** | **55,335** | **131,731** | **2,136,288** |
| | | | | | |
| Kredit təşkilatlarına və dövlət qurumlarına ödənilməli məbləğlər | 220,116 | 65,804 | 2,980 | 121,613 | 410,513 |
| Müştərilərə ödənilməli məbləğlər | 1,190,336 | 375,446 | 52,100 | 9,754 | 1,627,686 |
| İcarə öhdəlikləri | 11,319 | - | - | - | 11,319 |
| Digər maliyyə öhdəlikləri | 5,305 | 2,102 | 31 | 15 | 7,453 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,427,126** | **443,352** | **55,111** | **131,382** | **2,056,971** |
| | | | | | |
| **Açıq mövqe** | **89,632** | **(10,890)** | **224** | **349** | **79,315** |

| **31 dekabr 2024-cü il tarixinə** | **AZN** | **ABŞ dolları** | **AVRO** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 337,674 | 407,364 | 125,900 | 67,232 | **938,170** |
| Banklardan alınacaq vəsaitlər | 51,360 | 100,286 | 1,039 | - | **152,685** |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 574,980 | 217,810 | 71 | - | **792,861** |
| İnvestisiya qiymətli kağızları | 61,709 | 80,169 | - | - | **141,878** |
| Digər maliyyə aktivləri | 12,039 | 4,284 | 469 | 2 | **16,794** |
| **Cəmi maliyyə aktivləri** | **1,037,762** | **809,913** | **127,479** | **67,234** | **2,042,388** |
| | | | | | |
| Kredit təşkilatlarına və dövlət qurumlarına ödənilməli məbləğlər | 199,200 | 94,878 | 16,548 | 51,267 | **361,893** |
| Müştərilərə ödənilməli məbləğlər | 735,461 | 706,072 | 110,416 | 13,108 | **1,565,057** |
| İcarə öhdəlikləri | 4,333 | - | - | - | **4,333** |
| Digər maliyyə öhdəlikləri | 17,519 | 16,506 | 411 | 4 | **34,440** |
| **Cəmi maliyyə öhdəlikləri** | **956,513** | **817,456** | **127,375** | **64,379** | **1,965,723** |
| **Açıq mövqe** | **81,249** | **(7,543)** | **104** | **2,855** | **76,665** |

**Əməliyyat riski**

Əməliyyat riski sistemlərin nasazlığı, işçilərin səhvi, saxtakarlıq və ya xarici hadisələr nəticəsində yaranan riskdir. Nəzarət sistemi işləməyəndə əməliyyat riskləri nüfuza xələl gətirə, normativ-hüquqi nəticələrə və ya maliyyə zərərlərinə gətirib çıxara bilər. Bank bütün əməliyyat risklərinin aradan götürülməsini təmin edə bilməz, lakin nəzarət çərçivəsi vasitəsilə potensial risklərin monitorinqini aparmaqla və cavab tədbirləri həyata keçirməklə Bank bu riskləri idarə edə bilər. Nəzarət mexanizmlərinə vəzifələrin səmərəli bölüşdürülməsi, sistemə giriş, avtorizasiya və üzləşdirmə prosedurları, heyətə təlimin keçirilməsi və qiymətləndirmə prosesləri, eləcə də daxili auditdən istifadə daxildir.

## 23. Ədalətli dəyərin ölçülməsi

**Ədalətli dəyər iyerarxiyası**

Bank maliyyə alətlərinin ədalətli dəyərinin qiymətləndirmə üsulu ilə müəyyən edilməsi və açıqlanması üçün aşağıdakı iyerarxiyadan istifadə edir:

Səviyyə 1: Aktiv bazarda eyni aktiv və öhdəliklər üçün təyin edilən (düzəliş edilməmiş) bazar qiymətləri;
Səviyyə 2: Uçota alınmış ədalətli dəyərə əhəmiyyətli təsir göstərən birbaşa və ya dolayısı ilə bazarda müşahidə edilə bilən ilkin məlumatlar üçün istifadə edilən digər üsullar; və
Səviyyə 3: Uçota alınmış ədalətli dəyərə əhəmiyyətli təsir göstərən müşahidə edilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatlardan istifadə edən üsullar.

Ədalətli dəyər açıqlamaları üçün Bank yuxarıda göstərildiyi kimi aktiv və öhdəliklərin siniflərini aktiv və ya öhdəliyin növü, xüsusiyyətləri, onlarla bağlı risklər və ədalətli dəyər iyerarxiyasının səviyyələri əsasında müəyyən etmişdir.

| | | *Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər* | | | |
|---|---|---|---|---|---|
| | ***Qiymətləndirmə tarixi*** | ***Aktiv bazarlarda təyin edilən qiymət (Səviyyə 1)*** | ***Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (Səviyyə 2)*** | ***Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (Səviyyə 3)*** | ***Cəmi*** |
| **Ədalətli dəyərlə ölçülən aktivlər** | | | | | |
| DMGƏD-də tanınan investisiya qiymətli kağızları | 31 dekabr 2025-ci il | 75,102 | 43,851 | - | **118,953** |

| | | *Ədalətli dəyərin ölçülməsi üçün istifadə edilən göstəricilər* | | | |
|---|---|---|---|---|---|
| | *Qiymətləndirmə tarixi* | *Aktiv bazarlarda təyin edilən qiymət (Səviyyə 1)* | *Müşahidə edilə bilən əhəmiyyətli məlumatlar (Səviyyə 2)* | *Müşahidə edilə bilməyən əhəmiyyətli məlumatlar (Səviyyə 3)* | *Cəmi* |
| **Ədalətli dəyərlə ölçülən aktivlər** | | | | | |
| DMGƏD-də tanınan investisiya qiymətli kağızları | 31 dekabr 2024-cü il | 84,490 | 57,388 | - | **141,878** |
| Digər maliyyə aktivləri (MZƏD ilə ölçülmüş törəmə alətlər (FX SWAP)) | 31 dekabr 2024-cü il | - | 174 | - | **174** |

*Ədalətli dəyərlə əks etdirilməmiş maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri*

Aşağıda Bankın maliyyə vəziyyəti haqqında hesabatında ədalətli dəyərlə əks etdirilməmiş maliyyə alətlərinin balans dəyərləri və ədalətli dəyərləri siniflər üzrə müqayisə edilir. Cədvəldə qeyri-maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyərləri təqdim edilmir.

| | *Balans dəyəri 2025* | *Ədalətli dəyər 2025* | *Balans dəyəri 2024* | *Ədalətli dəyər 2024* |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 998,475 | 998,475 | 938,170 | 938,170 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 142,923 | 142,923 | 152,685 | 152,685 |
| İnvestisiya qiymətli kağızları | 74,087 | 74,087 | 141,878 | 141,878 |
| Müştərilərə verilmiş kreditlər | 773,345 | 772,260 | 792,861 | 792,333 |
| Digər maliyyə aktivləri | 28,503 | 28,503 | 16,794 | 16,794 |
| | | | | |
| **Maliyyə öhdəlikləri** | | | | |
| Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər | 410,513 | 410,513 | 361,893 | 361,893 |
| Müştərilərə ödəniləcək məbləğlər | 1,627,686 | 1,629,822 | 1,565,057 | 1,564,799 |
| İcarə öhdəlikləri | 11,319 | 11,319 | 4,333 | 4,333 |
| Digər maliyyə öhdəlikləri | 7,453 | 7,453 | 34,440 | 34,440 |

**Qiymətləndirmə üsulları və fərziyyələr**

Aşağıda maliyyə hesabatlarında ədalətli dəyərlə qeyd olunmuş aktiv və öhdəliklər, maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə ölçülməmiş, lakin ədalətli dəyəri açıqlanmış maddələrin ədalətli dəyərlərini müəyyən etmək üçün istifadə edilən üsul və fərziyyələr təsvir olunur.

***DMGƏD-də tanınan investisiya qiymətli kağızları***

Qiymətləndirmə və qiymətqoyma modellərindən istifadə etməklə DMGƏD ilə qiymətləndirilmiş investisiya qiymətli kağızları əsasən kotirovka edilməyən kapitaldan və kotirovka edilən və edilməyən borc qiymətli kağızlarından ibarətdir. Bu qiymətli kağızların dəyəri bəzi hallarda yalnız bazarda müşahidə edilən məlumatları, digər hallarda isə bazarda həm müşahidə edilən, həm də müşahidə edilməyən məlumatları əks etdirən modellər vasitəsilə müəyyən edilir. Bazarda müşahidə edilməyən giriş məlumatlarına investisiya obyektinin gələcək maliyyə göstəriciləri, onun risk profili ilə bağlı fərziyyələr, eləcə də investisiya obyektinin fəaliyyət göstərdiyi sənaye sahəsi və coğrafi yurisdiksiya ilə bağlı iqtisadi fərziyyələr daxildir.

***Törəmə maliyyə alətləri***

Törəmə maliyyə alətlərinin ədalətli dəyərləri aktiv və ya öhdəliklər kimi qeydə alınır. Şərti məbləğ törəmə alətin baza aktivinin və ya öhdəliyinin məbləğini, baza dərəcəsi və ya indeksini və törəmə alətlərin dəyərindəki dəyişiklikləri ölçmək üçün əsası əks etdirir. Törəmə alətlərin ədalətli dəyəri bazarda müşahidə olunan xarici valyuta məzənnələrindən əldə edilən spred nəzərə alınmaqla müəyyən edilir. Şərti məbləğlər ilin sonuna qalan əməliyyatların həcmini göstərir və kredit riskinin göstəricisi deyil.

***Amortizasiya olunmuş dəyərlə uçota alınan maliyyə aktivləri və maliyyə öhdəlikləri***

Kotirovka olunmayan alətlərin, müştərilərə verilmiş kreditlərin, müştəri depozitlərinin, kredit təşkilatlarından alınacaq vəsaitlərin, kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlərin, digər maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri eyni şərtlər, kredit riski və qalan ödəmə müddəti olan borclar üçün hazırda mövcud olan dərəcələrdən istifadə etməklə gələcək pul vəsaitlərinin hərəkətini diskontlaşdıraraq qiymətləndirilir.

## 24. Aktivlərin və öhdəliklərin ödəmə müddətinin təhlili

Aşağıdakı cədvəldə aktiv və öhdəliklərin ödəniş və ya hesablaşma vaxtına görə təhlili təqdim olunur. Bankın müqavilə üzrə diskont edilməmiş ödəniş öhdəlikləri üçün 22 saylı "Risklərin idarə edilməsi" adlı Qeydə baxın.

| | *31 dekabr 2025-ci il* | | | *31 dekabr 2024-cü il* | | |
|---|---|---|---|---|---|---|
| | *1 il ərzində* | *1 ildən çox* | *Cəmi* | *1 il ərzində* | *1 ildən çox* | *Cəmi* |
| Pul vəsaitləri və onların ekvivalentləri | 998,475 | - | 998,475 | 938,170 | - | **938,170** |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 142,523 | 400 | 142,923 | 152,685 | - | **152,685** |
| İnvestisiya qiymətli kağızları | 74,918 | 118,122 | 193,040 | 26,287 | 115,591 | **141,878** |
| Müştərilərə verilmiş kreditlər | 64,247 | 709,098 | 773,345 | 79,462 | 713,399 | **792,861** |
| Digər maliyyə aktivləri | 28,503 | - | 28,503 | 16,794 | - | **16,794** |
| **Cəmi** | **1,308,666** | **827,620** | **2,136,286** | **1,213,398** | **828,990** | **2,042,388** |
| | | | | | | |
| Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər | 204,366 | 206,147 | **410,513** | 170,133 | 191,760 | **361,893** |
| Müştərilərə ödəniləcək vəsaitlər | 1,429,267 | 198,419 | **1,627,686** | 1,321,987 | 243,070 | **1,565,057** |
| İcarə öhdəlikləri | 411 | 10,908 | **11,319** | 633 | 3,700 | **4,333** |
| Digər maliyyə öhdəlikləri | 7,453 | - | **7,453** | 34,440 | - | **34,440** |
| **Cəmi** | **1,641,497** | **415,474** | **2,056,971** | **1,527,193** | **438,530** | **1,965,723** |
| **Xalis** | **(332,831)** | **412,146** | **79,315** | **(313,795)** | **390,460** | **76,665** |

Bankın rəhbərliyinin fikrincə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət olunan uyğunsuzluğu Bankın idarə olunması üçün əsas amillərdir. Bu göstəricilər üzrə uyğunsuzluq potensial olaraq rentabelliyi artıra, eyni zamanda zərərin baş vermə riskini yüksəldə bilər. Aktiv və öhdəliklərin ödəmə müddətləri, eləcə də ödəmə müddətləri tamamlanan kimi faiz hesablanan öhdəliklərin məqbul dəyərlə əvəz edilməsi imkanı Bankın likvidliyinin, habelə faiz dərəcələri və mübadilə məzənnələrində dəyişikliklər riskinin qiymətləndirilməsi üçün əsas amillər hesab olunur.

Bank likvidlik məsələləri zamanı asanlıqla nağd pula çevrilə bilən 112,927 min AZN dəyərində əhəmiyyətli miqdarda yüksək likvidli aktivlərə (istiqrazlara) malikdir.

Rəhbərliyin fikrincə, müştəri hesablarının əhəmiyyətli hissəsinin tələb üzrə ödənilməli olduğuna baxmayaraq, həmin vəsaitlərin əmanətçilərin sayına və növünə görə diversifikasiyası, eləcə də Bankın keçmiş təcrübəsi göstərir ki, bu müştəri hesabları Bankın fəaliyyəti üçün uzunmüddətli və sabit maliyyə mənbəyini təmin edir.

Rəhbərlik hesab edir ki, 31 dekabr 2025-ci il tarixinə 1,159,971 min AZN (31 dekabr 2024-cü il: 1,042,386 min AZN) məbləğində olan cari hesabların qalıqlarının ödəmə müddətləri cədvəlində "1 il ərzində" kateqoriyasına aid edilməsinə baxmayaraq, bu vəsaitlərin hamısının bir ay ərzində çıxarılmayacağı aydındır. Keçmiş təcrübə göstərir ki, cari hesab qalıqları son 10 il ərzində 23%-dən çox azalmamışdır.

## 25. Əlaqəli tərəflərə dair açıqlamalar

*Əlaqəli tərəflərə dair açıqlamalar* adlı 24 saylı MUBS-a uyğun olaraq tərəflər bu halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək iqtidarında olur. Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirərkən diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilməlidir.

Səhmdarlar vasitəsilə fəaliyyət göstərən Azərbaycan Respublikasının hökuməti Bankın fəaliyyətinə nəzarət edir. Azərbaycan Respublikasının hökuməti öz dövlət orqanları və digər təşkilatlar (birlikdə "dövlət müəssisələri") vasitəsilə əhəmiyyətli sayda müəssisələrə birbaşa və ya dolayısı ilə nəzarət edir və onlara əhəmiyyətli dərəcədə təsir göstərir. Azərbaycan Respublikasının Hökuməti ictimaiyyətə və ya mülkiyyəti/nəzarəti altında olan müəssisələrə hökumətin mülkiyyətində və ya birbaşa və ya dolayısı ilə nəzarəti altında olan müəssisələrin tam siyahısını təqdim etmir. Belə vəziyyətdə Bankın rəhbərliyi yalnız hazırkı daxili idarəetmə sisteminin dövlətin nəzarəti altında olan müəssisələrlə əməliyyatlarla bağlı təqdim etməyə imkan verdiyi məlumatı, habelə rəhbərliyin məlumatına görə dövlətin nəzarəti altında olan müəssisə hesab oluna bilən müəssisələr haqqında məlumatları açıqlamışdır.

Əlaqəli tərəflərə dair açıqlamalar adlı 24 saylı MUBS-a uyğun olaraq tərəflər bu halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək iqtidarında olur. Əlaqəli tərəflər əlaqəli olmayan tərəflərin həyata keçirə bilmədiyi əməliyyatlarda iştirak edə bilər və əlaqəli tərəflər arasında əməliyyatlar əlaqəli olmayan tərəflər arasında əməliyyatlarla eyni şərtlər, müddət və məbləğlərdə aparılmaya bilər.

Əlaqəli tərəflərlə əməliyyatlar müəyyən edilmiş normativlər əsasında AMB-nin müvafiq qaydalarına uyğun olaraq aparılır.

Əlaqəli tərəflərlə əməliyyatların həcmi, ilin sonunda qalıq balansları və il üzrə əlaqəli xərc və gəlir aşağıda göstərilir:

| | ***31 dekabr 2025-ci il*** | | | ***31 dekabr 2024-cü il*** | | |
|---|---|---|---|---|---|---|
| | ***Səhmdarlar*** | ***Ümumi nəzarətdə olan müəssisələr*** | ***Əsas idarəedici heyət*** | ***Səhmdarlar*** | ***Ümumi nəzarətdə olan müəssisələr*** | ***Əsas idarəedici heyət*** |
| **1 yanvar tarixinə qalan kreditlər, ümumi** | | **217,839** | **392** | **-** | **-** | **415** |
| İl ərzində buraxılan kreditlər | - | - | 13 | - | 232,549 | 23 |
| Kreditin kateqoriyasının keçirilməsi | 175,709 | (175,709) | - | - | - | - |
| İl ərzində kredit üzrə ödənişlər | (16,303) | (28,107) | (142) | - | (14,710) | (46) |
| **31 dekabr tarixinə qalan kreditlər, ümumi** | **159,406** | **14,023** | **263** | **-** | **217,839** | **392** |
| Çıxılsın: 31 dekabr tarixində gözlənilən kredit zərəri ehtiyatı | - | (3,403) | - | - | - | - |
| **31 dekabr tarixinə qalan kreditlər, xalis** | **159,406** | **10,620** | **263** | **-** | **217,839** | **392** |
| Kreditlər üzrə faiz gəliri | 13,470 | 973 | 21 | - | 14,074 | 34 |

Əlaqəli tərəflərə kreditlər Müşahidə Şurasının qərarı əsasında verilir. Əlaqəli tərəflərə verilmiş kreditlərin şərtləri bazar şərtləri əsasında və müvafiq qanunvericiliyə uyğun olaraq kredit müqaviləsi ilə müəyyən edilir. AMB banklardan qanunla müəyyən edilmiş maliyyə hesabatlarına əsasən hesablanmış, əlaqəli tərəflərə verilmiş məbləğlərlə bağlı müəyyən prudensial əmsalların saxlanmasını tələb edir. 31 dekabr 2025-ci il tarixinə Bank bu əmsallara uyğunluğu təmin etmişdir.

| | ***31 dekabr 2025-ci il*** | | | ***31 dekabr 2024-cü il*** | | |
|---|---|---|---|---|---|---|
| | ***Səhmdarlar*** | ***Ümumi nəzarətdə olan müəssisələr*** | ***Əsas idarəedici heyət*** | ***Səhmdarlar*** | ***Ümumi nəzarətdə olan müəssisələr*** | ***Əsas idarəedici heyət*** |
| **1 yanvar tarixinə depozitlər** | **-** | **71,052** | **-** | **-** | **-** | **-** |
| İl ərzində alınmış depozitlər | 9,011 | 183,622 | - | - | 71,052 | - |
| Kreditin kateqoriyasının keçirilməsi | 5,290 | (5,290) | | | | |
| İl ərzində geri ödənilmiş depozitlər | - | (63,091) | - | - | - | - |
| **31 dekabr tarixinə depozitlər** | **14,301** | **186,294** | **-** | **-** | **71,052** | **-** |
| **31 dekabr tarixinə balans dəyəri** | | | | | | |
| Cari hesablar | 30,275 | 751,832 | 80 | 10,053 | 762,834 | 559 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 323 | 27,069 | - | 352 | - | - |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 850 | - | - | 1,700 | - | - |
| Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər | 8 | 24,392 | - | - | 67,715 | - |
| İnvestisiya qiymətli kağızları | 78,633 | - | - | 56,415 | 1,120 | - |
| Digər öhdəliklər | - | (281) | - | - | (363) | - |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər üzrə faiz gəliri | 71 | 2,896 | - | 294 | 3,125 | - |
| İnvestisiya qiymətli kağızları üzrə faiz gəliri | 4,966 | 367 | - | - | 1,355 | - |
| Müştəri depozitləri üzrə faiz xərci | (8,800) | (17,342) | (0) | - | (8,860) | (2) |
| Kredit təşkilatlarına və dövlət qurumlarına ödəniləcək vəsaitlər üzrə faiz xərci | - | (70) | - | (27) | (5,240) | - |
| Digər əməliyyat xərcləri | - | (6,210) | - | - | (5,921) | - |

Əsas idarəedici heyətə ödənişlər aşağıdakı kimidir:

| | ***31 dekabr 2025-ci il tarixində başa çatan il*** | ***31 dekabr 2024-cü il tarixində başa çatan il*** |
|---|---|---|
| Əmək haqqı və digər ödənişlər | 1,227 | 1,188 |
| Sosial sığorta xərcləri | 289 | 261 |
| **Cəmi əsas idarəedici heyətə ödənişlər** | **1,516** | **1,449** |

## 26. Kapital adekvatlığı

Bank öz fəaliyyətinə xas olan risklərin qarşılanması məqsədilə kapital bazasını fəal şəkildə idarə edir. Bankın kapitalının adekvatlığına Banka nəzarət çərçivəsində AMB nəzarət edir.

Bank tərəfindən kapitalın idarə edilməsi siyasətinin əsas məqsədi Bankda kapitalla bağlı müəyyən olunmuş xarici tələblərin yerinə yetirilməsinin, habelə fəaliyyətin həyata keçirilməsi və səhmdar dəyərinin artırılması məqsədilə yüksək kredit reytinqinin və sağlam kapital əmsallarının saxlanmasının təmin edilməsidir.

Bank iqtisadi şəraitdə və öz fəaliyyəti ilə bağlı risk xüsusiyyətlərində dəyişiklikləri nəzərə almaqla kapital strukturunu idarə edir və müvafiq düzəlişlər edir. Kapital strukturunu saxlamaq və ya bu strukturda düzəlişlər etmək məqsədilə Bank səhmdarlara ödənilən dividend məbləğlərinə düzəlişlər edə, kapitalı səhmdarlara qaytara və ya kapital qiymətli kağızlarını buraxa bilər. Keçən illərlə müqayisədə məqsəd, siyasət və proseslərdə dəyişikliklər baş verməmişdir.

31 dekabr 2025-ci il tarixinə çıxılmalardan sonra Bankın tənzimləyici kapitalı 110,792 min AZN olmuşdur ki, bu da AMB tərəfindən tələb edilən minimum məbləğ olan 50,000 min AZN həddindədir. (2024-cü il: 98,876 min AZN).

Azərbaycan Respublikasının hökuməti Bankın AMB-nin tənzimləyici tələblərinə uyğunluğu və normal fəaliyyətini davam etdirməsi üçün zəruri kapital qoyuluşunu təmin etməyə hazırdır.
Rəhbərlik hesab edir ki, Bank gələcəkdə Banka qarşı sanksiyalarla qarşılaşmayacaq.

**AMB-nin kapital adekvatlığı əmsalı**

AMB banklardan tənzimləyici kapital üçün minimum 1-ci dərəcəli kapitalı və məcmu kapital adekvatlığı əmsalını risk dərəcəsi üzrə ölçülmüş aktivlərin, müvafiq olaraq, 5.5% (2024-cü il: 5%) və 10.5% (2024-cü il: 10%) dərəcələrində saxlamağı tələb edir. Bu minimum tələblər 31 dekabr 2025-ci il tarixinə dəyişməz qalmışdır və bank sektorunun faktiki əmsalları həmin hədləri əhəmiyyətli dərəcədə üstələmişdir (məsələn, son hesabatlara əsasən sektor üzrə ümumi kapital adekvatlığı əmsalı təxminən 18% təşkil etmişdir). Qeyd edilməlidir ki, 2025-ci ilin sonlarında təsdiq edilən Bank Kapitalı və onun Adekvatlığı Qaydalarına Basel III standartlarına tam uyğunlaşdırılması üçün edilən dəyişikliklərə (o cümlədən, 1-ci dərəcəli əsas kapital üzrə 4.5%, 1-ci dərəcəli kapital üzrə 6%, ümumi kapital üzrə 8% üstəgəl buferlər) bir illik keçid müddəti tətbiq edilmişdir və tam məcburi tətbiqi 1 yanvar 2027-ci il tarixindən qüvvəyə minəcək. Kredit portfelinin artımı şəraitində dayanıqlığın gücləndirilməsi məqsədilə ümumi tənzimləyici kapital və 1-ci dərəcəli kapital üzrə 0.5%-lik kontr-tsiklik kapital buferi 1 mart 2025-ci il tarixindən qüvvəyə minmişdir.

31 dekabr 2025 və 2024-cü il tarixlərinə Bankın bu əsasla kapital adekvatlığı əmsalı aşağıdakı kimi olmuşdur:

| | ***31 dekabr 2025-ci il (auditi aparılmamış)*** | ***31 dekabr 2024-cü il (auditi aparılmamış)*** |
|---|---|---|
| 1-ci dərəcəli kapital | 94,090 | 73,027 |
| 2-ci dərəcəli kapital | 16,702 | 27,308 |
| Çıxılsın: kapitaldan tutulmalar | - | (1,459) |
| **Cəmi tənzimləyici kapital** | **110,792** | **98,876** |
| **Risk dərəcəsi üzrə ölçülmüş aktivlər** | **790,091** | **850,739** |
| Kapital adekvatlığı əmsalı (1-ci dərəcəli) | 11.91% | 8.58% |
| Kapital adekvatlığı əmsalı (Cəmi kapital) | 14.02% | 11.62% |

## 27. Hesabat tarixindən sonrakı hadisələr

2026-cı ilin yanvar ayında Səhmdarların Ümumi Yığıncağının qərarı ilə xanım Günel Nəbiyeva İdarə Heyətinin Sədri, Müşahidə Şurasının qərarı ilə cənab Fuad Məmmədli isə İdarə Heyətinin Sədrinin müavini və Baş Maliyyə İnzibatçısı təyin edildi.

Hesabat tarixindən sonra, 2026-cı ilin fevral ayının sonlarında İran və İsrail arasında baş verən hərbi münaqişədən sonra geosiyasi gərginlik artdı və bu, regional qeyri-sabitliyə və müəyyən qlobal ticarət yollarına və enerji bazarlarına mənfi təsir göstərdi. Maliyyə hesabatlarının təsdiq edildiyi tarixə olan məlumata əsasən, rəhbərlik münaqişənin Bankın əməliyyatlarına, likvidlik mövqeyinə və ya maliyyə göstəricilərinə təsir göstərmədiyini müəyyən etdi. Rəhbərlik vəziyyəti izləməyə davam edəcək və münaqişənin daha da şiddətlənəcəyi təqdirdə hər hansı potensial nəticələri qiymətləndirəcək.